AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

**Ceyhun Alıyev**
**Akif Quliyev**
**Şəfəq Şahməmmədova**

# MƏKTƏBDƏ PEDAQOJİ TƏCRÜBƏ ÜZRƏ PSİXOLOJİ PRAKTİKUM

*Metodik vəsait*

*Azərbaycan Dillər Universiteti*
*Elmi şurasının 11 iyun 2018-ci il tarixli*
*iclasının qərarı ilə (pr.№18)*
*təsdiq edilmişdir*

**Bakı – Mütərcim – 2018**

**Tərtib edənlər:** ***Ceyhun Alıyev***
*Azərbaycan Dillər Universitetinin dosenti,*
*psixologiya üzrə fəlsəfə doktoru*

***Akif Quliyev***
*Azərbaycan Dillər Universitetinin dosenti,*
*psixologiya üzrə fəlsəfə doktoru*

***Şəfəq Şahməmmədova***
*Azərbaycan Dillər Universitetinin müəllimi*

**Elmi redaktor:** ***Əzim Əliyev***
*Azərbaycan Dillər Universitetinin*
*baş müəllimi, psixologiya üzrə fəlsəfə doktoru*

**Rəyçilər:** ***Əmralı Şirəliyev***
*Azərbaycan Dillər Universitetinin dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*

***Məhərrəm Əliyev***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*baş müəllimi, psixologiya üzrə fəlsəfə doktoru*

***Ramil Mirzəyev***
*Bakı Qızlar Universitetinin baş müəllimi,*
*psixologiya üzrə fəlsəfə doktoru*

MƏKTƏBDƏ PEDAQOJİ TƏCRÜBƏ ÜZRƏ PSİXOLOJİ PRAKTİKUM.
*Metodik vəsait /* Tərt.ed.: C.Alıyev, A.Quliyev, Ş.Şahməmmədova
– Bakı: Mütərcim, 2018. – 176 səh.

A $\frac{4306010000}{026}$ 283-18

© C.Alıyev, A.Quliyev, Ş.Şahməmmədova, 2018

# MÜNDƏRİCAT

GİRİŞ ....................................................................5

**I BÖLMƏ**
**MƏKTƏBDƏ PSİXOLOJİ TƏCRÜBƏNİN MƏZMUNU**.............7

Pedaqoji təcrübədə psixologiyadan nəzərdə tutulan tapşırıqlar haqqında ..........................................................................7
Psixologiyadan yerinə yetiriləcək tapşırıqların icrasına verilən tələb və tövsiyələr ....................................................................8
Psixopedaqoji xarakteristika üçün müşahidə materiallarının əldə edilməsi........................................................................10

**II BÖLMƏ**
**ŞAGİRD ŞƏXSİYYƏTİNİN PSİXOLOJİ-PEDAQOJİ TƏHLİLİ**.........................................................................18

2.1. Şagird şəxsiyyətinin öyrənilməsi və ona psixoloji-pedaqoji xarakteristika tərtibi üçün sxem ........................................18
2.2. Şagird şəxsiyyətinin öyrənilməsi üçün tövsiyə edilən test və metodikalar ........................................................................20

**III BÖLMƏ**
**SİNİF KOLLEKTİVİNİN PSİXOLOJİ-PEDAQOJİ TƏHLİLİ**..61

3.1. Sinif kollektivinin psixoloji-pedaqoji xarakteristikasının tərtibi üçün təxmini sxem ................................................61
3.2. Sinif kollektivinin öyrənilməsi ilə bağlı metodik məsləhət..64
3.3. Sinif kollektivinin öyrənilməsi üçün psixoloji test və metodikalar ..........................................................................66

**IV BÖLMƏ**
**DƏRSİN VƏ DƏRS CƏDVƏLİNİN PSİXOLOJİ–PEDAQOJİ TƏHLİLİ** ........ 80

4.1. Müəllimin pedaqoji fəaliyyətində dərsin psixoloji təhlili ..... 80
4.2. Dərsin psixoloji təhlilinin təxmini sxemi (M.Ə.Həmzəyevə görə) ........ 84
4.3. Dərsin psixoloji təhlili sxemi (L.T.Oxitinaya görə) ........ 87
4.4. Dərs cədvəlinin psixoloji təhlil sxemi ........ 93
4.5. Aktual mövzuda əxlaqi-psixoloji söhbət ........ 97
4.6. Sual təfəkkürün katalizatoru kimi ........ 98

**V BÖLMƏ**
**PSİXOLOGİYADAN TAPŞIRIQLARIN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ PEDAQOJİ TƏCRÜBƏ DƏFTƏRİNİN TƏRTİBİNƏ AİD MATERİALLAR** ........ 101

4

5.1. Psixologiya üzrə tapşırıqların və pedaqoji təcrübənin qiymətləndirilməsi meyarları haqqında ........ 101
5.2. Pedaqoji təcrübə dəftərinintərtibində nəzərə alınması vacib olan materiallar ........ 105

**VI BÖLMƏ**
**TƏLİM PSİXOLOGİYASI ÜZRƏ NƏZƏRİ VƏ PRAKTİK MƏSƏLƏLƏR** ........ 109

6.1.Təlim məqsədlərinin taksonomiyası ........ 109
6.2. Modelləşdirilmiş pedaqoji şərait və vəziyyətlər üzrə praktikum ........ 117

ƏLAVƏLƏR
PSİXOLOJİ-PEDAQOJİ HİKMƏT XƏZİNƏSİNDƏN ........ 139
İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI ........ 176

# GİRİŞ

XXI əsr tarixə ağlın, intellektin təntənəsi əsri kimi daxil olmuşdur. Müstəqillik yolunda inamla irəliləyən Azərbaycanın sənaye cəmiyyətindən informasiya cəmiyyətinə doğru inkişaf etməsi zamanın tələbidir. Respublikamızm milli və dövlətimə-nafeyi təhsil siyasətinin bu istiqamət üzrə aparılmasını zəruri etmişdir. Son illərdə aparılan təhsil islahatları milli-mənəvi dəyərlərə uyğunlaşdırılmaqla uğurlu beynəlxalq təcrübəyə istinad edir.

XXI əsrdə Azərbaycanda təhsil siyasətinin yeni pedaqoji təfəkkürün paradiqmaları əsasında həyata keçirilməsi uğurlu hadisədir. Yeni pedaqoji təfəkkür şagirdi təlim-tərbiyə prosesinin subyekti kimi qəbul etməyi, onun inkişaf edən insan kimi məziyyətləri ilə hesablaşmağı, ona şəxsiyyət kimi yanaşmağı və şəxsiyyət kimi formalaşdırmağı zəruri edir.Bu kontekstdə müasir dərs anlamı və onun əsas atributları olan təhsil, inkişaf və tərbiyə məqsədlərinə nail olmaq müəllimdən öz peşəsinə dərin psixoloji pedaqoji hazırlıq tələb edir. Şagirdin şəxsiyyət kimi mənəvi dünyasına nüfuz etmək, psixologiyasını öyrənmək və təlim-tərbiyə prosesində orun fərdi-psixoloji xüsusiyyətlərinin elmi əsaslarla nəzərə almağı bacarmaq müasir müəllimin peşə norması hesab olunur.



Müasir Azərbaycan məktəblərində, yeni pedaqoji təfəkkür axarında formalaşan psixopedaqoji mühit, müəllimlərin psixologiyanın uğurlarından faydalanmasına və onu təcrübəyə tətbiq etməsinə əlverişli sosial-psixoloji və psixopedaqoji şərait yaratmışdır.

Pedaqoji təmayüllü ali məktəblərdə təhsil alan tələbələrin müəllim peşəsinə adaptasiya olunmasında, eləcə də müəllim rolunun mənimsənməsi prosesində pedaqoji təcrübə mühim rol oynayır. Müasir müəllim şəxsiyyəti üçün zəruri olan peşə keyfıyyətlərinin, vərdiş və bacarıqların formalaşması prosesində pedaqoji təcrübə çox ciddi praktik əhəmiyyət kəsb edir.

Tələbə ali məktəbdə mühazirə, seminar və laborator məşğələlər zamanı əldə etdikləri nəzəri və praktik bilikləri, eləcə də vərdiş və bacarıqları təcrübə prosesində tətbiq etməklə, müəllimlik peşəsinin sirlərinə əyani şəkildə bələd olur. Təcrübəçi tələbənin dərsin təhsil, inkişaf və tərbiyəvi məqsədlərinə nail oia bilməsi ilk növbədə onun peşəsi ilə bağlı psixoloji bilik və səriştəyə malik olmasından asılıdır.

Bu metodik vəsaitdə pedaqoji təcrübə dövründə tələbələrin yerinə yetirmələri nəzərdə tutulan tapşırıqlar, onların yerinə yetirilməsi və qiymətləndirilməsi məsələləri, tapşırıqların icrası ilə əlaqəli olan psixoloji test və metodikalar, eləcə də təlim psixologiyasına aid nəzəri və praktiki məsələlər də öz əksini tapmışdır.

Metodik vəsaitin hazırlanmasında "Ali və orta ixtisas məktəbləri tələbələrinin pedaqoji təcrübəsinin təşkili və keçirilməsinə dair müvəqqəti qaydalar" (2002), "Müəllimlik təcrübəsi keçən tələbələr üçün uğurlu praktikum proqramı" (2003), "Azərbaycan Respublikasında ümumi təhsil konsepsiyası" kimi dövlət sənədlərinə eləcə də digər metodiki vasitələrə istinad olunmuşdur.

Təcrübəçi tələbələrə kömək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli 103 nömrəli qərarı ilə təsdiqetdiyi "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)" adlı dövlət sənədi də metodik vəsaitdə öz əksini tapmışdır. Hesab edirik ki, bu sənəd təcrübəçi tələbələrin dərs prosesində təhsil, inkişaf və tərbiyə kimi təlim məqsədlərinin düzgün nəzərə ala bilmələrinə kömək göstərəcəkdir.

I BÖLMƏ

# MƏKTƏBDƏ PSİXOLOJİ TƏCRÜBƏNİN MƏZMUNU

## Pedaqoji təcrübədə psixologiyadan nəzərdə tutulan tapşırıqlar haqqında

Pedaqoji təmayüllü ali təhsil müəssisələrinin bakalavia-tura səviyyəsində təhsil alanIV kurs tələbələrinin orta məktəb-də pedaqoji təcrübə keçərkən psixologiyadan aşağıdakı tapşı-rıqları yerinə yetirmələri tövsiyə olunur:

- Şagird şəxsiyyəti üçün psixoloji-pedaqoji xarakteristi-kanın tərtibi;
- Sinif kollektivi üçün psixoloji-pedaqoji xarakteristika-nın tərtibi;
- Bir dərsin psixoloji təhlili;
- Dərs cədvəlinin psixoloji təhlili;
- Aktual əxlaqi - psixoloji mövzuda söhbət.

Psixologiyadan verilən tapşırıqlar ali məktəbin təyin etdiyi metodist-psixoloqun rəhbərliyi ilə yerinə yetirilir və onun tərə-findən qiymətləndirilir. Tələbəninaldığı qiymət onun pedaqoji təcrübə üzrə ümumi atestasiyasına daxildir. Nəzərdə tutulan tapşırıqlar təcrübəçi tələbənin peşə hazırlığına xidmət edən və ya peşə hazırlığının səviyyəsini müəyyən edən tapşırıqlar top-lusudur. Təcrübəçi tələbə şagird şəxsiyyətinin və sinif kollekti-vinin psixoloji xüsusiyyətlərini öyrənməyi, tanımağı və müvafiq psixoloji xarakteristikanı tərtib etməyi, eləcə də hər hansı dər-sin və dərs cədvəlinin psixoloji təhlilini aparmağı bilməli və ba-carmalıdır. Pedaqoji təcrübə VIII semestrdə 14 həftə ərzində keçirilir.

## Psixologiyadan yerinə yetiriləcək tapşırıqların icrasına verilən tələb və tövsiyələr

Psixologiyadan tapşırıqları yerinə yetirmək üçün təcrübəçi tələbə ilk növbədə ümumi, yaş, pedaqoji və sosial psixologiyadan nəzəri və praktiki biliklərini aktivləşdirməlidir. O, həmçinin konkret psixoloji faktları izah etməyi bacarmalıdır. Təcrübəçi tələbə müxtəlif metodikalardan istifadə etməklə şagird və ya sinif kollektivi ilə bağlı faktları əldə etməyi və mənalandırmağı bacarmalıdır. Tələbə psixoloji tədqiqat metodlarından (müşahidə, eksperiment, söhbət, fəaliyyət məhsullarının təhlili) istifadə etməklə psixoloji cəhətdən mənalandırmaq üçün obyektiv göstəricilər, faktlar əldə etməyi; psixoloji bilikləri təlim-tərbiyə-inkişaf prosesində tətbiq etməyi; tərtib etdiyi psixoloji-pedaqoji xarakteristikalardan pedaqoji nəticə çıxarmaq və pedaqoji kollektivə tövsiyələr hazırlamaq; konkret faktlardan istifadə etməklə fikirlərini yazılı şəkildə çatdırmağı bacarmalıdır. Təcrübəçi tələbə psixologiyadan elmi-nəzəri və praktiki biliklərini aktivləşdirmək məqsədilə aşağıdakı ədəbiyyatları nəzərdən keçirə bilər:



*Bayramov Ə.S, Əlizadə Ə.Ə. Psixologiya, Bakı, 1989.*

*Bayramov Ə.S, Əlizadə Ə.Ə. Sosial psixologiya, Bakı, 2003.*

*Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 2004.*

*Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2003.*

*Psixologiya. S.İ.Seyidovun elmi redaktorluğu ilə. Bakı, 2007.*

İkinci mərhələdə - tələbə öyrənəcəyi şagird və sinif kollektivini müəyyən etməli, müşahidə, söhbət, anket, test və s. tədqiqat metodlarından istifadə etməklə psixoloji xarakteristikaların tərtibi üçün psixoloji faktları toplamalıdır. Psixoloji faktlar hər gün müşahidə dəftərində qeyd olunmalıdır. Üçüncü mərhələdə təcrübəçi tələbə topladığı materialları mənalandır-

malı, təhlil etməli və yazılı formada psixoloji xarakteristikanı tərtib etməlidir. Tələbə faktları toplayarkən, onları təhlil edib mənalandırarkən və nəticəyə gələrkən aşağıdakı metodolji prinsipləri nəzərə almalıdır:

**Obyektivlik prinsipi.** Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, tələbə psixoloji-pedaqoji təhlil yolu ilə şagird şəxsiyyətində obyektiv surətdə mövcud olan xüsusiyyətlərini öyrənməli və açıb göstərməlidir. Buna nail olmaq üçün təcrübəçi tələbə yalnız şagirdin söylədiklərini deyil, həm də onunla ünsiyyətdə olan digər şəxslərin də fikirlərinin öyrənməlidir.

**Psixi hadisələri əlaqə və qarşılıqlı münasibətlər prosesində öyrənilməsi prinsipi.** Belə yanaşmatəkcə müşahidə olunan psixi hadisəni təsvir etməyə deyil, həm də səbəb-nəticə əlaqələrinin açılmasına kömək edir. Elə psixoloji-pedaqoji xarakteristikanın əsasını məhz psixoloji xüsusiyyətin, səbəb-nəticə əlaqələrinin açılması təşkil edir. Hər bir psixi xüsusiyyət müxtəlif səbəblə şərtlənir. Məsələn, inamsızlıq, qapalılıq və utancaqlıq ailədə hökm sürən avtoritar mühitin olması ilə, həm fiziki cəhətdən zəif olmaqla, həm də özünə inamsız olmaqla da bağlı ola bilər. Bəzən şagirdin təlim materialını yaxşı yadda saxlaya bilməməsi heç də onun hafizəsinin deyil, diqqətinin zəif olması ilə əlaqədardır. Psixi proseslər vəhdətdə cərəyan etdiyi üçün onları bir-birindən təcrid olunmuş şəkildə araşdırmaq doğru deyil.



**İnkişaf prinsipi**. Şəxsiyyəti öyrənərkən onun xüsusiyyətlərinin dinamik olduğunu, yəni fəaliyyət və ünsiyyət prosesində daima dəyişdiyini nəzərə almaq lazımdır. Ona görə psixoloji-pedaqoji xarakteristikanın tərtib edərkən şagirdin və sinif kollektivinin bu günü ilə yanaşı həm də keçmişi öyrənilməlidir. Belə olan halda müqayisə etməklə şəxsiyyətin inkişaf istiqamətini (marağı, müvəffəqiyyəti, ünsiyyət dairəsi, dostları) müəyyən etmək daha asan olur. Bu baxımdan yaxşı olar ki, şagirdə dərs deyən müəllimlərin, sinif rəhbərinin, məktəb psixoloqunun fikirləri öyrənilsin, eləcə də sinif jurnalları və şagird üçün tərtib olunan psixoloji xarakteristikalara da diqqət yetirilsin. Bu məlumatlar şagirdin inkişafı haqqında obyektiv nəticəyə gəlmək üçün yaxşı materialdır. Bu yolla müəyyən et-

mək olar ki, kiçik məktəbli yaşında zəif, passiv, inamsız və özünəqapanan şagird, yeniyetməlik yaşında necə bir təşəbbüskar, fəal, enerjili, özünəinamlı yeniyetməyə çevirilmişdir və yaxud əksinə. Belə olan halda yaxşı olar ki, təcrübəçi tələbə tərbiyə-təlim prosesində buraxılmış olan səhvi təhlil etsin, onun aradan qaldırılmasına çalışsın yaxud da sinif rəhbərinə öz təklifini versin. İnkişaf prinsipinin nəzərə alınması sinif kollektivinin öyrənilməsi zamanı daha çox əhəmiyyət daşıyır. Kollektiv canlı orqanizm kimi müəyyən yaşda və inkişafın müəyyən mərhələsində olur. Hesab edirik ki, psixologiyadan tapşırıqları yerinə yetirərkən qeyd etdiyimiz prinsiplərin nəzərə alınması, tərtib olunacaq xarakteristikaların obyektivliyini təmin edəcəkdir.

## Psixopedaqoji xarakteristika üçün müşahidə materiallarının əldə edilməsi



Material toplamazdan əvvəl psixoloi təhlilin elmi-nəzəri əsaslarını təkrar etmək, şagird şəxsiyyətinin öyrənilməsi və ona psixoloji xarakteristikanını tərtibi sxemi ilə tanış olmaq lazımdır. Əvvəlcədən tanışlıq qabaqlayıcı adaptasiya imkanı verməklə yanaşı həm də məqsədyönlü şəkildə material toplamaq imkanı verəcəkdir. Pedaqoji təcrübənin başlanğıcında təhkim olunan siniflə tanışlıqdan sonra müşahidə obyekti olacaq şagirdi seçmək lazımdır. Tədqiqat obyekti, təcrübəçi tələbənin istəyindən asılı olaraq istənilən şagird ola bilər. Bu məsələdə şagirdin necə oxuması, akademik qabiliyyəti heç bir prinsipial əhəmiyyət kəsb etmir. Əsas məsələ həmin şagirdin müntəzəm olaraq müşahidə oluna bilməsidir. Əgər tələbə özü seçim etməkdə çətinlik çəkərsə onda kömək üçün metodist-psixoloqa və yaxud sinif rəhbərinə müraciət edə bilər.

Təcrübəçi tələbə, şagird şəxsiyyəti və sinif kollektivinin psixoloji-pedaqoji xarakteristikasını tərtib etmək üçün pedaqoji təcrübə ərzində səylə çalışmalı, müntəzəm olaraq müşahidə aparıb psixoloji müşahidə dəftərində müvafiq qeydlər etməlidir.

Psixoloji faktların toplanması dedikdə söhbət öyrənilən obyekt kimi şagird psixikasından və onun müxtəlif təzahür formalarından gedir. Hər hansı bir tapşırığı yerinə yetirərkən istər şagird şəxsiyyəti və sinif kollektivi, istərsə də dərsin təhlili olsun ilk növbədə psixi hadisələr tədqiq olunmalıdır. Psixi hadisələr üç qrupda ümumiləşdirilir: psixi proseslər, psixi hal və vəziyyətlər, psixi xassələr. Təcrübəçi tələbə pedaqoji təcrübə zamanı məhz bu növ hadisələri müşahidə etməyi bacarmalıdır.

Psixoloji təhlil üçün vacib olan bacarıqlardan biri şagird şəxsiyyətinin birbaşa müşahidə olunmayan psixi proses, hal, vəziyyət və xassələrini aşkarlamaq və görə bilməkdir. Şagirdin reaksiyası verdiyi cavab, keçirdiyi hiss, etdiyi hərəkət onun psixologiyası haqqında fikir söyləmək üçün əsas ola bilər. Şagirdin yazılı işi, müəllimə verdiyi sualı, eləcə də şagird yoldaşları ilə ünsiyyət üslubu onun idrak xüsusiyyətlərindən yaxud da şəxsiyyətinin hər hansı bir xüsusiyyəti haqqında məlumat verir. Şagirdin davranış və hərəkətinə, eləcə də keçirdiyi hisslərə əsaslanaraq (yoldaşına kömək etdi, zəifi müdafiə etdi, düzünü söyləməkdən çəkinmədi, pis qiymət alsa da ruhdan düşmədi) onda formalaşan psixoloji xüsusiyyətlər haqqında müəyyən nəticəyə gəlmək olar.



Müşahidə zamanı şagirdin həm verbal, həm də qeyri-verbal ünsiyyət xüsusiyyətlərinə (səsin tonu, mimika, pantomimika, jest, ifadəli əl-qol hərəkətləri, kinesika və s.) diqqət yetirmək lazımdır. Onu da yadda saxlamaq lazımdır ki, insanın daxili vəziyyəti ilə zahiri görkəmi heç də həmişə tam olaraq bir-birinə uyğun gəlmir. Kiçik məktəblilərin sosial təcrübəsi az olduğu üçün onların hiss, fikir və düşüncələri elə sifət cizgilərində əks olunur. Yeniyetmələr və böyük məktəblilər isə öz davranış və hisslərinə daha yaxşı nəzarət edə bildiyi üçün onları gizlədir yaxud da manipulyasiya edirlər.

*Şagird şəxsiyyətini və ya sinif kollektivini öyrənmək üçün tələbələr üçün ən asan və əlverişli tədqiqat metodu müşahidə olduğu üçün onunla bağlı bəzi məlumatları yaddaş kimi tələbələrin nəzərinə çatdırırıq.*

**Müşahidə metodu** dedikdə psixi hadisələrin gedişinə müdaxilə etmədən onların baş verdiyi təbii şəraitdə məqsədə-

uyğun və müntəzəm surətdə izlənilməsi nəzərdə tutulur. Bu metodla həm ayrıca götürülmüş şagirdi, həm də sinif kollektivi öyrənmək olar. Müşahidə metodunun üstün cəhəti onun təbiiliyidir, yəni hadisələrə heç bir müdaxilə etmədən, necə baş verirsə elə də öyrənilməsidir. Müşahdiə zamanı öyrənilən şəxsin hərəkət və davranışı, keçirdiyi hisslər, bəslədiyi münasibət və söylədiyi fikirlər öyrənilməlidir. Bu metoddan istifadə edərkən nəticələrin obyektivliyini təmin etmək üçün bir sıra şərtlərə əməl etmək lazımdır:

- Müşahidə gizli aparılmalıdır.
- Müşahidənin məqsədi dəqiq olmalıdır.
- Müşahidə sistemli və ardıcıl olmalıdır.
- Müşahidə nəticəsində əldə olunan faktlarhər gün gündəlikdə qeyd olunmalıdır.
- Müşahidə faktları müxtəlif mənbələrdən əldə olunmalıdır.
- Müşahidə müxtəlif şəraitlərdə (dərs vaxtı, tənəffüsdə, idman zalında, sinifdənxaric tədbirlər zamanı və s.) aparılmalıdır.



Müşahidə apararkən aşağıdakı cədvəldən nümunə kimi istifadə etmək olar. Psixoloji xarakteristikanı tərtib edərkən tərkibdən təhlilə yox, təhlildən tərkibə doğru getmək daha düzgündür. Bu o deməkdir ki, şagirdin psixoloji xarakteristikasının tərtib edərkən şagirddən onun hərəkətlərinə doğru yox, şagirdlə bağlı əldə etdiyimiz faktlarından onun şəxsiyyətinə doğru getmək daha düzgündür.

**Cədvəl 1.**

| *tarix* | *öyrənilən şagird və sinif kollektivi ilə bağlı öz müşahidələriniz* | *öyrənilən şagird və sinif kollektivi haqqında başqalarının fikirləri* | *öyrənilən şagird və sinif kollektivinin öz fikirləri* |
|---|---|---|---|
| | | | |

## Təcrübəçi tələbələrin psixologiyadan yerinə yetirəcəkləri işlərin həftələr üzrə təxmini planı

**I Həftə**

- pedaqoji təcrübənin başlanmasına həsr olunan konfransda iştirak etmək
- ixtisas üzrə metodist, pedaqoq və metodist-psixoloqla tanışlıq
- təcrübə müddətində psixologiyadan yerinə yetiriləcək işlər haqqında ümumi məlumat almaq
- pedaqoji təcrübə keçriləcək məktəblə tanışlıq
- məktəbin rəhbər heyəti ilə görüşmək
- məktəb psixoloqu ilə tanışlıq və söhbət
- psixologiyadan tövsiyə olunan ədəbiyyatların əldə olunması
- növbəti həftə ərzində görüləcək işlərin planlaşdırılması və müzakirəsi



**II Həftə**

- keçən həftə ərzində görülmüş işlər haqqında hesabat vermək.
- sinifdə psixoloji müşahidənin aparılması və müşahidə üçün şagirdin seçilməsi
- şagirdin aid olduğu yaş dövrünün psixologiyası haqqında qısa məlumat hazırlamaq
- psixoloji xarakteristikanın tərtibi üçün lazım olan test və blankların hazırlanması
- şagird şəxsiyyətinin psixoloji pedaqoji xarakteristikasının tərtibi üçün nəzərdə tutulan sxemin bəndlərinə uyğun məlumat əldə etmək.
- növbəti həftə ərzində görüləcək işlərin planlaşdırılması və müzakirəsi

**III Həftə**

- keçən həftə ərzində görülmüş işlər haqqında hesabat vermək
- şagird şəxsiyyətinin psixoloji pedaqoji xarakteristikasının tərtibi üçün nəzərdə tutulan sxemin bəndlərinə uyğun məlumat əldə etmək
- növbəti həftə ərzində görüləcək işlərin planlaşdırılması və müzakirəsi

**IV Həftə**

- keçən həftə ərzində görülmüş işlər haqqında hesabat vermək
- şagird şəxsiyyətinin psixoloji pedaqoji xarakteristikasının tərtibi üçün nəzərdə tutulan sxemin bəndlərinə uyğun məlumat əldə etmək
- növbəti həftə ərzində görüləcək işlərin planlaşdırılması və müzakirəsi



**V Həftə**

- keçən həftə ərzində görülmüş işlər haqqında hesabat vermək
- şagird şəxsiyyətinin psixoloji pedaqoji xarakteristikasının tərtibi üçün nəzərdə tutulan sxemin bəndlərinə uyğun məlumat əldə etmək
- şagird şəxsiyyəti üçün tərtib olunan psixoloji pedaqoji xarakteristikanın yoxlanılması və qiymətləndirilməsi
- öyrənilən şagirdlə bağlı gələcəkdə aparılması tövsiyə olunan psixoloji-pedaqoji işlər
- pedaqoji təcrübə ilə bağlı summativ qiymətləndirilmə
- növbəti həftə ərzində görüləcək işlərin planlaşdırılması və müzakirəsi

**VI Həftə**

- keçən həftə ərzində görülmüş işlər haqqında hesabat vermək
- psixoloji müşahidə üçün sinif kollektivinin müəyyən olunması

- sinifin aid olduğu yaş dövrünün psixologiyası haqqında qısa məlumat hazırlamaq
- sinif kollektivinin öyrənilməsi və psixoloji xarakteristikanın tərtibi üçün lazım olan test və blankların hazırlanması
- qrup psixologiyası ilə bağlı müvafiq ədəbiyyatla tanışlıq
- növbəti həftə ərzində görüləcək işlərin planlaşdırılması və müzakirəsi

**VII Həftə**
- keçən həftə ərzində görülmüş işlər haqqında hesabat vermək
- sinif kollektivinin öyrənilməsi ilə bağlı istifadə olunan yol və vasitələr haqqında metodist-psixoloqun məlumatın dinləmək
- sinif kollekinin psixoloji pedaqoji xarakteristikasının tərtibi üçün nəzərdə tutulan sxemin bəndlərinə uyğun məlumat əldə etmək
- növbəti həftə ərzində görüləcək işlərin planlaşdırılması və müzakirəsi



**VIII Həftə**
- keçən həftə ərzində görülmüş işlər haqqında hesabat vermək
- sinif kollekinin psixoloji pedaqoji xarakteristikasının tərtibi üçün nəzərdə tutulan sxemin bəndlərinə uyğun məlumat əldə etmək
- növbəti həftə ərzində görüləcək işlərin planlaşdırılması və müzakirəsi

**IX Həftə**
- keçən həftə ərzində görülmüş işlər haqqında hesabat vermək
- sinif kollektivi üçün tərtib olunmuş psixoloji-pedaqoji xarakteristikaların yoxlanılması və qiymətləndirilməsi
- sinif kollektivi ilə gələcəkdə aparılması tövsiyə olunan psixoloji-pedaqoji işlər

- pedaqoji təcrübə ilə bağlı summativ qiymətləndirilmə
- növbəti həftə ərzində görüləcək işlərin planlaşdırılması və müzakirəsi

**X Həftə**
- keçən həftə ərzində görülmüş işlər haqqında hesabat vermək
- dərsin psixoloji təhlili ilə mövcud nümunələrlə tanışlıq
- dərsin təhlili ilə bağlı müzakirələrdə iştirak etmək
- növbəti həftə ərzində görüləcək işlərin planlaşdırılması və müzakirəsi

**XI Həftə**
- keçən həftə ərzində görülmüş işlər haqqında hesabat vermək
- dinlədiyiniz dərsin qrupla psixoloji təhlilini müzakirə etmək
- bir dərsinin psixoloji təhlilini aparmaq və yazılı tərtib etmək
- növbəti həftə ərzində görüləcək işlərin planlaşdırılması və müzakirəsi

**XII Həftə**
- keçən həftə ərzində görülmüş işlərhaqqında hesabat vermək
- sinifin dərs cədvəlinin psixoloji təhlilini aparmaq
- növbəti həftə ərzində görüləcək işlərin planlaşdırılması və müzakirəsi

**XIII Həftə**
- keçən həftə ərzində görülmüş işlər haqqında hesabat vermək
- sinif kollektivi yaxud bir şagirdlə aktual əxlaqi-psixoloji mövzuda söhbət aparmaq
- növbəti həftə ərzində görüləcək işlərin planlaşdırılması və müzakirəsi

**XIV Həftə**

- pedaqoji təcrübə müddətində psixologiyadan görülmüş işlərlə bağlı sənədlərin hazırlanması və təhvil verilməsi
- pedaqoji təcrübə müddətində
- pedaqoji təcrübə müddətində psixologiyadan fəaliyyətinin yekun qiymətləndirilməsi
- pedaqoji təcrübəyə aid yekun konfransda iştirak.

II BÖLMƏ

# ŞAGİRD ŞƏXSİYYƏTİNİN PSİXOLOJİ-PEDAQOJİ TƏHLİLİ

## 2.1. Şagird şəxsiyyətinin öyrənilməsi və ona psixoloji-pedaqoji xarakteristika tərtibi üçün sxem

**Şagird haqqında ümumi məlumat** (Şagirdin soyadı, adı, atasının adı, yaşadığı ünvan, oxuduğu məktəb, sinif, yaşı, sağlamlıq dərəcəsi və s.).

**Şagirdin ailə şəraiti və ailə tərbiyəsi** (ailədəki mədəni məişət və sosial inkişaf şəraiti, qarşılıqlı münasibətlər, uşağa olan münasibət).



**Şagirdin mənsub olduğu sinif kollektivinə münasibəti** (kollektivin üzvü olmaq tələbatı, onun rəyi ilə hesablaşmaq, nüfuzu uğrunda çalışmaq, sinif yoldaşları arasında hörməti, ünsiyyətliliyi və başqalarını anlaması, kollektivdəki mənfi sosial-psixoloji hadisələrə münasibəti).

**Şəxsiyyətin istiqaməti** (şagirdin şəxsi, ictimai və ya işgüzar istiqaməti, dərk olunmuş motivlərinin xarakteristikası, maraqları, onların dərinlik dərəcəsi, genişliyi, davamlılığı, aydın təzahür edən idrak maraqları. Baxış və inamı, şüur və davranışının vəhdəti, arzu və idealları).

**İddia səviyyəsi** (aşağı, uyğun və ya yüksək; özünü qiymətləndirmə və iddia səviyyəsinin qarşılıqlı əlaqəsi; şagirdin öz imkanlarını qiymətləndirməsinin xarakteristikası; özünə qarşı tələbkarlığı; müəllim və yoldaşlarının tənqidi qeydlərinə münasibəti; özünütərbiyənin xüsusiyyətləri).

**Şagirdin müxtəlif fəaliyyət növlərində iştirakı** (şagirdin təlimə münasibəti, işi vicdanla və ya yarımçıq yerinə yetirməsi, maraqla oxuması, maraqsız oxuması və oxumaq istəməməsi, mənimsəməsi və intizamı, təlim vərdişlərinin for-

malaşması dərəcəsi, əməyə münasibəti, təlim, əmək və oyun fəaliyyətinin qarşılıqlı əlaqəsi, şagirdin ictimai fəallığı, peşəyönümü və peşə seçməsi).

**İdrak fəaliyyətinin xarakteristikası** (qavrayışının, müşahidəçiliyinin xüsusiyyətləri, hafizəsinin xüsusiyyətləri, hafizənin hansı tipinə mənsubdur, diqqətin xüsusiyyətləri, davamlılığı, keçirilməsi, dalğınlıq və s., yaradıcı və bərpaedici təxəyyülü, xüsusiyyətləri, obrazlı və mücərrəd təfəkkürün, təfəkkürün müstəqillik və tənqidiliyinin inkişaf dərəcəsi, məntiqi təfəkkürün inkişafı, fikirlərinin ardıcıllığı və sübutluluğu, fikirləşmək və nəticə çıxarmaq bacarığı, hökm və nəticələrindəki müstəqillik, şifahi və yazılı nitqinin inkişafının səviyyəsi, lüğət tərkibinin zənginliyi, öz fikrini şifahi və yazılı şəkildə ifadə etmək bacarığı).

**Emosional-iradi xüsusiyyətləri** (pedaqoji təsirlərə emosional reaksiyasının xarakteri, hisslərin inkişafı, əxlaqi, zehni, estetik, hisslərin dərinlik və davamlılığı, emosional oyanıqlıq dərəcəsi, emosiyaların cərəyanı və dəyişmə surəti, emosiyalarının xarici ifadəsi, gərgin şəraitdə və uğursuzluq hallarında emosional davamlılıq, emosional halları saxlaya və dəyişə bilmək bacarığı, iradi xüsusiyyətləri, məqsədyönlülüyü, müstəqilliyi, təşəbbüskarlığı, qətiliyi, təkidliliyi, özünə sahib olması və s.).



**Qabiliyyətlər** (ümumi və xüsusi qabiliyyətləri, şagirddə aydın müşahidə olunan qabiliyyətlər, musiqi, texniki, riyazi, təşkilatçılıq və s.).

**Temperament** (temperamentin tipləri, sanqvinik, xolerik, fleqmatik, melanxolik, temperamentin tipini səciyyələndirən psixoloji xüsusiyyətlər).

**Xarakter** (təlimə münasibətdə ifadə olunan xarakter əlamətləri: səylilik, fəalllıq, intizamlılıq və s.; məktəb və sinfə münasibətdə ifadə olunan xarakter əlamətləri, öz sinfi və məktəbinin müvəffəqiyyəti və uğursuzluqlarından təsirlənməsi xüsusiyyətləri, sinfin və məktəbin şərəfi uğrunda mübarizəsi, sinifdə və məktəbdə keçirilən tədbirlərə münasibəti, ictimai vəzifə və tapşırıqlara münasibəti, əməyə münasibətdə ifadə oluna xarakter əlamətləri: əməksevərliyi, vicdanlılığı, işgüzar-

lığı; yoldaşları və böyüklərə münasibətdə ifadə olunan xarakter əlamətləri: qayğıkeşlik, ünsiyyətlilik; şeylərə münasibətdə ifadə olunan xarakter əlamətləri: səliqəlilik və ya səliqəsizlik, ehtiyatlılıq, ehtiyatsızlıq; özünə münasibətdə ifadə olunan xarakter əlamətləri: təvazökarlıq, lovğalıq, məğrurluq)

**Təcrübəçi tələbə** kollektiv vasitəsilə və fərdi yanaşma yolu ilə şagirdin tərbiyəsində nə kimi işlər görmüşdür? Yerinə yetirlən işin səmərəliliyi.

**Pedaqoji nəticələr və tövsiyələr.** Gələcəkdə həmin şagirdlə hansı tərbiyəvi işlər aparmaq lazımdır (müəllimlər, sinif rəhbəri, valideynlər, sinif və məktəb kollektivi).

## 2.2. Şagird şəxsiyyətinin öyrənilməsi üçün tövsiyə edilən test və metodikalar



### TEMPERAMENT TİPİNİN MÜƏYYƏN EDİLMƏSİ

Adətən, şagirdin özünü necə aparmasına diqqət yetirərək temperamentin "pasportun"u doldurun. Bunun üçün temperamentin "pasport"una uyğun gələn keyfiyyətləri "+" işarəsi ilə qeyd edin.

***XOLERİK***:

1. Hövsələsiz, qərarsız
2. Təmkinsiz özündən çıxan
3. Bir qədər kobud, insanlarla münasibətdə sözünü açıq deyən.
4. Cəsarətli (qəti) və təşəbbüslü
5. Tərs
6. Mübahisədə hazırcavab
7. Bir qədər acı dil olan
8. Riskə meyilli
9. Səbirsiz
10. Kinsiz və tez küsməyən
11. Sürətli nitqə malik
12. Xasiyyətcə müvazinətsiz

13. Təcavüzkar, davakar
14. Nöqsanlara dözümsüz
15. Başqasını günahlandırmaya meylli olan
16. Sürətlə hərəkət etməyi və qərara gəlməyi bacaran
17. Yorulmadan yeniliklərə maraq göstərən
18. Daha çox sabit marağı olan
19. Qoyulmuş məqsədə çatmaq üçün inadkar
20. Başladığı işi axıra çatdırmağameylli

***SANQVİNİK:***

1. Şən və gülərüz
2. Fəal və işgüzar
3. Başladığı işi çox vaxt axıra çatdırmayan
4. Özünü həddən artıq qiymətləndirməyə meyilli olan
5. Yenilikləri tez qavramağa malik
6. Maraq və əlaqələrdə dəyişkən
7. Müvəffəqiyyətsizliyə və çətinliyə asanlıqla davam gətirən
8. Müxtəlif şəraitlərə asanlıqla uyğunlaşan
9. Təzə işə həvəslə başlayan
10. İşmaraqlı olmayanda tez soyuyan
11. Sürətlə işə qoşulan
12. Bir qədər darıxdırıcı, səbr və diqqət tələb edən işdən tez bezən
13. Adamayovuşan, yeni tanış olduğu adamlarla özünü sərbəst hiss edən
14. Dözümlü və çalışqan
15. Canlı mimika və jestlərin müşayiəti ilə gur, sürətli və aydın nitqə malik
16. Çətin, gözlənilməz vəziyyətdə özünü itirməyən
17. Hər zaman gümrah əhval-ruhiyyəli
18. Tez yuxuya gedib, tez oyanan
19. Çox vaxt intizamsız, tələsik qərar çıxaran
20. Yayınmağa meylli

***FLEQMATİK:***

1. Sakit və soyuqqanlı
2. İşdə məntiqli və təmkinli
3. Gözləməyi bacaran
4. Ehtiyatlı və dərrakəli
5. Azdanışan
6. Boş-boş danışmağı xoşlamayan
7. Nitqi fasiləli, sakit, emosiyasız, mimikasız və jestikulyasiyasız
8. Təmkinli və dözümlü
9. Başladığı işi sona çatdıran
10. Gücünü boş yerə sərf etməyən
11. Həyatının nizam qaydalarına ciddi riayət edən
12. Hiss və emosiyalarından özünü asanlıqla saxlayan
13. Tərifə və məzəmmətə çox həssas olmayan
14. Kinsiz, ona ünvanlanmış acı sözlərə soyuqqanlı yanaşan
15. Maraqlarına və əlaqələrinə sadiq
16. İşə yavaş qoşulan
17. Bir işdən başqa işə ləng keçən
18. Nizam-intizamı və səliqəni sevən
19. Yeni şəraitə çətinliklə uyğunlaşan
20. Təmkinli



***MELANXOLİK:***

1. Utancaq
2. Yeni şəraitdə özünü itirən
3. Tanımadığı adamlarla ünsiyyətə girməkdə çətinlik çəkən
4. Öz gücünə inanmayan
5. Tənhalığa asanlıqla dözən
6. İşi gətirməyəndə özünü itirən, sarsılan
7. Fikrə dalmağa meyilli
8. Tez yorulan
9. Zəif, sakit, bəzən pıçıltıya bənzər nitqi olan
10. İstəmədən, bilmədən həmsöhbətinin xasiyyətinə uyğunlaşan
11. Tərifə və tənqidə olduqca həssas
12. Özünə və ətrafdakılara tələbkar olan

13. Şübhəyə və vas-vasılığa meylli
14. Həssas və asanlıqla təsirlənən
15. Olduqca küsəyən və dəymədüşər
16. Fikir və duyğularını gizli saxlayan, başqaları ilə bölüşməyən
17. Az fəal və cəsarətsiz
18. İtaətkar
19. Ətrafındakılarda özünə qarşı rəğbət oyatmağa çalışan
20. Çox həssas qəlbli, asanlıqla məyus olan.

## TESTİN QİYMƏTLƏNDİRİLMƏSİ:

Əgər müsbət cavabların miqdarı 40% və yuxarıdırsa, Sizdə müəyyən temperament tipi üstünlük təşkil edir

30-39% – müəyyən tipinin keyfiyyətləri olduqca aydın bilinir

20-29% – müəyyən tipinin keyfiyyətləri orta səviyyədədir

10-19% – müəyyən tipinin keyfiyyətləri aşağı dərəcədə bilinir



Temperamentin düsturu - Td= %X + %S +%F + %M (Td) = X(Ax/A • 100%) +S(As/A • 100%) +F +(Af/A • 100%) + M(Am/A • 100%)

BURADA:

X – Xolerik
S – Sanqvinik
F – Fleqmatik
M – Melanxolik
A – bütün tiplər üzrə müsbət cavabların ümumi sayı
Ax – Xolerikin "pasport"unda müsbət cavabların ümumi sayı
As – Sanqvinikin "pasportunda" müsbət cavabların ümumi sayı
Af – Fleqmatikin "pasport"unda müsbət cavabların ümumi sayı
Am – Melanxolikin "pasport"unda müsbət cavabların ümumi sayı

## TİPLƏRİN İZAHI

**XOLERİK.** Həssas, amma sabit maraqlıdır. Bir qədər təvazökardır. Tez-tez əhval-ruhiyyəsi dəyişir. Başqasını günahlandırmağa meyillidir. Çox vaxt impulsiv və coşqunluqla hərəkət edir. Fəaldır, bir qədər səhlənkardır, tez özündən çıxandır. Nikbindir. Başladığı işi axıra çatdırır.

**SANQVİNİK.** Gülərüz və ünsiyyətə tez qoşulur. Asanlıqla əlaqəyə girir, söhbətə qarışır. Qrupda özünü sərbəst hiss edir. Həyəcanlılığa meyilli deyil. Çox vaxt liderliyə cəhd etməyə çalışır. Maraq və münasibəti dəyişkəndir.

**FLEQMATİK***.* Ehtiyatlı və düşüncəli tipidir. Sülhsevər, sakit adamdır. Belə adama etibar etmək olar. Münasibətlərdə sədaqətli və səmimidir, amma idarə olunandır. Praktik olaraq hər zaman təmkinli və soyuqqanlıdır. Maraq və münasibəti daha çox sabit olur.



**MELANXOLİK***.* Həyəcanlı və asanlıqla tez qanı qaralan şəxsdir. Özünə inamı yüksək olmur. Küsəyən və həssasdır. Çox məsuliyyətli və intizamlıdır. Bədbindir. Bir qədər qapalıdır. Sakitdir, tez təsirlənəndir. Düşüncələrə meyllidir.

### Temperament tipinin ekspress diaqnostikası

Siz qısa müddət ərzində Daniyalı rəssam Herluf Bidstrupun çəkdiyi "Dörd temperament tipi" adlı karikaturası vasitəsilə temperament tipini müəyyən edə bilərsiniz.

Bu məqsədlə, şagirdlərə aşağıdakı şəkil təqdim olunur və onlardan diqqətlə şəkillərə baxıb şagird yoldaşlarından kimin həmin personajlardan hansına daha çox oxşadığını söyləməsi xahiş olunur. Daha yaxşı olar ki, fikirlərini əsaslandırsınlar.





**H.Bidstrup. Dörd temperament**

## Temperament tiplərinin psixoloji xüsusiyyətləri

| Ali sinir fəaliyyətinin tipi | Temperament tipi | Temperamet xüsusiyyətləri | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | Senzitivlik | Reaktivlik | Aktivlik | Reaktivliklə aktivliyin nisbəti | Reaksiya tempi | Plastiklik və rigidlik | Ekstravertizm və introvertizm |
| Güclü, müvazinətli mütəhərrik | Sanqvinik | Aşağı | Yuxarı | Yuxarı | Müvazinətli | Cəld | Plastik | Ekstravert |
| Güclü, müvazinətli inert | Fleqmatik | Zəif | Zəif | Yüksək | Aktivlik üstün gəlir | Ləng | ətalətli | Introvert |
| Güclü, müvazi nətsiz | Xolerik | Zəif | Yüksək | Yüksək | Reaktivlik üstün gəlir | Cəld | ətalətli | Ekstravert |
| Zəif | Melanxolik | Yüksək | Zəif | Aşağı | Müvazinətli | Ləng | ətalətli | Introvert |

## Şagird şəxsiyyətinin xarakter xüsusiyyətlərinin müəyyən edilməsi

| özünü büruzə verən keyfiyyətlər | aydın təzahür edir | zəif təzahür edir | əks mənfi əlamət özünü büruzə verir |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| Prinsipiallıq<br>Kollektivçilik<br>Düzgünlük<br>İctimaiyyətçilik<br>Əməksevərlik<br>Sabitlik<br>Sadəlik<br>Ədalətli<br>Səmimilik | | | Prinsipsizlik<br>Fərdiyyəçilik<br>Yalançılıq<br>Eqoistik istiqamətlənmə<br>Tənbəllik<br>Tamahkarlıq<br>Lovğalıq<br>Ədalətsiz<br>İkiüzlülük |



## Xarakterin intellektual əlamətləri

| | | | |
|---|---|---|---|
| Diqqətli<br>Sual verə bilmək<br>Biliklərin tətbiqi bacarığı<br>Biliyə ehtiras<br>Dinləmək | | | Diqqətsiz<br>Sual verə bilməmək<br>Biliyitətbiq edə bilmir<br>Biliyə etinasız<br>Dinləyə bilməmək |

## Xarakterin iradi əlamətləri

| | | | |
|---|---|---|---|
| İnamlılıq<br>İntizamlılıq<br>Şəxsi mütəşəkkillik<br>Müstəqillik<br>Şəxsi mütəşəkkillik<br>Təkidlilik<br>Özünü ələ almaq<br>İgidlik<br>Məqsədə çatmaq üçün əzmkarlıq göstərən | | | İnamsızlıq<br>İntizamsızlıq<br>Sadəcə icraçılıq<br>Asılılıq<br>Qeyri-mütəşəkkillik<br>Tərslik<br>Hövsələsizlik<br>Qorxaqlıq<br>Başlagığı işi axıra çatdırmayan |

## Xarakterin emosional əlamətləri



| | | | |
|---|---|---|---|
| Gülərüzlük<br>Nikbinlik<br>Gümrahlıq<br>Hisslərinə sahib olan | | | Qaraqabaqlıq<br>Bədbinlik<br>Yorğunluq<br>Hövsələsizlik edən |

## Fəaliyyətə münasibətdə təzahür edən xarakter əlamətləri

| | | | |
|---|---|---|---|
| Vicdanlılıq:<br>əmək fəaliyyətinə<br>təlim fəaliyyətinə<br>oyun fəaliyyətinə<br>ictimai fəaliyyətə | | | Vicdansızlıq:<br>əmək fəaliyyətinə<br>təlim fəaliyyətinə<br>oyun fəaliyyətinə<br>ictimai fəaliyyətə |

## Başqa adamlara münasibətdə ifadə olunan xarakter əlamətləri

| | | | |
|---|---|---|---|
| Kollektivçilik<br>Ünsiyyətçilik<br>Nəzakətlilik<br>Qayğıkeşlilik | | | Fərdiyyətçilik<br>Qapalılıq<br>Nəzakətsizlik<br>Qəddarlıq |

**Özünə münasibətdə ifadə olunan xarakter əlamətləri**

| | | | |
|---|---|---|---|
| Gücünə tənqidi yanaşma<br>İnamlılıq<br>Tələbkarlıq<br>Sadəlik | | | Öz qüvvəsini şişirtmə<br>İnamsızlıq<br>Qeyri-tələbkarlıq<br>Lovğalıq |

**Diqqətin keçirilməsi və davamlılığının təyini**

Zehni fəaliyyət zamanı diqqətin keçirilməsi və davamlığı ciddi əhəmiyyət kəsb edir. Belə ki, şagirdin təlim fəaliyyətindəki müvəfəqiyyət həm də bu iki keyfiyyətlə şərtlənir. Qeyd olunan xüsusiyyətləri yoxlamaq üçün şagirdlərə rəqəmləri toplamanın iki ülulu izah edilir. Bunu üçün şagird kağızda biri digərinin altında yazılmış bir rəqəmli iki ədədi (məs. 2/1-i) toplayıb, cəmə fikrində 1 rəqəmini əlavə etdikdən sonra alınan nəticəni yuxarıdakı sətirdə, yuxarıdakı rəqəmi isə onun altında yazırlar. (1/2 4/1). Həmin qoşa rəqəmlər yenə də əvvəlki qayda ilə toplanılır. Hər dəfə alınan cəm iki rəqəmli ədədə çatanda yalnız vahidi ifadə edən rəqəm yazılır, onluğu ifadə edən rəqəm isə atılır. Məsələn, aşağıdakı qayda üzrə:



**1 4 6 1 8 0 9 0 0 1**
**2 1 4 6 1 8 0 9 0 0 və s.**

Bu qayda ilə toplamanı mənimsədikdən sonra onlara ayrıca kağız üzərində həmin əməliyyatı 5 dəqiqə ərzində aparmaq təklif olunur. Müayinə metodist-psixoloqun "başla" komandası ilə başlayır, "dayan" komandası ilə dayandırılır.

Sonra tələbələrə toplamanın ikinci üslulu öyrədilir. Bunun üçün şagird kağızda biri digərinin altında yazılmış tək rəqəmli iki ədədi (məs. 2/1-i) toplayıb, cəmdən fikrində 1 rəqəmini çıxdıqdan sonra alınan nəticəni aşağıdakı sətirdə rəqəmin yanında – sağ tərəfdə yazır. Əvvəlcə aşağıda olan rəqəmi yuxarıya köçürüb yazı və bu qayda ilə əməliyyat davam edir. Məsələn, aşağıdakı qayda üzrə:

**1 2 2 3 4 6 9 4 2 5**
**2 2 3 4 6 9 4 2 5 6 və s.**

Şagirdlər ikinci üsulla da toplama-çıxmanı mənimsədikdən sonra onlara təklif edilir ki, ayrıca kağızda həmin əməliyyatı 5 dəqiqə aparsınlar. Müayinə yenə də metodist-psixoloqun "başla" komandası ilə başlayır, "dayan" komandası ilə dayandırılır.

Bundan sonra kağızlar yığılır və şagirdin apardığı əməliyyat yoxlanılır. Daha sonra hər bir üsulla şagirdin hər bir dəqiqə ərzində apardığı əməliyyatın miqdarı müəyyən edilir.

Bu təcrübəni davam etdirib şagirdlərə 10 dəqiqə ərzində hər dəqiqədən bir dəyişmək şərtilə, birinci və ikinci üsulla toplama və toplama-çıxma əməliyyatını aparmağı təklif etmək olar. Yoxlanılanlar "başla" komandası ilə əməliyyata başlayır, "dayan" komandası ilə əməliyyatı dayandırırlar. Əməliyyatla məşğul olduqları vaxt hər dəqiqədən bir "vaxt" siqnalı verilir və bu zaman şagirdlər apardıqları əməliyyatın qarşısında şaquli bir xətt çəkərək birinci üsuldan ikinci üsula yaxud ikinci üsuldan birinci üsula keçirlər.



**Nəticələrin işlənməsi:**

Təcrübə qurtardıqdan sonra işlər yığılır, şagirdlər arasında yenidən paylanır. Şagirdlər biri digərini işini yoxlayır və aşağıdakı məsələləri müəyyənləşdirirlər.

1. 10 dəqiqə ərzində şagird neçə əməliyyat aparıb?
2. Hər şagird 10 dəqiqə vaxt ərzində bir üsuldan digərinə keçdikdə neçə səhv buraxıb?
3. Şagird 10 dəqiqə vaxt ərzində əməliyyatın özündə neçə səhvə yol verib?
4. Hər şagird üçün diqqətin keçirilmə dərəcəsi müəyyənləşdirilir. Bunun üçün şagirdin yoxlanılan vaxtda apardığı əməliyyatın cəmindən yalnız bir əməliyyatdan digərinə keçmə zamanı buraxdığı səhvin cəmi çıxılır və fərq 10-a bölünür.

   Bu düsturla hesablanır : $K=\frac{S-T}{10}$

Şagirdin *diqqətinin davamlılığının* müəyyənləşdirmək üçün təcrübəyə ayrılan vaxt ərzində apardığı əməliyyatın cəmindən həmin şagirdin yalnız toplama və toplama-çıxma əməliyyatı ilə əlaqədar buraxdığı səhvlər çıxılır, fərq 10 bölünür. Əldə edilən nəticə ilə həmin şagirdin diqqətinin davamlılıq dərəcəsi müəyyənləşir.

$$\text{Yəni, } D=\frac{S-Q}{10}$$

Qeyd: Toplama və toplama-çıxma əməliyyatı zamanı təkrarların tez-tez baş verməməsi üçün aşağıdakı rəqəmlərlə əməliyyat aparmaq məsləhətdir:

1, 1, 4
2, 4, 3

## Münsterberq metodikası



Bu metodika diqqətin seçicilik xüsusiyyətinin müəyyən olunmasına yönəldilmişdir. Yaxşı seçicilik, diqqətin bir yerdə cəmləşdirilməsini və eləcə də maneələrə qarşı yüksək davamlılığı tələb edir. Metodika həmqrup, həm dəfərdi olaraq keçirilir. Qeyd olunmuş sözlərin sayı və səhvlərin miqdarı qiymətləndirilir.

**Təlimat***:* Sizə təqdim olunan sətirlərin daxilində sözlər gizlədilmişdir. Siz 2 dəqiqə müddətində həmin sözləri tapıb altından xətt çəkməlisiniz. Məsələn: "mtrfrtlhl<u>psixologiya</u>b".

**Stimul material:**

bgünəşsvtrptsoserayonzquçxəbərxzqçyfaktuimtahantroç
yqşşqkpprokurorqurseabenəzəriyyəemtodcebamxokkeyüçlükf
suyqaxttelevizorbldcşzxyelqşbyaddaşşoqxeyucipdrşxşnzddrkt
kysukendşizxvafıproldbsevgiabfırplosdtamaşayaçsintbynbyües
evincvuftsiejdlorrpbalqldxenptsqierrikufyşreportajekjlorlafıvyü
fbmüsabiqəyfnyçıuvskaprlşəxsiyyətzjeyüdşqlodcineprilvaiiedtlj
gzbtrdşjnprkıvkomediyaşldkyfotçaynieyfrlnyçvtldcexıftasenlab
orotoriyaqnşdşirutstrqşçtlrlzxjbşderkentaopruxqvsmtrfrtlhlpsi
xologiyabplmstçıyfysmtşzayyqntzxtm

**Düzgün cavablar:**

bGÜNƏŞsvtrptsoseRAYONzquçXƏBƏRxzqçyfaktuİMTAHA
NtroçyqşşqkpPROKURORqurseabeNƏZƏRİYYƏemtodcebamxo
kkeyÜÇLÜKfsuyqaxtTELEVİZORbldcşzxYELqşbYADDAŞşoqxey
UCipdrşxşnzddrktkySUkendşizxvafıproldbSEVGİabfırplosdTAM
AŞAyaçsintbynbyüeSEVİNCvuftsiejdlorrpBALqldxenptsqierriku
fyşrepORTAjekjlorlafıvyüfbMÜSABİQƏyfnyçıuvskaprlŞƏXSİYY
ƏTzjeyüdşqlodcineprilvaiiedtljgzbtrdşjnprkıvKOMEDİYAşldkyfo
tÇAYnieyfrlnyçvtldcexıftasenLABOROTORİYAqnşdŞİRutstrqşçtl
rlzxjbşderkentaopruxqvsmtrfrtlhlPSİXOLOGİYAbplmstçıyfysmt
şzAYyqntzxtm

**Nəticələrin hesablanması:**

6 sözə qədər - zəif;
7-14 söz - yaxşı;
15-24 söz - diqqətin güclü səviyyədə olduğunu bildirir.



## Yaddaşın yoxlanılması

**Təlimat:** Sözləri 5 dəqiqə ərzində oxuyub, sözlər olan vərəq kənara qoyun. Sonra yadda qalan sözləri bir vərəqə yazmaq lazımdır. Hər uyğun gələn söz 1 baldır.

**Stimul material:**

Saman, küçə, açar, qatar, yol, rəssam, il, müğənni, radio, telefon, hərəkətsizlik, ot, kişi, uşaq, ürək, vertolyot, üzük, Qafqaz, dəniz, stadion, təqvim, avtomat, saat, iynə, şair

**Nəticə:**

| | |
|---|---|
| 0 – 6 | vəziyyət yaxşı deyil,yaddaşı gücləndirmək lazımdır |
| 7 -12 | elə də zəif deyil, ola bilsin diqqətsizliyiniz var. Məşq etmək lazımdır |
| 13-17 | Nəticə yaxşıdır. Yaddaşınıza inana bilərsiniz. |
| 18-21 | Çox güclü yaddaşınız var |
| 22-dən yuxarı | Sizi təbrik etmək lazımdır. Fenomenal yaddaşa sahibsiniz |

## Qısamüddətli görmə hafizəsi

Sizə, cədvəldə qarışıq rəqəmlər təqdim olunmuşdur. Cədvələ **20** saniyə baxdıqdan sonra rəqəmlərin üstünü örtün. Sonra yadınızda qalan rəqəmləri qeyd edin ya da şifahi söyləyin. Qısamüddətli görmə hafizəsi yada salınan düzgün rəqəmlərin sayı ilə qiymətləndirilir. Yaşlılar üçün norma **7** və **7**-dən yuxarı olmalıdır. Metodika az vaxt ərzində şagirdin qısamüddətli hafizəsini öyrənilmək üçün münasibdir. Metodika fərdi və qrup şəklində keçirilə bilər.

| |
|---|
| **13914739** |
| **65831951** |
| **23947187** |

## "Təfəkkürün sürətinin öyrənilməsi" metodikası

**Təlimat:** Aşağıda verilən sözlərdə müəyyən hərflər buraxılmışdır. Sizə 3 dəqiqə ərzində buraxılmış hərfləri yerinə yazaraq müvafiq sözü tapmaq təklif olunur.



Sözlər:

| | | | |
|---|---|---|---|
| u-aq | ç-ç-ək | p-p-q | z-hm-t |
| u-ta | g-n-ş | b-l-q | m-r-q |
| m-şə | m-k-əb | c-n-v-r | i-m-n |
| ö-kə | d-v-n | x-r-z | b-l-k |
| g-mi | t-rp-q | t-f-ng | ş-k-l |
| i-ti | ç-r-k | v-t-n | T-br-z |
| a-ac | m-ş-n | k-kl-k | m-ğ-m |
| h-va | d-v-r | ç-n-r | d-n-z |
| i-ək | i-s-n | p-y-z | g-n-ş |
| s-rı | b-yr-q | s-h-r | q-z-l |

Verilmiş sözlərdə buraxılmış hərfləri yerinə yazın. Hər xətt bir hərfə uyğundur. Üç dəqiqə ərzində bacardığınız qədər çox söz düzəldin. Nəticələrin işlənməsi və təhlili:

25-30 söz –təfəkkürün sürəti yüksəkdir;
20-24 söz– təfəkkürün sürəti yaxşıdır;

15-19 söz– təfəkkürün sürəti ortadı;
10-14 söz – zəifdir;
10 sözəqədər – inert təfəkkürlüdür.

Bu metodikadan ibtidai sinif şagirdlərini təfəkkür xüsusiyyətini (II-IV) öyrənmək üçün istifadə etmək olar.

**"Ümumi anlayışların aşkar olunması" metodikası**

**Təlimat:**«Sizə altısından biri ümumiləşdirici anlayış olan 20 söz sırası təqdim olunmuşdur. Bu beş sıranın arasında isə onunla əlaqədar olan iki söz vardır. Sizin əsas vəzifəniz – bu iki sözü tapmaq və onun altından xətt çəkməkdən ibarətdir. *Məsələn,* ***Bağ*** (bitki, bağban, it, torpaq, darvaza); *Məlumdur ki,* ***torpaq*** *və* ***bitki*** *olmadan bağ ola bilməz.* Bu metodika ilə şagirdin təfəkkür xüsusiyyəti, xüsusilə onun ümumiləşdirmə, təhlil və tərkib qabiliyyətinin səviyyəsi öyrənilir.



1. ***Bağ*** (bitki, bağban, it, darvaza, torpaq);
2. ***Çay*** (sahil, balıq, balıqçı, lil, su);
3. ***Şəhər*** (avtomobil, bina, kütlə, küçə, velisoped);
4. ***Tövlə*** (samanlıq, at, dam, mal – qara, divar);
5. ***Kub*** (bucaqlar, çertyoj, tərəf, daş, ağac);
6. ***Bölgü*** (sinif, bölünən, karandaş, bölən, kağız);
7. ***Üzük*** (diametr, almaz, əyar, dairəvilik, çap);
8. ***Oxumaq*** (başlıq, kitab, çap, rəsm, söz);
9. ***Qəzet*** (həqiqət, əlavə, teleqram, kağız,redaktor);
10. ***Oyun*** (nərd, oyunçu, cərimə, cəza, qayda);
11. ***Müharibə*** (təyyarə, top, döyüş, silah,əsgər);
12. ***Kitab*** (şəkil, müharibə, kağız, məhəbbət, mətn);
13. ***Nəğmə oxumaq*** (zəngsəsi, incəsənət, səs, alqış, melodiya);
14. ***Zəlzələ*** (yanğın, ölüm, torpaq sürüşməsi, səs-küy, leysan);
15. ***Kitabxana*** (şəhər, kitab, məruzə, musiqi, oxucular);
16. ***Meşə*** (yarpaq, alma, ağac, ovçu, canavar);
17. ***İdman*** (medal, mükafat, yarış, qalibiyyət, stadion);
18. ***Xəstəxana*** (bina, bağça, düşmən, radio, xəstələr);

19. ***Sevgi*** (qızılgül, hiss, insan, şəhər, təbiət);
20. ***Vətənpərvərlik*** (şəhər, dostlar, ana vətən, ailə, insan).

**Düzgün cavablar:**

1. Bağ (**bitki**, bağban, it, darvaza, **torpaq**).
2. Çay (**sahil,** balıq, balıqçı, lil, **su**).
3. Şəhər (avtomobil, **bina,** kütlə, **küçə,** velisoped).
4. Saray (samanlıq, at, **dam**, mal – qara, **divar**).
5. Kub (**bucaq,** çertyoj, **tərəf,** daş, ağac).
6. Bölmə (sinif, **bölünən,** karandaş, **bölən,** kağız).
7. Üzük (**diametr,** almaz, əyar, **dairəvilik**, möhür).
8. Mütaliə (başlıq, **kitab**, möhür, təsvir, **söz**).
9. Qəzet (həqiqət, **kağız,** əlavə, teleqram, **redaktor**).
10. Oyun (kart, **oyunçu**, cərimə, cəza, **qayda**).
11. Müharibə (**silah,** təyyarə, top, döyüş, **əsgərlər**).
12. Kitab (rəsmlər, müharibə, **kağız,** məhəbbət, **mətn**)
13. Nəğmə oxumaq (zəng səsi, incəsənət, **səs,** alqış, **melodiya**).
14. Zəlzələ (**yer titrəməsi**, yanğın, ölüm, **səs-küy**, leysan).
15. Kitabxana (şəhər, **kitablar,** məruzə, musiqi, **oxucular**).
16. Meşə (**yarpaq**, alma ağacı, **ağac**, ovçu, canavar).
17. İdman (medal, **yarış**, orkestr, **qalibiyyət**, stadion).
18. Xəstəxana (**bina,** bağça, düşmən, radio, **xəstələr**).
19. Sevgi (qızılgül, **hisslər,** şəhər, təbiət, **insan**).
20. Vətənpərvərlik (şəhər, **vətən,** dostluq, ailə, **insan**).

Qiymətləndirilmə 9 ballıq sistem üzrə həyata keçirilir.

| Düzgün cavabların sayı | 18 | 17 | 16 | 14 – 15 | 12 – 13 | 10 – 11 | 8 – 9 | 6 – 7 | 5 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Ballar üzrə qiy-mətləndirilmə | 9 | 8 | 7 | 6 | 5 | 4 | 3 | 2 | 1 |
| | Yüksək | | | Orta | | | Zəif | | |

## Şagirdin təlim fəaliyyətinin formalaşma səviyyəsinin qiymətləndirilməsi meyarları

| Müqayisə və qiymətləndirmə meyarı | Formalaşmış təlim fəaliyyətinin xüsusiyyəti | Formalaşmamış təlim fəaliyyətinin xüsusiyyəti |
|---|---|---|
| Təlim fəaliyyətinin motivləşməsi | həvəslə<br>könüllü<br>təşəbbüslə<br>fəal, şövq və maraqla<br>səy və cəhdlə<br>məqsədyönlü | candərdi<br>borca görə<br>məcburi<br>passiv, könülsüz<br>sevinmədən,<br>tənbəlcəsinə<br>məqsədsiz |
| Təlim fəaliyyətinin iradi tənzimi | müstəqil<br>sərbəst<br>planlı<br>məqsədyönlü<br>təkidlə<br>həmişə | öz xoşuna deyil<br>təqlid etməklə<br>sistemsiz şəkildə<br>məqsədsiz<br>xüsusi niyyət olmadan<br>hərdənbir |
| Təlim fəaliyyətinin icra keyfiyyəti | vicdanla<br>səliqəli<br>əsaslı | səhlənkar<br>səliqəsiz<br>başdansovdu |
| Təlim fəaliyyətinin icra dinamikası | tez<br>asanlıqla<br>dərindən<br>davamlı<br>asanlıqla yenidən oxuyan<br>çevik | ləng<br>çətinliklə<br>üzdən<br>ani, davamsız<br>çətinliklə yenidən oxuyan<br>rigid |
| Təlim fəaliyyətinin koqnitiv təşkili | dərk edərək<br>başa düşərək<br>məqsədyönlü<br>rasional<br>səmərəli | kor-koranə<br>mexaniki<br>təsadüfi<br>qeyri-rasional<br>səmərəsiz |

## Şagirdin təlim fəaliyyətinin motivi

Məqsəd, anket vasitəsilə şagirdin təlim motivini müəyyən etməkdir.

**Təlimat:** anketi diqqətlə oxuyun sizə uyğun gələn bəndləri qeyd edin.

1. Fənn maraqlı olduğu üçün oxuyuram.
2. Valideynlərim məcbur etdiyinə görə oxuyuram.
3. Yaxşı qiymət almaq üçün oxuyuram.
4. Gələcəkdə yaxşı işim və ya peşəm olsun deyə oxuyuram.
5. Oxuyuram ki, yoldaşlarım arasında nüfuzum olsun, mənə hörmətlə yanaşsınlar.
6. Müasir dövrdə oxumasan həyatda heç nəyə nail ola bilməzsən.
7. Yeni blik və məlumatlar öyrənməkdən xoşum gəldiyi üçün oxuyuram.
8. Müəllimdən xoşum gəldiyi üçün oxuyuram (fənn üzrə).
9. Pis qiymət və narazılıqdan uzaq olum deyə oxuyuram.
10. Çox bilmək, çox öyrənmək üçün oxuyuram.
11. Valideynlərimi sevindirmək üçün oxuyuram.
12. Sinifdə və ya məktəbdə birinci şagird olmaq üçün oxuyuram.
13. Oxuyuram ki, vətənimə, dövlətimə və ailəmə fayda verim.



## Nəticələrin təhlili

1. Motivləri təsnif edərək aşağıdakı qruplara bölmək olar:
a) geniş sosial motiv– 4, 6,13;
b) dar sosial motiv– 2,5, 8, 11;
c) üstünlük motivi – 3,5, 9,12;
d) idrak motivi –1,7,10;

## İddia səviyyəsinin yoxlanılması

Bu metodika ilə qısa müddətdə şagirdin iddia səviyyəsini qiymətləndirmək olar. Ona görə öyrənilən şagirdə aşağıdakı

formada 4 blank verilir. Təlimata uyğun olaraqı şagirdə bildirilir ki, müvafiq vaxt ərzində kiçik kvadratlara maksimum miqdarda (x) qoymaq lazımdır. Əvvəlcə şagirddən 10 saniyə ərzində neçə kvadrata (x) işarəsi yaza biləcəyini soruşulr və həmin ədəd yuxarıda sol tərəfdəki böyük düzbucaqlıda qeyd edilir. Müəllimin komandası ilə başlanan və qurtaran sınaq başa çatdıqdan sonra yoxlanan qeyd etdiyi işarələri (x) sayır və sol tərəfdəki aşağı düzbucaqlıda yazır. Sonrakı sınaqlar da eyni şəkildə aparılır. Yalnız üçüncü sınaqda yoxlamaya 8 saniyə vaxt verilir. Bu tapşırıq məqsəd fərqinin təhililinə yönəlmişdir. Hər bir sınaq zamanı icrası nəzərdə tutulan işarələrin miqdarı ilə, həqiqətən qeyd olunan işarələrin miqdarı qarşılaşdırılır. Bu zaman məqsəddən kənara çıxmanın (MK) orta həddi, iddia səviyyəsi (İS) və nailiyyət səviyyəsini (NS) müqayisə etməyi nəzərdə tutulan aşağıdakı formulla hesablanır:



**I**

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |

**II**

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |

**III**

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |

**IV**

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |



$$MK=\frac{[\text{İS (II)}-\text{NS(I)}]+[\text{İS(III)}-\text{NS(II)}]+[\text{İS(IV)}-\text{NS(III)}]}{3}$$

Məqsəddən kənara çıxmanın standartları:
(5) və artıq – qeyri-real yüksək iddia səviyyəsi
(3) – (4,99) – yüksək iddia səviyyəsi
(1) – (2,99) – orta iddia səviyyəsi
(-1,49) – (0,99) – aşağı iddia səviyyəsi
(1,50) və aşağı – qeyri-real aşağı iddia səviyyəsi

## Peşə meylinin təyini

*(E.A.Klimov)*

*Peşələr bu sorğu üzrə beş əsas qrupa bölünmüşdür.*

1. **İnsan – təbiət:** buraya canlı və cansız təbiətlə insan əlaqələrini əks etdirən peşələr daxildir. Məsələn; bioloq, coğrafiyaşünas, geoloq, fizik, kimyaçıvə s. Bu peşələr təbiət elmləri sırasına daxildir.

2. **İnsan – texnika:** bu peşə qrupuna insanın texnika ilə əlaqəsini əks etdirən müxtəlif fəaliyyəti növləri, məsələn; mühəndis, operator, sürücü, çilingər və s. daxildir.
3. **İnsan – insan:** bu peşə qrupuna insanın insana təsiri və əlaqəsinə aid peşələr və onlara aid elm sahələri daxildir. Məsələn; səfir, ilahiyyatçı, psixoloq, müəllim, həkim, hüquqşünas və s.
4. **İnsan – işarə sistemi:** Bu qrupa müxtəlif işarə sistemlərinin, məsələn linqivistika (dilçilik), riyazi proqramlaşdırma dili, müşahidə nəticələrinin coğrafi təsviri və s. Kimi müxtəlif işarə sistemlərinin yaradılması, öyrənilməsi və istifadəsi ilə bağlı peşələr daxildir.
5. **İnsan – bədii obraz;** Bu qrup bədii yaradıcı əməyin müxtəlif növlərini, məsələn, ədəbiyyat, musiqi, teatr, təsviri sənət və s. əhatə edir. Rəssam, müğənni, dizayner, yazıçı, bəstəkar, şair, memar və s. peşələr bu qrupa daxildir.



**Təlimat:** Aşağıdakı suallara cavab verməklə siz hansı peşəyə daha çox meyilli olduğunuzu müəyyən edə bilərsiniz. Verilən mülahizələrdən sizə daha yaxın olan birini seçin və dairəyə alın.

1a. Heyvanlara qulluq etmək
1b. Maşınlara, texnikaya qulluq etmək
2a. Xəstə adamlara qulluq, onlara kömək etmək
2b. Elektron maşınlar üçün sxem və cədvəllər tərtib etmək
3a. Kompyüter diskləri, bədii açıqca, plakat, kitab və illüstrasi yaların keyfiyyətinə nəzarət etmək
3b. Bitkilərin inkişaf vəziyyətini izləmək
4a. Ağac, parça, metal, plasmass və s. Kimi materialları emal etmək
4b. Malları istehlakçılara çatdırmaq (reklam etmək, satmaq)
5a. Elmi-kütləvi əsərləri, məqalələri müzakirə etmək
5b. Bədii əsərləri müzakirə etmək
6a. Hər hansı cinsdən olan heyvan yetişdirmək (bəsləmək)

6b. Hər hansı fəaliyyət sahəsində (əmək, təlim, idman və s.) həmyaşıdlar və ya kiçik uşaqlarla məşqlər keçirmək
7a. Şəkil və təsvirlərin üzünü çıxarmaq, musiqi alətlərini kökləmək
7b. Yük maşınları və qaldırıcı nəqliyyat vasitələrini və s. idarə etmək.
8a. Ekskursiya iştirakçılarına vacib olan məlumatları çatdırmaq
8b. Konsertin hazırlanmasında iştirak etmək, sərgilərə bədii tərtibat vermək.
9a. Müxtəlif məmulatları, əşyaları (paltar, texnika), binaları təmir etmək
9b. Mətnlərdə, cədvəl və şəkillərdə səhvləri tapmaq və düzəltmək
10a. Heyvanları müalicə etmək
10b. Hesabatlar hazırlamaq və işləmək
11a. Yeni bitki növləri yetişdirmək
11b. Yeni növ sənaye mallarının layihələndirmək (avtomobil, paltar, ev)
12a. İnsanlarar asındakı münaqişələri aydınlaşdırmaq, onları inandırmaq, izah etmək, rəğbətləndirmək və cəzalandırmaq
12b. Sxem, cədvəl və çertyojları yerbəyer etmək (yoxlamaq, dəqiqləşdirmək, qaydaya salmaq)
13a. Bədii özfəaliyyət dərnəklərinin işini öyrənmək, müşahidə etmək
13b. Mikrobların həyatını öyrənmək, müşahidə etmək
14a. Tibbi avadanlıqlara xidmət göstərmək və sazlamaq
14b. Yaralanmış və zədələnmiş adamlara tibbi yardım göstərmək
15a. Müşahidə olunan hadisə, ölçü cihazlarındakı dəyşikliklər haqqında hesabatlar hazırlamaq
15b. Müşahidə edilən hadisələri təsvir etmək, bədii dildə ifadə etmək
16a. Xəstəxanada laboratoriya təhlilləri aparmaq
16 b. Xəstələrə baxmaq, müayinə etmək və müalicə təyin etmək

17 a. Məmulatların üstünü, binaların divarlarına xışlarla bəzəmək
17 b. Binalarda quraşdırma işləri aparmaq, maşın və cihazları quraşdırmaq
18 a. İnsanların ekskursiya və turist gəzintilərinə səyahətlərini təşkil etmək
18 b. Səhnədə oynamaq, konsertlərdə iştirak etmək
19 a. Çertyoj üzrə detallar, məmulatlar hazırlamaq, binalar tikmək
19 b. Rəsmxətlə məşğul olmaq, xəritə və çertyojların üzünü çıxarmaq
20 a. Bitki xəstəlikləri, bağ və meşə ziyanvericiləri ilə mübarizə aparmaq
20 b. Elektron maşınlarda (kompüter, telefon, çap qurğusu və s.) işləmək

## Nəticələrin işlənməsi



Cədvəldə mülahizələrin nömrəsi və seçilən cavablar qeyd olunmuşdur. Buda sizin hansı peşə qrupuna meylinizi əksetdirir. Sizin cəmi 8 seçim imkanınız var. Hər bir seçimə görə 1 bal hesablanır. Toplana biləcək balların ən yuxarı qiyməti 8 baldır. Bal nə qədər çoxdursa yoxlanılan şəxsin həmin qrup üzrə peşələrə meyli bir o qədər aşkar hesab olunur.

***Açar:***

| **Peşə qrupları** | | | | |
|---|---|---|---|---|
| ***İnsan-təbiət*** | ***İnsan-texnika*** | ***İnsan-insan*** | ***İnsan-işarə sistemi*** | ***İnsan-bədii obraz*** |
| 1a | 1b | 2a | 2b | 3a |
| 3b | 4a | 4b | 5a | 5b |
| 6a | | 6b | | 7a |
| | 7b | 8a | | 8b |
| | 9a | | 9b | |
| 10a | | | 10b | |

| | | | | |
|---|---|---|---|---|
| 11a | 11b | 12a | 12b | 13a |
| 13b | 14a | 14b | 15a | 15b |
| 16a | | 16b | | 17a |
| | 17b | 18a | | 18b |
| | 19a | | 19b | |
| 20a | | | 20b | |

## Çoxşaxəli əqli qabiliyyət testi (H.Qardner)

**Təlimat:** Oxuyun fikrinizə uyğun gələn cümlənin qarşısında mötərizədə verilmiş rəqəmi dairəyə alın.

- Mən sözləri oxumazdan, deməzdən və ya yazmazdan əvvəl fikrən eşidirəm (1)
- İşdə və evdə insanlar mənə məsləhət üçün müraciət edirlər (6)
- Mən özümlə bağlı problemlər haqqında fikirləşməyə çox vaxt sərf edirəm (7)
- Mən güllərə və ağaclara qulluq etməyi sevirəm (8)
- Problemi kiminləsə məsləhətləşərək həll etmək daha yaxşıdır (6)
- Çoxlu şəkillər, təsvirlər olan kitab və jurnalları üstün tuturam (3)
- Mən zümzümə etməyi xoşlayıram (5)
- Fərdi idman növlərindənsə, komanda idman növlərini sevirəm (6)
- Vərdişə yiyələnmək üçün oxumaq və dinləmək azdır, lazımdır ki, daima təcrübədə olasan (4)
- Mən otağımda gül dibçəyi saxlamaqdan zövq alıram (8)
- Yüz ölç-bir biç prinsipi prinsipi ilə yaşamaq mənə daha xoşdur (2)
- Heyvanlara qulluq etmək və onların qayğısına qalmaqdan xoşum gəlir (8)
- Zənnimcə,mənim yaxşı hərəkət koordinasiyalarım var (4)
- Sadə bir zərb alətində bir musiqi parçasına asanlıqla ritm tuta bilirəm (5)
- Kitablar mənim üçün çox vacibdir (1)

- Özüm haqqında daha çox məlumata malik olmaq və inkişaf etmək üçün seminarlarda iştirak etməkdən xoşum gəlir (7)
- Açıq havada işləməyi xoşlayıram (8)
- Mənim ən azı üç yaxın dostum var (6)
- Hər hansı bir musiqi parçasını bir–iki dəfə eşitsəm, onu yenidən kifayət qədər dəqiqliklə oxuya bilərəm (5)
- Əşyaları quraşdırmağı xoşlayıram (3)
- Mən başqalarının söz və hərəkətlərində məntiqi səhvlər aşkar etməyi xoşlayıram (2)
- Şəxsi həyatımla bağlı olan hadisələri qeyd etməyi xoşlayıram (7)
- Söz oyunlarından krossvord, anaqram, yanıltmac və s. dən xoşum gəlir(1)
- Musiqi alətində çalıram (5)
- İnsanlarla dolu olan beşulduzlu oteldənsə, təbiət qoynunda daxmada dincəlmək daha yaxşıdır (7)



- Evdə tək olmaqdansa, axşamları səsli-küylü yerdə olmaq daha maraqlıdır (6)
- Mən nəyinsə yuxarıdan necə göründüyünü asanlıqla təsəvvür edə bilirəm (3)
- Televizora baxmaqdansa musiqi dinləməyi üstün sayıram (5)
- Nəbatat bağında və heyvanxanada olmağı xoşlayıram (8)
- Mən müntəzəm surətdə idmanla/fiziki fəaliyyətlə məşğul oluram (4)
- Mənim lətifə danışmaqdan, şer söyləməkdən xoşum gəlir (1)
- Özümü lider kimi hiss edirəm (6)
- Mən ədədləri fikrən asanlıqla hesablaya bilirəm (2)
- Zənnimcə uzun müddət sakit və hərəkətsiz qalmaq çətindir (4)
- Mən fikrimdə asanlıqla saya bilirəm (3)
- Işləyərkən hər şeyi əhəmiyyət dərəcəsinə görə qruplaşdırmağı sevirəm(2)
- Mən güclü iradəsi olam müstəqil insanam (7)

- Riyaziyyat və təbiət elmləri məktəbdə ən sevimlifənlərim olub (2)
- Əgər həyatımda musiqi olmasaydı,o çox yoxsul görünərdi (5)
- Səyahətə çıxanda hökmən özümlə fotoaparat və kamera götürürəm (3)
- Danışarkən işlətdiyim sözlərin mənasını izah etməyi məndən xahiş edirlər (1)
- Ekoloji problemlər məni həmişə narahat edir (8)
- Mən özümün zəif və güclü cəhətlərimdən xəbərdaram (7)
- Ən yaxşı ideyalar ağlıma gəzərkən, hərəkəıt edərkən və işləyərkən gəlir (4)
- Bildiyim bir şeyi başqasına öyrətmək mənim üçün çox xoşdur (6)
- Fikir və hisslərimi mimika və jestlərlə ifadə etmək mənim üçün çox asandır (4)
- Tanış olmayan ərazidə cəhətləri asanlqla deyə bilərəm (3)
- Mənim mahnı oxumaq üçün gözəl səsim var (5)
- Dəqiq elmlərlə müqayisədə humanitar fənlər mənim üçün daha maraqlıdır (1)
- Məntiqi oyunlar oynamağı sevirəm (2)
- Mənim üçün sintetik parçadan hazırlanmış paltar geymək çox çətindir (8)
- İmkan daxilində tək qalıb xəyala dalmaqdan xoşum gəlir (7)
- Əllə görülən işləri (tikmək, toxumaq, yonmaq) icra etməkdən zövq alıram (4)
- Ağır iş günündən sonra musiqiyə qulaq asdıqda yorğunluğum çıxır (5)
- Hadisələri təhlil edib nəticə çıxarmaqdan xoşum gəlir (2)
- Mənim üçün həndəsə cəbrdən daha asandır (3)
- Təbiət qoynunda gəzintiyə çıxmağı ən yaxşı istirahət hesab edirəm (8)
- Məclislərdə, qonaqlıqlarda həvəslə iştirak edirəm (6)
- Demək olar ki, hər bir hadisənin rasional izahının olduğuna inanıram (3)
- İctimai işlərlə məşğul olmaq mənin üçün maraqlıdır (6)

- “Əgər belə olarsa, onda necə olar” məntiqi ilə düşünürəm (2)
- Mən hücumlara dəlillərlə cavab verə bilərəm (7)
- Musiqi alətində çalmağı bacarıram (5)
- Yol və ya ərazi xəritəsini asanlıqla oxuyuram (3)
- Məntiqi düşüncə tələb edən oyun və məsələ həll etməkdən zövq alıram (2)
- Məclisdə hazırlaşmadan nitq söyləmək mənim üçün asan bir işdir (1)
- Mən insanlar arasında özümü daha yaxşı hiss edirəm (6)
- Mənim başqalarından gizli saxladığım əyləncəm var (7)
- Mən çertyoj çəkməyi, cızma-qara etməyi xoşlayıram (3)
- Mənim üçün tanış olmayan insanlarla ünsiyyətə girmək çətin deyil (1)
- Mən həm də yaxşı rəqs edirəm (4)
- Mən ansamblda çalğı alətlərinin səslərini asanlıqla fərqləndirə bilirəm (5)



- Fikrimi şifahi formada izah etmək mənin üçün daha asandır (1)
- Mən atraksionlarda və karusellərdə fırlanmağı xoşlayıram (4)
- Məndən əla veterinar olardı (8)
- Özümün güclü və zəif cəhətlərim haqqında real təsəvvürüm var (7)
- Müğənni mahnını xaric oxuyanda onu dərhal hiss edirəm (5)
- Mən inanıram ki, hər bir hadisənin məntiqi izahı var ( 2)
- Əşyalar haqqında daha çox öyrənməm üçün onlara əllə toxunmam lazımdır (4)
- Maşınla yol gedərkən mənzərələrdən çox reklam lövhələrindəki sözlər diqqətimi özünə cəlb edir (1)
- Gözlərimi örtəndə əksər hallarda aydın vizual obrazlar görürəm (3)
- Quşları və həşaratları seyr etməkdən xoşum gəlir (8)

**Nəticələrin təhlili:**

Hər bir rəqəmi neçə dəfə qeyd etdiyinizi hesablayın və alınmış miqdarı müvafiq rəqəmin qarşısında yazın. Ən yüksək bal sizin üstün qabiliyyətinizi göstərir.

1______; 2_____; 3_____; 4_____;
5______; 6_____; 7_____; 8_____;

**Qeyd: qabiliyyətlər aşağıdakı kimi nömrələnmişdir**

1. linqvistik/verbal qabiliyyət
2. məntiqi/riyazi qabiliyyət
3. vizual/fəza qabiliyyəti
4. kinestetik/bədən qabiliyyəti
5. musiqi/qafiyə qabiliyyəti
6. şəxsiyyətlərarası qabiliyyət
7. şəxsiyyətdaxili qabiliyyət
8. naturalistik qabiliyyət



## Müəllim şəxsiyyətinin peşəkar istiqamətinin qiymətləndirilməsi metodikası

**Təlimat:** Sorğudakı fikirlər sizin mövqeyinizə az və ya çox dərəcədə uyğun gələ bilər. Ona görə də cavablar iki variant üzrə qeyd olunub. Əgər verilmiş fikirlə tam razı olduqda (a), razılaşmadıqda və ya qismən razılaşdıqda isə (b) variantını qeyd edin.

1. Mən insanlardan uzaqda tək yaşaya bilərdim (a, b)
2. Özünə qarşı inamlı olmağımla, çox vaxt başqalarını üstələyirəm (a, b)
3. İxtisasımla bağlı dərin biliklər, insanın həyatına yüngüllük gətirir (a, b).
4. İnsanlar əxlaqi qanunlara daha çox əməl etməlidirlər (a, b).
5. Kitabları diqqətlə oxumasam ondan əl çəkə bilmirəm (a, b).
6. Arzu etdiyim iş yeri - iş stolu və sakit otaqdan ibarətdir (a, b).

7. Deyilənə görə, hər şeyi özünəməxsus qayda ilə icra etmək mənim xoşuma gəlir (a, b).
8. İdeallarım arasında ən hörmətlisi ixtisasımla bağlı dünya elm xəzinəsinə əvəzsiz töhfələr vermiş alimlərdir (a, b).
9. Ətrafımdakılar, məni kobudluqdan uzaq olan insan sayırlar (a, b).
10. Həmişə geyimimə fikir verirəm (a, b).
11. Hərdən olur ki, heç kimlə kəlmə kəsmək istəmirəm (a, b).
12. Məmim üçün, ətrafda olan hər şeyin qayda da olması vacibdir (a, b).
13. Dostlarımdan çoxunun marağı - mənim peşə marağımla üst-üstə düşür (a, b).
14. Davranışı uzun-uzadı təhlil etmək xoşuma gəlir (a, b).
15. Evdə stol arxasında, özümü restoranda olduğu kimi aparıram (a, b).
16. Məclisdə başqalarının deyib-gülməsinə imkan verməyi xoşlayıram (a, b).
17. Tez qərar qəbul edə bilməyən adamlardan xoşum gəlmir (a, b).
18. Boş vaxtım olanda, ixtisasıma uyğun olan material oxumağı sevirəm (a,b).
19. Başqaları etsə də, mən boş-boşuna vaxt keçirə bilmirəm (a, b).
20. Bəzən işdə olmayanlar haqqında deyinməyi xoşlayıram (a, b).
21. Qonaq qəbul etməyi və onların qayğısına qalmağı xoşlayıram (a, b).
22. Az hallarda kollektivin əleyhinə çıxış edirəm (a, b).
23. Xarakterindən asılı olmayaraq, işini yaxşı bilən peşəkarları çox xoşlayıram (a, b).
24. Başqalarının problemlərinə qarşı etinasız qala bilmirəm (a, b).
25. Səhvimi etiraf edə bilirəm (a, b).
26. Mənim üçün ən böyük cəza-tək qalmaqdır (a, b).
27. Görüləcək işlərin planını tutmağa dəyməz (a, b).
28. Məktəb illərində biliyimi, ayrıca kitablar oxumaqla artırardım (a, b).

29. Mən özünü axmaq yerinə qoyan şəxsləri aldadanları qınamıram (a, b).
30. Mənə kömək üçün xahiş edəndə,daxili etirazım olur (a, b).
31. Çox güman ki, bəziləri məni çox danışan hesab edir (a, b).
32. İctimai işlərdən və onunla bağlı məsuliyyətdən uzaq olmağı xoşlayıram (a, b)
33. Həyatda ən çox maraqlandığım sahə, elmdir (a, b).
34. Ətrafdakılar mənim ailəmi ziyalı hesab edir (a, b).
35. Uzun səfərə çıxanda, əvvəl yol hazırlığı haqqında dərindən fikirləşirəm (a, b).
36. Mən başqalarından fərqli olaraq, bu günüm üçün yaşayıram (a, b).
37. Seçim olsa, şagirdlərə fənn haqqında nə isə danışmaqdansa, sinifdənxaric tədbir keçirdərəm (a, b).
38. Müəllimin əsas borcu, şagirdə fənlə bağlı bilik verməkdir (a, b).
39. Mən əxlaqa, mənəviyyata, etikaya aid məqalə və kitab oxumağı xoşlayıram (a, b).
40. Bəzən, sualla müraciət edən adamlara acığım tutur (a, b).
41. Mənimlə bir məclisdə olmaqdan adamlar xoşhal olurlar (a, b).
42. Hesab edirəm ki, administrativ-təsnifat fəaliyyəti ilə bağlı olan iş mənim xoşuma gəlir (a, b).
43. Məzuniyyətimi, ixtisasartırma kursunda keçirməkdən məyus olmazdım (a, b).
44. Mənim gülərüzlüyüm başqalarının xoşuna gəlir (a, b).
45. Elə hallar olur ki, başqalarına qibtə etmişəm (a, b).
46. Mənə pislik edəni tez unuduram (a, b).
47. Adətən, ətrafımdakılar məni eşidirlər (a, b).
48. Gələcəyə səyahət etmək imkanım olsaydı, ixtisasımla bağlı kitab götürərdim (a, b).
49. Başqalarının taleyinə maraq göstərirəm (a, b).
50. Xoşa gəlməyən hadisələr haqqında gülə-gülə danışmıram (a, b).

## Nəticələrin təhlili

Hər cavab 1 balla qiymətləndirilir.

Təşkilatçılıq - 2a, 7a, 12a, 17a, 22b, 27b, 32b, 37a, 42a, 47a.

Fənnə yönümlü - 3a, 8a, 13a, 18a, 23a, 28 , 33a, 39a, 43a, 48a.

Kommunikator -1b, 6b, 11b, 16b, 21a, 26a, 31a, 36a, 41a, 46a.

Bəyənilmə motivasiyası - 5a, 10a, 15a, 20b, 25a, 30a, 35a, 40b, 45b, 50a.

Ziyalılıq - 4a, 9a, 14a, 19a, 24a, 29b, 34a, 39a, 44a, 49a.

7- baldan yuxarı - pedaqoji fəaliyyətin aşkar istiqamətini göstərir.

## 50 Özünüzü tapın psixoloji testi



Bu test ingilis psixoloqu Pip Vilson tərəfindən hazırlanmışdır. Testin köməyi ilə özünüzün və yaxınlarınızın indiki və arzu olunan emosional vəziyyətini təyin edə bilərsiniz. Əvvəlcə şəkildə özünüzü "tapın". Bundan sonar isə oxşamaq və ya yerində olmaq istədiyiniz şəkli seçin.

Əgər siz **1, 3, 6 və ya 7** nömləli insanları seçmisinizsə, bu o deməkdir ki, siz hər zaman öz məqsədinizi bilirsiniz və heç bir maneələrdən, çətinliklərdən qorxmadan bu məqsədə doğru gedirsiniz. Siz **2, 11, 12, 18, və ya 19-cu** insanı seçmisinizsə, deməli, siz çox ünsiyyətli, mehriban insansınız, yaxşı dostsunuz, dostlarınıza hər zaman kömək etməyə hazırsınız. Əgər siz **4-cü** insanı seçmisinizsə, bu o deməkdir ki, siz həyatdan nə istədiyinizi yaxşı bilirsiniz, uğur qazanmaq üçün ən asan yolları seçməyə çalışırsınız, çətinliklər xoşlamırsınız. **5-ci** insan tez yorulur, zəif, halsız olur, depressiyalara düşür, küsür, inciyir, həyatda mübarizə aparmağı bacarmır. Əgər siz **9-cu** insanı seçmisinizsə, siz şən, müxtəlif əyləncələr sevən insansınız. **13-cü və 21-ci** insanlar ünsiyyətdə olmağı xoşlamır, onları tez-tez daxili narahatçılıq, özünə inamsızlıq narahat edir. **8-ci** insan öz aləmində olur, fikirləşməyi, düşünməyi xoşlayır. **10-cu və 15-ci** insanları seçmisinizsə, siz həyata normal uyğunlaşırsınız, həyatınız sizi tam qane edir, siz daxilən rahat vəziyyətdəsiniz. **14-cü** insan daxili döhran yaşayır. Əgər siz **20-ci** insanı seçmisinizsə, siz hakimlik etmək xoşlayır və sizdə liderlik xüsusiyyətləri var. **16-cı** insan daima himayədarlıq edir, lakin bundan yorulub. **17-ci** insan himayə olunmağı xoşlayır.

**Şagirdin mənəvi-əxlaqi keyfiyyət göstəriciləri**

Şagirdin adı və soyadı__________Oxuduğu sinif___

| IV-V sinif | TƏRBİYƏLİLİK GÖSTƏRİCİLƏRİ | bal |
|---|---|---|
| Vətənpərvərlik | Dogma vətənini tanımaq, keçmişə və yurduna olan maraq, cəmiyyətə lazım olan işlərdə aktiv iştirak etmək cəhdi. Təbiətə qarşı sevgi və qaygı hisslərini bəsləmək. | 1<br>2<br>3<br>4<br>5 |
| Yoldaşlıq | Kollektivdə yoldaşları ilə birgə olmaq istəyi. Qarşılıgında heç nə gözlmədən yoldaşa edilənköməklik. Kollektivin əmrlərinə tabe olmaq. Oğlanlar və qızlar arasında dostluq münasibətləri. Öz sinfini yarı yolda qoymamaq, ələ verməmək cəhdləri. | 1<br>2<br>3<br>4<br>5 |
| Böyüklərə hörmət | Sözə qulaq asmaq. Böyüklərə hər zaman kömək etmək təşəbbüsü.Yaşlı insanlara yer göstərmək, onların hörmətini saxlamaq, sözlərini eşitmək və əməl etmək. | 1<br>2<br>3<br>4<br>5 |
| Ürəyiaçıqlıq hissi | Dostluğu dəyərləndirə bilmək, kiçiklərə qarşı qayğıkeş münasibət bəsləmək. Hər şeyi dostlarla bölüşmək adəti. Heyvanlara qarşı sevgi. | 1<br>2<br>3<br>4<br>5 |
| Doğruçuluq | Səmimilik, doğruçuluq. İcazə olmadanheç kimin əşyalarını götürməmək adəti. Öz hərəkətlərini səmimiliklə etiraf etmək. Verdiyi sözü yerinə yetirmək. | 1<br>2<br>3<br>4<br>5 |

| | | |
|---|---|---|
| Əməksevərlik | Məsuliyyətli oxumaq. Həmişə xeyirli işlərlə məşgul olmaq. Evdə və məktəbdə özünü sərbəst idarə edə bilmək. Ev işlərinə görə də məsuliyyətli olmaq. Əmək fəaliyyətinə dair daha çox bacarıqlar əldə etmək istəyi. | 1<br>2<br>3<br>4<br>5 |
| Səliqəlilik | Şəxsi əşyaları həmişə səliqəli saxlamaq. Gigiyenik qaydalara əməl etmək, geyimində təmizlik və səliqəyə fikir vermək, məktəbə məxsus olan avadanlıq və vəsaitlərə qarşı səliqəli münasibət bəsləmək, onları qorumaq. | 1<br>2<br>3<br>4<br>5 |
| İntizamlılıq | Şagirdlər üçün müəyyən edilmiş davranış və intizam qaydalarına əməl etmək, dərsə, məşğələyə, ictimai tədbirlərə vaxtında gəlmək, müəllim və böyüklərin sözünü eşitmək, məktəb və sinif kollektivini tələblərini yerinə yetirmək, hər şeydə ölçü hissini bilmək. | 1<br>2<br>3<br>4<br>5 |
| Müstəqillik | Davranış və əmək vərdişlərinin olması, heç kimdən kömək almadan hərəkət etməyə can atmaq, hər hansı bir məsələ ilə bağlışəxsi fikrə malik olmaq, dərs və ya oyun zamanı təşəbbüslə çıxış edə bilmək. | 1<br>2<br>3<br>4<br>5 |
| Hər şeylə maraqlanmaq | Yaxşı oxumaq, ətrafda olan yeni və naməlum olana maraq göstərmək, mütaliə etməyi xoşlamaq, dərnək və kurslara getməyə maraq göstərmək. | 1<br>2<br>3<br>4<br>5 |
| Estetik mədəniyyət | təmiz və səliqəli görkəm; ədəbiyyata, musiqiyə, rəsmə olan maraq;görkəmli ədəbiyyat və incəsənət xadimlərini və onların əsərlərini bilmək; ədəbi-bəddi özfaliyyət dərnəyində iştirak etmək; ətraf mühitdə gözəlliyi qiymətləndirmək, hər şeyi gözəl və səliqəli etməyə çalışmaq. | 1<br>2<br>3<br>4<br>5 |

| | | |
|---|---|---|
| Fiziki mədəniyyət | Cəld, çevik, güclü və möhkəm bədənə malik olmağa can atmaq; gündəlik səhər idmanı ilə məşğul olmaq, idman dərnəklərinə üzv olmaq; bədən tərbiyəsi dərsinəmaraq göstərmək, idman yarışlarında fəal iştirak etmək. | 1 2 3 4 5 |

Şagirdin adı və soyadı__________Oxuduğu sinif___

| **VI-VIII siniflər** | **TƏRBİYƏLİLİK GÖSTƏRİCİLƏRİ** | **bal** |
|---|---|---|
| vətənpərvərlik | Vətən tarixini bilmək, ölkədə baş verən əsas hadisələrdən xəbər tutmaq. Vətənin dahi adamlarını, mili qəhrəmanlarını tanımaq və onlara görə qürur hissi keçirmək. Milli bayram və tarixi günləri bilmək, adət-ənənlərə hörmətlə yanaşmaq, onlara əməl etmək. Vətən təbiətini sevmək və ona qaygı ilə yanaşmaq. | 1 2 3 4 5 |
| kollektivçilik | sinif kollektivinin bütün işlərində yaxından iştirak etmək; yoldaşlarına təmənnasız kömək etmək istəyi,kollektivin qərarlarına sözsüz tabe olmaq; sinif yoldaşlarına tələbkarlıqla yanaşmaq; şəxsi maraqla ictimai marağı uzlaşdıra bilmək; qızlar və oglanlar arasında yoldaşlıq münasibətləri qura bilmək. | 1 2 3 4 5 |
| humanizm | ətrafdakılara xeyirxah münasibət bəsləmək; yaşlılara və balacalara hörmətlə yanaşmaq; köməyə ehtiyacı olanlarakömək etmək; bütün canlılara qayğıkeş münasibət göstərmək. | 1 2 3 4 5 |

| | | |
|---|---|---|
| düzgünlük | səmimilik; verilən vədləri yerinə yetirmək; başqalarının əşyalarını icazəsiz götürməmək adəti; yalana, oğurluğa qarşı kəskin münasibət. | 1 2 3 4 5 |
| əməksevərlik | yaxşı oxumaq; həmişə faydalı işlərlə məşgul olmaq; işdən, zəhmət çəkməkdən qorxmamaq, çəkinməmək; əmək fəaliyyətinin yüksək olması; ev işlərindəyaxından iştirak etmək; gələcək peşənin seçilməsinə səy göstərmək. | 1 2 3 4 5 |
| intizamlılıq | həmişə və hər yerdə davranış qaydalarına riayət etmək; böyüklərin tapşırıqlarını eşitmək və yerinə yetirmək; sinf kollektivin tələblərinə əməl etmək; sinifinən"nümunəvi şagirdi" adını qazanmaq. | 1 2 3 4 5 |
| fəallıq | dərslərdə müntəzəm və fəal iştirak etmək; verilmiş cavablara əlavələr etmək; məktəbin, sinfin ictimai həyatında könüllü olaraq iştirak etmək; təşəbbüsakar olmaq; sinifdə və sinfdənkənar mühitdə baş vermiş çatışmazlıqlara barışmaz münasibət. | 1 2 3 4 5 |
| cəsarət | qorxu hissini uzaqlaşdıra bilmək; özünü riskə ataraq başqalarına yardım etmək; yoldaşının nöqsanını açıq tənqid etmək; fikrini müdafiə edə bilmək; haqsızlığa qarşı mübarizə aparmaq. | 1 2 3 4 5 |
| iradi güc | istəmədiyin lakin, lazımlı olan bir işin icrasına özünü məcbur etmək; başladığın işi axıra çatdırmaq adəti; məqsədə çatmaq üçün təkidlə işləyə bilmək; çətinliyi aradan qaldırmağa cəhd göstərmək; özünütərbiyə yolu ilə nəzərə çarpan dəyişiklərin olması. | 1 2 3 4 5 |

| | | |
|---|---|---|
| özünütənqid | yoldaşın və yaşlıların tənqidinə qulaq asmaq adəti; öz səhvlərini başa düşmək; öz əməyinin nəticisinə tənqidi münasibət bəsləmək; mövcud olan çatışmazlıqdan islah olunmaq istəyi; özünəkənardan baxmaq bacarığı; refleksiya hissinə malik olmaq. | 1<br>2<br>3<br>4<br>5 |
| ciddilik | ətrafındakılardan davranış və geyimə görə çox da fərqlənməmək istəyi; həmişə sadə görünməyə cəhd; yersiz zarafat və gülüşdən, eləcə də özünü tərifləməkdən və lovğalanmaqdan uzaq olmaq; | 1<br>2<br>3<br>4<br>5 |
| hər şeylə maraqlanmaq | yaxşı oxumaq və dərslərdə fəal iştirak; müntəzəm olaraq KİV-ə, kitab, jurnal vəqəzet nüsxələri ilə tanış olmaq, internetdən istifadə etmək; lügət, ensklopediya oxumaq; özfəaliyyət dərnəklərində və idman oyunlarında fəal iştirak. | 1<br>2<br>3<br>4<br>5 |
| estetik inkişaf | səliqəli xarici görünüş, musiqi, rəsm, ədəbiyyat dərslərinə maraq; müntəzəm olaraq teatra, konsertə, muzeyə və sərgilərə getmək; mədəniyyət xadimləri barədə məlumatlı olmaq; müxtəlif ədəbi-bədii müsabiqələrdəiştiraketmək. | 1<br>2<br>3<br>4<br>5 |
| fiziki inkişaf | qamətini düzgün saxlamaq, yaxşı yerişə malik olmaq; hər gün yüngül səhər idmanını etməyə adət etmək; idman yarışlarda iştirak etmək; idman dərslərinə həvəs göstərmək və idmanınbir növü ilə məşğul olmaq. | 1<br>2<br>3<br>4<br>5 |

Şagirdin adı və soyadı__________Oxuduğu sinif___
Sinif rəhbəri_____________________________

| IX-XI siniflər | TƏRBİYƏLİLİK GÖSTƏRİCİLƏRİ | bal |
|---|---|---|
| vətənpərvərlik | ölkənin tarixini bilmək, son zamanlarda baş vermiş yeniliklərdən xəbərdar olmaq və onun gələcəyinə maraq. Ölkəsinə və ölkənin dahi şəxsiyyətlərinə görə qürur hissi keçirmək. Ümumilikdə cəmiyyət üçün lazımlı olan işlərdə iştirak etmək. Təbiətə qayğıkeş münasibət bəsləmək və Vətənin müdafiəsinə hazır olmaq. | 1<br>2<br>3<br>4<br>5 |
| beynəlmiləlçilik | başqaqa xalqların mədəniyyətinə maraq, beynəlxalq məzmunlu müsabiqələrdə iştirak etmək istəyi, başqa ölkələrin adət və ənənələrindən xəbərdar olmaq, onlara hörmətlə yanaşmaq. | 1<br>2<br>3<br>4<br>5 |
| kollektivçilik | kollektivinin bütün işlərində fəal iştirak etmək, bacardığı qədər yoldaşlarına kömək etmək istəyi, sinif və məktəb kollektivinin qərarlarına tabe olmaq, öz yoldaşlarına qarşı tələbkar münasibət, özünün və cəmiyyətin maraqlarını bir-birinə uyğunlaşdıra bilmək, öz kollektivinin şərəfi uğrunda mübarizə. | 1<br>2<br>3<br>4<br>5 |
| ədalətlilik | Səmimilik, kiçiklərə qayğıkeş münasibət. Böyüklərə hörmət. Köməyə ehtiyacı olanlara kömək etmək. Heyvanlara qarşı sevgi və qayğı dolu münasibət. Ədalətsiz hərəkətlərə qarşı bagışlanılmaz münasibət. | 1<br>2<br>3<br>4<br>5 |

| | | |
|---|---|---|
| düzgünlük | doğruçuluq; söz işi və əməlin birliyi. Öz hərəkətlərini və səhvlərini səmimiliklə etiraf edilməsi. | 1<br>2<br>3<br>4<br>5 |
| əməksevərlik | Dərslərini yaxşı oxumaq. Hər işi vaxtında etmək. Əmək göstəricisinin böyüklüyü. Ailənin məişət və təsərrüfat fəaliyyətində iştirak etmək. | 1<br>2<br>3<br>4<br>5 |
| tərbiyə | Hər zaman və hər yerdə özünüdavranış qaydalarına riayət etmək. Böyüklərin göstərişlərini tez və dəqiqliklə yerinə yetirmə. Kollektivdə "nümunəvi şagird" adı uğrunda mübarizə. | 1<br>2<br>3<br>4<br>5 |
| məsuliyyətlilik | Məsuliyyətində olanları mütləq yerinə yetirmək. Məsuliyyətində olanların çağırışına dərhal cavab vermək. Başladığı işi sona çatdırmaq adəti. Özünün və yoldaşlarının hərəkətlərinə görə cavab vermək. | 1<br>2<br>3<br>4<br>5 |
| prinsipiallıq | gücünə və potensialına güvənmək. Öz fikirlərini açıqcasına bildirmək və üstündə durmaq. Öz-özünü tənqid. Yoldaşlarının hərəkətlərini obyektiv qəbul etmək, verilən vədlərə əməl edilmədikdə onlara qarşı bagışlanılmaz münasibət. | 1<br>2<br>3<br>4<br>5 |
| məqsəd uğrunda mübarizə | Böyük məqsədlərin olması. Məqsədin üzərində durmaq və sonda ona çatmaq. Öz idealına inam. | 1<br>2<br>3<br>4<br>5 |
| fəallıq | Məktəbin və sinfin ümumi işlərində fəal iştirak. Təşkiledici bacarığın olması. Çatışmazlıqlara qarşı mübarizə. | 1<br>2<br>3<br>4 |

| | | |
|---|---|---|
| | | 5 |
| hər şeylə maraqlanmaq | Çox kitab oxumaq, geniş dünya görüşünün olması. Sistemli olaraq öz biliyini genişləndirməyə cəhd. Dərsləri çatdırmaq. | 1<br>2<br>3<br>4<br>5 |
| estetik inkişaf | Səliqəli xarici görünüş. Yüksək mədəniyyətli danışıq qabiliyyəti. Oxumağı və gözəl rəqs etməyi bacarmaq. Sistemli olaraq teatrlara, konsertlərə və müxtəlif sərgilərə getmək. Dahi mədəniyyət və incəsənət xadimlərini tanımaq. Gözəlliklər yaratmağa cəhd. | 1<br>2<br>3<br>4<br>5 |
| fiziki mədəniyyət | düz qamətli olmaq, hər gün idman etmək adəti, idman məşgələlərində müntəzəm iştirak, idman dərslərində də irəliləyiş. | 1<br>2<br>3<br>4<br>5 |

___sinif şagirdi__________ üçün tərtib olunmuş psixoloji pedaqoji xarakteristika



**Psixoloji-pedaqoji xarakteristikanın tərtibi___balla qiymətləndirilir**

**İmza: metodist psixoloq________________**

III BÖLMƏ

# SİNİF KOLLEKTİVİNİN PSİXOLOJİ-PEDAQOJİ TƏHLİLİ

## 3.1. Sinif kollektivinin psixoloji-pedaqoji xarakteristikasının tərtibi üçün təxmini sxem

**1. Sinif kollektivi haqqında ümumi məlumat.** Şagirdlərin ümumi sayı, oğlan və qızların ayrılıqda sayı, yaşı. Sinif nə vaxt formalaşdırılıb?, başqa siniflə qarışdırılbmı?, təkrar sinifdə qalan şagirdlərin sayı, sinifə yeni gələn və gedən (hansı sinifdən, məktəbdən, hansı sinifə, məktəbə; yerdəyişmənin səbəbi) şagirdlərin olması.



**2. Sinif kollektivinin aid olduğu yaş dövrünün psixologiyası haqqında yığcam məlumat verin.** Kiçik məktəbli, yeniyetməlik və böyük məktəbli yaşının psixoloji xüsusiyyətləri.

**3. Sinif kollektivində qarşılıqlı münasibətlər.**

a) Sinifin əsas fəalları. Sinif nümayəndəsi və onun işi. Sinif nümayəndəsinin təşəbbüskarlığı, müstəqilliyi, təkidliliyi, onun özünə və başqalarına qarşı tələbkarlığı, təşkilatçılıq qabiliyyəti, sinif yoldaşalrına qayğısı, ictimai rəyə münasibəti, şəxsiyyətlərarası münasibətlər (şaquli və üfiqi münasibətlər) sistemində yeri; sinif kollektivində sinif nümayəndəsinin nüfuzu və sinif kollektivinə təsir imkanı. Sinif nümayəndəsinin əlaçılar, yaxşı oxuyan, zəif oxuyan və təlimdə geri qalan şagirdlərlə qarşılıqlı münasibəti. Sinif nümayəndəsinin liderlik qabiliyyəti. Sinif nümayəndəsi ilə lider arasında qarşılıqlı münasibətlər.

b) kollektivdə qeyri-rəsmi "başçıların" olması və onların sinifə təsiri, bu təsirin səbəbi, sinif fəallarının "başçılara" münasibəti; sinif kollektivində liderin olması, onun nüfuzu və sinif kollektivinə təsir imkanı. Sinif kollektivinin sosiometrikqurluşu: ulduzlar, fəallar, passivlər, təcrid olunanlar. Kollektivdə "təcrid olunmuş" şagirdlər və bunun əmələgəlmə səbəbi, yoldaşların onlara olan münasibətində dəyişikliklərin mümkün yolları; "ulduzların" yaranma səbəbi.

v) sinif kollektivində qarşılıqlı münasibətlər: kollektivdə birlik və həmrəylik hissi, kiçik qruplaşmaların mövcudluğu və onun əmələ gəlmə səbəbi, kiçik qruplaşmaların sinifin ümumi məqsədi uğurunda çalışması, qarşılıqlı hörmət, kömək və tələbkarlığın olması; kollektivdə tənqid və özünütənqid, oğlanlar və qızlar arasında qarşılıqlı münasibət; kollektivin ayrı-ayrı üzvləri arasında yoldaşlıq və dostluq münasibətləri, sinif kollektivinin ayrı-ayrı üzvlərinin qrupda emosional tələbatının ödənilib-ödənilməməsi; kollektivdə rəsmi və qeyri-rəsmi münasibətlər, onların qarşılıqlı təsiri; şagirdlər arasında yoldaşlıq və dostluq əlaqələri;



q) sinif kollektivinin sinifdənxaric və məktəbdənkənar həyatı; sosial və siyasi həyatda baş verən hadisələrə, musiqi, idman və ədəbiyyata marağı və bu marağın təzahür formaları (teatra, konsertə, muzeyə, gəzintiyə birlikdə getmək, şənliklərdə iştirak etmək, elm adamları, ictimai xadimlər, keçmiş döyüşçülər və görkəmli idmançılarla görüşmək, internet-sosial şəbəkədə dostluq etmək və s.); kollektivin məktəbin ictimai həyatında, rayon və şəhər səviyyəsində keçrilən bilik və idman yarışlarında, bayram tədbirlərində iştirakı. Sinif kollektivində mövcud olan ənənələr: ad günlərini, müxtəlif bayramları birlikdə keçirmək, başqa məktəb uşaqları ilə dostluq etmək, tətil günlərində birgə istirahət, eyni ixtisasa, peşəyə, idman növünə hazırlıq və s.

d) sinifdə dərs deyən fənn müəllimlərinin şagirdlər arasında nüfuz və hörməti, eləcə də onların şagird kollektivinə təsiri, sinif kollektivinin müəllimlərə münasibəti, müəllimlərin ümumi təhsil səviyyəsi, mədəniyyəti, təşkilatçılıq qabiliyyəti, məktəbli psixologiyasını bilmə səviyyəsi, şagirdlərin maraq və tələbatını bilmək bacarığı. Sinif kollektivində yüksək sosiometrik nüfuza malik olan müəllimlər, onların kollektivə təsiri. Sinif kollektivində müəllimlərin ünsiyyət və rəhbərlik üslubu. Sinifdə daha çox dərsi olan müəllimlər, şagirdlərə daha çox təsir göstərmək imkanı olan müəllimlər, şagirdlərlə daha çox ünsiyyətdə olan müəllimlər, öz fənnini sevdirə bilənlər və s.

**4. Sinif kollektivinin təlim fəaliyyətinin məzmunu və xarakteri.** Sinif kollektivinin mənimsəmə və intizamının ümumi xarakteristikası, sinif kollektivinin yaxşı oxumaq uğurunda səyi, ayrı-ayrı şagirdlərin yaxşı oxuması üzərində sinif rəhbəri, sinif fəalları və bütün kollektivin nəzarəti, onlara qarşı tələbkarlığı, qarşılıqlı köməyi, onun forma və təşkili; təlim fəaliyyətində sinif intizamı (dərsdə və ev tapşırıqlarını yerinə yetirərkən); təlim prosesində, dərs vaxtı xoşagəlməz hallar (şparqalka, yerindən demək, köçürmə, tədris ləvazimatının olmaması və s.).Təlimdə geridə qalan şagirdlər və bunun ümumi psixoloji səbəbləri. Sinif əlaçıları, onların nüfuzu, sinifdə rolu və kollektivə təsiri; dərs əlaçılarının zəif oxuyanlara köməyi; şagirdlərin daha çox maraq göstərdiyi və laqeyd münasibət bəslədikləri fənlər. Təlim fəaliyyətində üstünlük təşkil edən motivlər.



**5. Sinif rəhbəri haqqında ümumi məlumat.** Sinif rəhbərinin ixtisası, yaşı, cinsi, ümumi pedaqoji iş təcrübəsi, hazırkı sinifə rəhbərlik etdiyi müddət, sinifin əvvəlki rəhbəri, sinif rəhbəri dəyişdirilibmi? Sinif rəhbərinin ümumi təhsil səviyyəsi, təşkilatçılıq qabiliyyəti, məktəbli psixologiyasını bilmə səviyyəsi, şagirdlərin maraq və tələbatını biləmk bacarığı. Sinif rəhbərinin sinif kollektivinə rəhbərlik və ünsiyyət üslubu, sinif rəhbərinin nüfuzu və kollektivə qayğısı, şagirdlərin ona münasibəti, onun rəsmi və ya qeyri-rəsmi lider olması,sinif kollektivi ilə ünsiyyət qurmaq, təsir göstərmək bacarığı, şa-

girdlərə fərdi yanaşmağı bacarması və iş, vəzifə, tapşırıq bölgüsündə bunu nəzərə ala bilməsi və s.

**6**. Sinif kollektivinin şagirdə və şagirdin də kollektivə göstərdiyi psixoloji təsiri konkret nümunələr əsasında təhlil etmək.

**7.** Ümumi nəticə. Kollektivin inkişaf səviyyəsi. Kollektivdə ümumi psixoloji mühitin xarakteri (xoş və gümrah, şən, həyatsevər, qapalı, gərgin-əsəbi). Nizam-intizam səviyyəsi. Sinif kollektivinin həyatının təşkilində olan çatışmazlıqlar, şagird-şagird, müəllim-şagird münasibətlərində olan münaqişələrin müəyyən edilməsi və aradan qaldırılması yolları.

**8.** Təcrübəçi tələbənin sinif kollektivinin gələcək tərbiyəsi ilə bağlı tövsiyə etdiyi konkret təkliflər.

## 3.2. Sinif kollektivinin öyrənilməsi ilə bağlı metodik məsləhət



Kollektiv öyrənilərkən əsasən ona tərbiyəvi təsir imkanı baxımdan yanaşılmalıdır. Bu isə əsasən kollektiv həyat və fəaliyyətin məzmun və xarakterindən asılıdır. Ən əsas cəhət sinif kollektivinin təlimə olan münasibəti ilə bağlıdır: şagirdlər öz tədris borclarına vicdanlamı yanaşırlar, hansı fənlərlə və necə maraqlanırlar. Təlimə olan dərin maraq yalnız sinifin yaxşı oxuması ilə deyil, həmçinin fənlər üzrə dərnəklərdə, olimpiadalarda, müsabiqələrdə, müvafiq fənlərlə bağlı ədəbiyyatlara və internet saytlarına göstərilən maraqda da əks olunur.

Xüsusi fikir vermək lazımdır ki, təlim fəaliyyəti sinif kollektivini nə dərəcədə birləşdirir, sinifdə qarşılıqlı kömək mövcuddurmu, şagirdlər sinif yoldaşlarının müvəffəqiyyət və uğursuzluğuna şərik olurlarmı, yaxşı oxumağa çalışırlarmı? Kollektiv həyatın xarakteri həm də dərsdənkənar vaxt və məşğuliyyətdə də təzahür edir. Ona görə təcrübəçi tələbə müəyyən etməlidir ki, şagird məktəb üçün əhəmiyyət kəsb edən ictimai işlərdə nə dərəcədə həvəslə iştirak edir, onda kollektivçilik hissini inkişaf etdirən qarşılıqlı kömək, əməkdaşlıq hissi baş qaldırırmı?

Diqqət yetirilməli olan cəhətlərdən biri şəxsiyyətlərarası münasibətlərlə bağlıdır. Belə ki, sinifdə mövcud şəxsiyyətlər-

arası münasibətlərin sistemi əsasən kollektivin şəxsiyyətə təsir dərəcəsi ilə ölçülür. Nəticədə şagirdin hansı əhvalda olması, sinifdəki psixoloji iqlim şəxsiyyətlərarası münasibətlərlə şərtlənir. Şagirdlər arasında münasibətlər işgüzar və şəxsi olmaqla iki istiqamətdə cərəyan edir. İşgüzar münasibətlər kollektiv üzvlərinin ictimai vəzifəsi ilə şərtlənir və burada bir nəfər digərindən bu və ya başqa işi icra etməyi tələb edə bilər. Belə olan halda uşaqların qarşılıqlı münasibəti etinasız olmur. Birinə rəğbətlə yanaşdıqları halda, digərinə laqeydlik göstərirlər. Bu cür qeyri-formal münasibətlər kollektiv daxilindəki qarşılıqlı münasibətlərə güclü təsir göstərir.

Məlumdur ki, hər bir qrupun həm rəsmi, həm də qeyri-rəsmi strukturu olur. Bu mənada şagird kollektivində qarşılıqlı münasibətlər rəsmi və qeyri-rəsmi yolla tənzimlənir. Sinif kollektivinin rəsmi strukturu ilə qeyri rəsmi strukturu bir-birini üzvi şəkildə tamamlayır və bir-birilə ahəngdar surətdə uzlaşır. Həmin münasibətlər uzlaşmadıqda qrupda müxtəlif məzmunlu münaqişələr meydana çıxır. Rəsmi münasibətərin qeyri-rəsmi münasibətlərin uyğun gəldiyi şərait qrupun inkişafı üçün psixoloji cəhətdən əlverişlidir. Yox, əgər rəsmi münasibətlər qeyri-rəsmi münasibətlərə uyğun şəkildə qurulursa, onda qrupun inkişafı üçün əlverişsiz psixoloji mühit yaranır. Ona görə də sinif kollektivini öyrənərkən bu məsələyə fikir vermək zəruridir. Hər bir şagirdin sinif kollektivi daxilində daxil olduğu, yaxından ünsiyyət qurduğu, müəyyən rol oynadığı mikroqrup mövcuddur. Bu qrupa referent qrup deyilir. Əgər referent qrupun sərvət dəyərləri, davranış normaları sinif kollektivinin ümumi mənafəyinə ziddirsə, onda kollektivin tərbiyəvi təsir imkanı zəif olur.

Elə də olur ki, sinif kollektivinin rəsmi strukturu real surətdə mövcud olan şəxsiyyətlərarası münasibətlərə uyğun gəlmir. Fəallar heç də həmişə sinif kollektivinin nüfuzlu üzvləri olmur. Bəzən şagird kollektivinin nüfuzlu şagirdləri heç bir rəsmi statusu olmayan və hətta şagirdlərə neqativ təsir göstərən məktəblilər olur. Ona görə də uşaqlar arasında mövcud olan qarşılıqlı münasibətlərdən müəllimin məlumatlı olması, sinifdəki liderləri, ya da təcrid olunmuş şagirdləri tanımalıdır

ki, şagird kollektivini səmərəli şəkildə idarə etsin və onları şəxsiyyət kimi formalaşdıra bilsin.

Sinif kollektivinin öyrənilməsi və şəxsiyyətlərarası münasibətləri tədqiq etmək üçün aşağıdakı metodikalardan istifadə etmək tövsiyə olunur.

## 3.3. Sinif kollektivinin öyrənilməsi üçün psixoloji test və metodikalar

### R.Beyls metodikası

| AKTİV ƏMƏLLƏR | | | | | | sinif | PASSİV ƏMƏLLƏR | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Şəraiti sakitləşdirir | Yol göstərir | Suallara cavabverir | İnformasiya verir | İzah edir | Kömək etmək istəyir | Şagirdlərin adı | Kömək istəyir | Nəyi isə aydınlaşdırmağı xahiş edir | İnformasiyavermәyi xahiş edir | Suallara cavab verməyi xahiş edir | Yol göstərməyi xahiş edir | Şəraiti kəskinləşdirir |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |

**Qeyd:** R.Beyls metodikası ilə şagirdlərin hər birində fərdi qaydada aktiv yaxud passiv əməllərdən hansının üstünlük təşkil etdiyini müəyyən etmək olar. Əldə olunan nəticələrə əsasən müvafiq istiqamətdə tərbiyə işləri aparmaq olar. Yaxud sinifdə istər təlim, istərsə də başqa işlərlə bağlı sagird kollektivinin fəaliyyətinin səmərəli olması üçün şagirdləri qruplaşdırarkən həmin göstəriciləri nəzərə almaq olar.

## Sinifdəki psixoloji birlik və mühitin müəyyən edilməsi

Təklif edilən fikirlər sinif kollektivinin sosial-psixoloji xüsusiyyətlərini öyrənilməsi üçün nəzərdə tutulmuşdur. Müşahidə etməklə, sinif müəllimlərindən və sinif rəhbərindən eləcə də şagirlərdən soruşmaq yolu ilə sinifdəki psixoloji birlik və psixoloji mühit haqqında məlumat əldə etmək olar. Hər bir şkalada bir-birinə zidd olan göstəricilər verimişdir və təzahür etmə dərəcəsindən asılı olaraq fikirlər ən çoxu 5, ən azı isə 1 balla qiymətləndirilir.

### Sinifin psixoloji birliyi

| Müsbət aktivlik göstəriciləri | Qiymətlər (ballarla) | | | | | Mənfi aktivlik göstəriciləri |
|---|---|---|---|---|---|---|
| | 5 | 4 | 3 | 2 | 1 | |
| Sinif, öz təşkilatçılarının imkanları haqqında dəqiq və yekdil fikrə malikdir | | | | | | Sinif, öz təşkilatçılarının imkanları haqqında yekdil fikrə malik deyil. Sinifdə təşkilatçılar haqqında zidd fikirlər var |
| Sinifin bütün şagirdləri öz yoldaşlarının fikrlərini eşidirlər | | | | | | Sinif şagirdləri öz yoldaşlarının fikrlərini eşitmirlər və fikirlər ziddiyyətlidir |
| Şagirdlər siniflə bağlı bütün məlumatlara onun vəzifəsi, sinifdaxili qruplar, məktəbdəki nüfuzu və s. bağlı məlumatlıdırlar | | | | | | Şagirdlər siniflə bağlı qarşıda duran vəzifələri, qrupdaxili münasibətləri,eləcə də məktəbin başqa sinifləri arasında yeri, |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | | | sinif fəaliyyətinin nəticələri, məktəbdəki nüfuzu və s. bağlı məlumata malik deyil |
| Şagirdlər, siniflə bağlı olan aktual məsələlərin həllində asanlıqla ümumi dil tapa bilirlər | | | | | | Siniflə bağlıümumi məsələlərin həllində şagirdlər arasında qarşılıqlı anlaşma yoxdur |
| Sinif dəyişkən həyat şəraitində müvəqqəti vəziyyəti tez qiymətləndirə bilir və yeni ictimai fikir yarada bilir | | | | | | Sinif, istər sinif kollektivi, istərsə də onun ayrı-ayrı üzvləri ilə bağlı məsələnin müzakirəsində bir fikrə gələ bilmirlər |
| Sinif ətrafda baş verən hadisələri qiymətləndirərkən davamlı olaraq vahid fikrə gələ bilir | | | | | | Ətrafda baş verən hadisələri və faktları səhv və ziddiyyətli qiymətləndirmək sinif üçün səciyyəvi xüsusiyyətdir |
| Sinif özünün imkanları, üstünlükləri və çatışmazlıqları haqqında dəqiq və vahid fikrə malikdir | | | | | | Sinif, özünün imkanları, üstünlüklərivə çatışmazlıqları haqqındadüzgün fikrə malik deyil |
| Sinif, məktəbin digər sinifləri arasında öz yerini düzgün qiymətləndirir | | | | | | Sinif, məktəbin digər sinifləri arasında öz yerini səhv və ziddiyyətli qiymətləndirir |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Kollektiv üzvlərinin tənqidi qeydləri rəğbətlə qaşılanır və yeni vahid fikrin yaranmasına səbəb olur | | | | | | Kollektiv üzvlərinin etdiyi tənqidi qeydlər qəzəblə qaşılanır və fikir ayrılığına səbəb olur |
| Başqalarının sinif haqqında söylədiyi tənqidi fikirlər rəğbətlə qarşılanır və nöqsanların aradan qaldırılmasına cəhd yaradır | | | | | | Sinif haqqında başqalarının söylədiyi tənqidi fikirləracıqla qarşılanır və nöqsanların aradan qaldırılmasına cəhd yaratmır |

## Sinifdəki psixoloji mühit



| Müsbət aktivlik göstəriciləri | Qiymətlər (ballarla) | | | | | Mənfi aktivlik göstəriciləri |
|---|---|---|---|---|---|---|
| | 5 | 4 | 3 | 2 | 1 | |
| Sinif nikbin əhval-ruhiyyədədir | | | | | | Sinifdə bədbin əhval-ruhiyyə hökm sürür |
| Sinifdə şagirdlər arasında xoş münasibət və qarşılıqlı hörmət hissi müşahidə olur | | | | | | Şagirdlər arasında münaqişəyə, bir-birini bəyənməmə hallarına tez-tez rast gəlinir |
| Sinif kolektivi baş vermiş hadisələri, olub keçənləri birlikdə yaşayırlar | | | | | | Sinifdə təcridolunma var və kollektiv şəkildə təsirlənmə müşahidə olunmur |
| Sinifin uğur və uğursuzluğu bütün şagird kollektivinə təsir göstərir | | | | | | Sinifin uğur və uğursuzluğuna şagird kollektivi etinasızdır |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Şagird yoldaşının uğur və uğursuzluğuna səmimi olaraq qoşulurlar. Tənqid və iradlar xeyirxah məqsədlə edilir | | | | | | Şagird yoldaşının uğuruna paxıllıq edir,uğursuzluğuna isə sevinirlər. Tənqid və iradlar, təhqir və aşağalamaq məqsədilə edilir |
| Çətin vəziyyətə düşdükdə sinifdə emosional birlik yaranır, hamı səfərbər olur | | | | | | Çətin vəziyyətə düşdükdə sinif özünü itirir, mübahisə başlayır şagirdlər birbirini günahlandırırlar |
| Məktəb rəhbərliyi tərəfindən sinifin ünvanına deyilən irad hamı tərəfindən yaşanılır və iradı aradan qaldırmaq üçün kollektivi daha da birləşdirir | | | | | | Məktəb rəhbərliyi tərəfindən sinifin ünvanına deyilən irad, kollektivi məyus edir və onun birliyi zəiflədir |
| Sinifdəki qeyri-formal qruplar arasında (marağa görə, dostluğa görə və s.) qarşılıqlı hörmət və inam var | | | | | | Qeyri formal qruplar öz aralarında münaqişə edir, birbirinə pis münasibət bəsləyirlər |
| Çətin şəraitdə özünü göstərən emosional "partlayışlar" (ümumi narazılıq, hiddətlənmək) sinif tərəfindən tənzim olunur və onun davranış və fəaliyyətinin keyfiyyətini pozmur | | | | | | Baş vermiş olan kəskin emosional vəziyyətlər sinifi nəzarətdən çıxarır, onun davranış və fəaliyyətini pozur |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Şagirdlərin birlikdə olmaqdan xoşları gəlir və tez-tez birgə çalışmaq istəyirlər | | | | | | Şagirdlər birlikdə olmağa səy göstərmir və birgə fəaliyyətə neqativ münasibət bəsləyirlər |

Hər bir şkala üzrə nəticələri təhlil edərkən kollektivin öyrənilən xüsusiyyətinin ifadəsinin orta səviyyəsi götürülür. Bundan ötrü hər bir şkala üzrə toplanmış balların ədədi ortası hesablanır. Yəni, toplanmış olan ümumi bal sualların sayına bölünür.

## Sosiometrik sorğu

**Ad və familiya______________________Sinif___**
**Tarix________**

1.Kim ilə bir parta arxasında oturmaq istərdin?
1-ci_________
2-ci_________
3-cü _________

2.Kim ilə bir parta arxasında oturmaq istəməzdin?
1-ci_________
2-ci_________
3-cü _________

2.Sinif yoldaşlarından kimi ad günündə evinizə dəvət edərdin?



1-ci_________
2-ci_________
3-cü _________

2.Sinif yoldaşlarından kiminlə gəzməyə getməzdin?
1-ci_________
2-ci_________
3-cü _________

3. Kim ilə məktəbyanı sahədə işləməyə gedərdin?
1-ci_________
2-ci_________
3-cü _________

Kim ilə məktəbyanı sahədə işləmək istəməzdin?
1-ci_________
2-ci_________
3-cü _________

5. Sənə sinif yaratmaq təklif etsələrkimi ora daxil edərdin?

1-ci________

2-ci________

3-cü ________

5. Sənə sinif yaratmaq təklif etsələr kimi ora daxil etməzdin?

1-ci________

2-ci________

3-cü ________

Sinif yoldaşalrından kimlər səni: 1) bir parta arxasında oturmağa; 2) ad gününə dəvət etməyə; 3) gəzməyə getməyə; 4) birlikdə işləməyə; 5) sinif yoldaşı olmağa seçərdilər?

Sinif yoldaşalrından kimlər isə səni: 1) bir parta arxasında oturmağa; 2) ad gününə dəvət etməyə; 3) gəzməyə getməyə; 4) birlikdə işləməyə; 5) sinif yoldaşı olmağa seçməzdilər?

| | Şagirdin adı və soyadı | Seçilmiş və imtina edilmiş şagirdlər | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| 1 | Nurlan | | | | | | | | | | |
| 2 | Tərlan | | | | | | | | | | |
| 3 | Alı | | | | | | | | | | |
| 4 | Şəbnəm | | | | | | | | | | |
| 5 | Nuray | | | | | | | | | | |
| 6 | Səid | | | | | | | | | | |
| 7 | Fərid | | | | | | | | | | |
| 8 | Gülnar | | | | | | | | | | |
| 9 | İslam | | | | | | | | | | |
| 10 | Abdulla | | | | | | | | | | |
| Seçimlərin ümumi sayı | | | | | | | | | | | |
| I | | | | | | | | | | | |
| II | | | | | | | | | | | |
| III | | | | | | | | | | | |
| İmtina edilmiş | | | | | | | | | | | |
| Qarşılıqlı seçimlər | | | | | | | | | | | |

## “Oxuduğum sinif haqqında fikrim” anketi

Məqsəd, şagirdin oxuduğu sinifdən razılıq dərəcəsinin müəyyənləşdirməkdir.

Təlimat: aşağıdakı fikirləri oxuyun və hər bir cümlənin qarşısında razılıq dərəcəsindən asılı olaraq müvafiq rəqəmlərdən birini yazın.

*- 4 – tam razıyam;*
*- 3 – razıyam;*
*- 2 – demək çətindir;*
*- 1 – razı deyiləm;*
*- 0 – qətiyyən razı deyiləm.*

1. Məktəbə həvəslə gedirəm.
2. Adətən sinifdə əhvalım yaxşı olur, özümü əla hiss edirəm.
3. Sinif rəhbərimiz yaxşı insandır.
4. Məsləhət və kömək üçün müəllimlərimizə müraciət etmək olar.
5. Mənin sevimli müəllimim var.
6. Mənim çox sevdiyim fənn var.
7. Mən həmişə sinifdə sərbəst şəkildə öz fikrimi deyə bilirəm.
8. Hesab edirəm ki, sinifimizdə və məktəbimizdə inkişaf etməyim üçün hər cür şərait var.
9. Hesab edirəm ki, məktəb məni müstəqil həyata hazırlayır.
10. Yay tətillərində sinif yoldaşlarımdan ötrü darıxıram.



## Nəticələrin təhlili:

Alınmış ballar toplanılır. Şagird nə qədər çox bal yığarsa, deməli sinif və məktəb həyatından bir o qədər razıdır.

## «Mənim yaşadığım bina»

Şagirdlərə kağız üzərində çoxmərtəbəli bina çəkmək və oradakı evləri özünə yaxın bildiyi insanlara paylamaq təklif

edilir. Şagird, həmin binaya sakin kimi sinif yoldaşları, dostları, valideynləri, qohumları, müəllimlərindən istədiyi şəxsi seçə və istədiyi mərtəbədə yerləşdirə bilər.

Bu rəsm testi vasitəsilə şagirdin birgəyaşayış meyarını onun sinif, məktəb və məhəllə yoldaşlarına, eləcə də valideyn, qohum və müəllimləri ilə olan münasibətini öyrənmək olar.

Başqa bir variantda şagirdlərə həyət evlərindən ibarət olan məhəllə şəkli çəkib eyni qayda ilə tapşırığı yerinə yetirmək də təklif etmək olar. Tapşırığı təhlil edərəkən diqqət yetirilməsi vacib olan məsələ şagirdin kimləri hansı evdə sakin kimi görmək istəməsidir.

## Bu kimdir?

Verilmiş cümlələrdə müxtəlif şagird tipləri təsvir edilmişdir. Şagirdlərdən oxuduqları sinifdə həmin təsvirə uyğun gələn şagirdlərin adlarını cümlənin sonunda yazmaları xahiş olunur. Verilmiş təsvirlər şagirdləri həm müsbət, həm də arzu olunmayan tərəfdən əks etdirir. Hər cümlənin sonunda təsvirə uyğun gələn bir və ya bir neçə şagirdin adını yazmaq olar. Əgər təsvir şagirdin özünə uyğundursa onda o, "özüm" yaza bilər.



Təcrübəçi tələbə, şagird-müəllim, şagird-valideyn münasibətilə bağlı məlumat əldə etmək istəyirsə məqsədinə uyğun sualları dəyişdirə bilər. Məsələn, dərsi səbirsizliklə gözlənilən; şagirdlərə şəxsiyyət kimi yanaşmayan; hədə-qorxu ilə dərs keçən; şagirdlərə övlad münasibəti göstərən; həmişə dərsə gecikən; onun dərsi olanda şagirdlərin gözü gülən; yaxud mənə evdə ən çox qayğı göstərən, pis qiymət aldıqda çox qorxduğum, o, evdə olmayanda darıxdığım; və s. kimi təsvirlərdən istifadə etmək olar.

Metodikanın köməyi ilə sinif kollektiv, eləcə də ayrı-ayrı şagird üçün səciyyəvi olan psixoloji xüsusiyyət haqqında məlumat əldə etmək olar.

1. Sinifdə sakit otura bilməyən, daima hərəkət edən. Bu kimdir?
2. Sakit oturub dərsləri ilə maraqlanan və çalışan. Bu kimdir?
3. Dərs çalışmalarını yerinə yetirərkən kömək gözləyən. Bu kimdir?
4. O, dərsə gəlməyəndə sinifdə bir boşluq olur. Bu kimdir?
5. Dərsdə nə isə edərək müəllimi narahat edən. Bu kimdir?
6. Kitabsız, dəftərsiz, qələmsiz məktəbə gələn. Bu kimdir?
7. Bir sözü ilə şagirdlərə təsir göstərən. Bu kimdir?
8. Sinifdə hamının hörmətlə yanaşdığı. Bu kimdir?
9. Sinif yoldaşlarına həmişə kömək edən. Bu kimdir?
10. Öz bildiyini heç kiminlə bölüşməyən. Bu kimdir?
11. Bütün müəllimlərin hörmətini qazanan. Bu kimdir?
12. Küçənin abı-havasını məktəbə gətirən. Bu kimdir?
13. Sinif şagirdlərinin hamısının hörmətlə yanaşdığı. Bu kimdir?
14. Sinifdə kənarda qalmağı xoşlayan, ünsiyyətə girməyən. Bu kimdir?
15. Müəllimlərin sevimlisi olan. Bu kimdir?
16. Sinifdə müəllimlərə kömək edən. Bu kimdir?
17. Sinifdə olması nizam-intizamı pozan. Bu kimdir?
18. Müəllimlərə özünü sevdirə bilən. Bu kimdir?
19. Həmişə dərsə gecikən. Bu kimdir?
20. Çox dostcanlı və çoxlu dostu/rəfiqəsi olan. Bu kimdir?
21. Daima güclünün yanında olan. Bu kimdir?
22. Cəsarətli, doğru danışanı müdafiə edən. Bu kimdir?
23. Doğru olanı müdaifə etməkdə acizlik göstərən. Bu kimdir?
24. Sinifin adını həmişə qoruyan və uca tutan. Bu kimdir?
25. Sinif yoldaşlarını həmişə və hər yerdə müdafiə edən. Bu kimdir?
26. Çoxunun xoşlamadığı və sinifdə olmasını istəmədiyi. Bu kimdir?

27. Hamının ünsiyyətə, dostluq etməyə can atdığı. Bu kimdir?
28. Hamının inandığı və etibar etdiyi. Bu kimdir?
29. Yaxşı oxuması və davranışı ilə hamıya nümunə ola bilən. Bu kimdir?
30. Pis oxuması və pis davranışı ilə oxuduğu sinifdə problemlər yaradan. Bu kimdir?

**Qeyd:** Alınmış cavabları aşağıdakı cədvəl üzrə təsnif etmək olar. Cədvəlin sol tərəfində şagirdləri adları, üst tərəfində isə təsvirləri ifadə edən rəqəmlər verilmişdir. Şagirdin adı ilə təsvirin kəsişdiyi xanaya təsvir olunan xüsusiyyətə uyğundursa kəsmə (/) işarəsi qoyulur, uyğun deyilsə heç bir işarə qoyulmur. Əgər təsvir olunan obraz şagirdin özünə uyğundursa onda həmin xanaya üstəgəl (+) işarəsi qoyur. Cədvəlin son iki sütununda isə şagirdin anılma və "özüm" sayının cəmi qeyd edilir.



**"Kimdir – bu" metodikası üzrə cavabların təsnif cədvəli**

| Şagirdlər | Təsvirlər | | | | | | | Anılma sayı | "Özüm" sayı |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | | |
| **A.Tərlan** | /// + | + | // | / | //// | + | // | 12 | 3 |
| **B.Vüsalə** | + | | /// | | ///+ | | | 6 | 2 |
| **D.Baxış** | // | + | | // | + | | | 4 | 2 |
| **M.Ömər** | | | + | | | | | 0 | 1 |

**____ sinif kollektivi üçün tərtib olunmuş sosial-psixoloji xarakteristika**



**Sinif kollektivi üçün tərtib olunan sosial-psixoloji xarakteristikası ___ balla qiymətləndirilir.**

**İmza: metodist psixoloq_______________**

IV BÖLMƏ

# DƏRSİN VƏ DƏRS CƏDVƏLİNİN PSİXOLOJİ–PEDAQOJİ TƏHLİLİ

***Dərsin psixoloji təhlili-müəllimin proyektiv-refleksiv bacarığıdır***

## 4.1. Müəllimin pedaqoji fəaliyyətində dərsin psixoloji təhlili



Müəllimin pedaqoji fəaliyyəti müxtəlif formalarda həyata keçirilir. Müəllim və şagirdlərin birgə təlim fəaliyyətinin ən əsas və geniş yayılmış ənənəvi forması dərsdir. Dərsin təhlilinə psixoloji, pedaqoji və metodiki ədəbiyyatlarda çoxlu tədqiqatlar həsr olunmuşdur. Məsələ ilı bağlı rus psixoloqlarından, N.F.Dobrının, L.T.Oxitina, N.S.Zimnyaya, Azərbaycan psixoloqlarından M.Ə. Həmzəyev və Ə.Ə.Əlizadənin adlarını çəkmək olar.

Dərsin psixoloji təhlili müəllimin pedaqoji fəaliyyətinin səmərəliliyini artırır və bu da ilk növbədə müəllimin proyektiv və refleksiv bacarığı ilə əlaqədardır. Əslində dərsin təhlili kompleks halında olan məsələdir və bu proses özündə psixoloji, pedaqoji, metodiki və fənn aspektlərini birləşdirir. Bu aspektlərdən hər hansı birinin, məsələn psixoloji təhlilin ayrıca götürülməsi şərti xarakter daşıyır və yalnız analitik planda mümkündür. Ümumiyyətlə, dərsin təhlili tədris prosesinin yaxşılaşdırılması üçün çox əhəmiyyətlidir. Hər şeydən əvvəl, dərsi keçən müəllim üçün, onun özünüinkişaf etdirməsi və ya özünüdərki üçün. Bu prosesdə, təhlil nəticəsində müəllim, öz fəaliyyətinə, yəni keçdiyi dərsə, kənardan baxa bilir, onu həm tam halında, həm də ayrı-ayrı komponentlərini qiymətləndirə və mənalandıra bilməsi üçün imkan yaranır. Dərsin psixoloji təhlili vasitəsilə müəllim öz nəzəri biliklərini təlim prosesində, siniflə qarşılıqlı ünsiyyətdə olarkən yoxlayır. Özünü, öz davranışının, biliyinin, güclü və zəif cəhətlərini mənalandırmaq, onu

görmək elə fənn-şəxsiyyət refleksiyası və müəllimin proyektiv-refleksiv qabiliyyətidir.

Dərsin psixoloji təhlilinin predmeti çoxşaxəlidir: buraya müəllimin psixoloji xüsusiyyətləri (onun şəxsiyyəti, konkret dərsdə fəaliyyəti), tədrisin öz qanunauyğunluqları; şagird şəxsiyyətinin və sinif kollektivinin psixoloji xüsusiyyətləri (müəyyən bilik, bacarıq və vərdişlərə yiyələnmə bacarığının formalaşması) daxildir. Konkret tədris fənni ilə bağlı olaraq müəllim-şagirdünsiyyətinin psixoloji xüsusiyyətləri də bura daxildir. Dərsin psixoloji təhlili müəllimdə analitik qabiliyyəti, proyektiv bacarığı, idrak və peşə marağını inkişaf etdirir, peşə motivasiyasını artırır, pedaqoji refleksiyanı gücləndirir, təlim-tərbiyə məsələlərinə aid psixoloji, pedaqoji və metodiki ədəbiyyatameyl oyadır və müstəqil öyrənməni gücləndirir. Çətin, mürəkkəb pedaqoji məsələrin psixoloji müşahidəsini aparmaq bacarığı, onları təhlil etmək, düzgün psixololi nəticələr çıxarmaq qabiliyyəti müəllimin peşəkar-pedaqoji ustalğını inkişaf etdirən vasitədir.



Dərsin psixoloji təhlili dedikdə nə nəsərdə tutulur? Bu suala cavb vermək üçün, ən əsas fikri əməliyyat prosesləri olan təhlil və tərkib proseslərinin mahiyyəti ilə tanış olaq. Təhlil-cismi, hadisəni fikrən hissələrinə ayırmağa, yəni tamın ayrı-ayrı əlamətlərinin, keyfiyyətlərinin, cəhətlərinin müəyyənləşdirilməsinə deyilir.Təhlil vasitəsilə, biz qavradığımız hadisənin təsadüfi, əhəmiyyətsiz əlaqələrini ayırd edə bilirik.Tərkib isə fikrən hissələrinə ayrılmış cismin, hadisənin fikrən birləşdirilməsindən ibarət olan fikri əməlyyat prosesidir. Təhilin formalrı müxtəlifdir. S.L.Rubinşteyn "tərkib vasitəsilə təhlil" aparmağı onun ən yaxşı forması hesab etmişdir.Təfəkkür prosesində obyekt hər dəfə yeni əlaqələrə qoşulur və yeni funksiyaları obyektdən ayırd edir. Məsələn, müəllim dərsdə müxtəlif cür əlaqələrə daxil olur; bir halda bütöv sinif kollektivi ilə, digər halda ayrı-ayrı şagirdlərlə, gah da tədris material ilə. Buna görə də müəllim öyrədəcəyi materialla bağlı müxtəlif rollarda çıxış edir. Bir halda müəllim (yeni material izah edən) və maraqlı tərəfdaş (kommunikativ şəraitin təşkilatçısı) başqa bir halda tədqiqatçı (problem qoyur və onu şagirdlərlə birlikdə

araşdırır) digər halda isə icraçı (şer oxuyur, rəsm çəkir, məsələ həll edir) funksiyasını yerinə yetirir. Dərsin təhlilində üç əsas ümumpsixoloji mövqey nəzər alınmalıdır: dərs inkişafetdirici, tərbiyəedici və təhsilverici olmalıdır. Uyğun olaraq dərs bu mövqeydən müzakirə olunmalıdır.Dərsin geniş planda təhlili ilə bağlı L.T.Oxitinannın fikirləri ilə tanış olaq:

1. Dərsi dərs xatirinə görə yox, şadird şəxsiyyətinə təsir göstərmək üçün, proqramda nəzərdə tutulan materiallardan istifadə etməklə onun intellektual, mənəvi, əxlaqi, iradi mədəniyyətini aşılamaq lazımdır. Lazımdır ki, intellekt vasitəsilə hisslərə (inandırmaq), hisslər vasitəsilə isə intellektə (təlqin) təsir göstərilsin. Təlim-tərbiyə prosesi şagirdin yalnız intellektual sahəsində deyil, bütövlükdə şəxsiyyətinin psixi inkişafında dəyişiklik etməlidir. Təlim o halda inkişafetdirici olar ki, o, şəxsiyyətin strukturunda dəyişiklik yarada bilsin.
2. Şəxsiyyətin strukturunda dəyişiklik o halda baş verir ki, şagird artıq daxili inamına uyğun hərəkət edir. Məcburi, zor gücünə öyrənmə (fəaliyyət), şərait dəyişən kimi aradan qalxır və öz səmərəsini itirir. Daxili inam, istək əsasında fəaliyyət isə şərait dəyişdikdə belə şəxsiyyətin strukturuna daxil olduğu üçün dəyişməz qalır. Ona görə də tənbəlliyə görə danlamaq, nəsihətçiliklə məşğul olmaq lazım deyil, idrak marağı oyatmaq üçün stimul vermək lazımdır, tapşırığı icra etmədiyinə görə cəzalandırmaq yox, şagirdlərin fəaliyyətini elə təşkil etmək lazımdır ki, müəllimin tələbləri uşaqların daxili istəyinə çevirilsin.
3. Hər bir dərsin mərkəzi komponenti-şagirdlərin idrak fəaliyyətinin təşkilidir. Təfəkkür və təxəyyül aparıcı idrak prosesləridir. Analitik- sintetik fəaliyyət əsasında, bu iki proses vasitəsilə intellektual bacarıqların və biliklərin formalaşması baş verir, mürəkkəb sualllar araşdırılır və məsələlər yaradıcılıqla həll olunur. Təfəkkür və təxəyyülün səmərəli fəaliyyəti şagirdlərin diqqət, qavrayış və hafizəsinin düzgün təşkilindən və müəyyən ustanovkanın yaradılmasından asılıdır.

4. Təlim fəaliyyətinin uğurlu olması yalnız xarici amillərdən-dərsin məzmunundan, metodların adekvatlıq dərəcəsindən, müəllimin pedaqoji qabiliyyətindən deyil, həm də daxili amillərdən o cümlədən şagirdin fərdi-psixoloji xüsusiyyətlərindən asılıdır.

Dərsin psixoloji təhlili haqqında danışanda onun üç əsas planını qeyd etmək olar.

**Birinci plana** görə psixoloji təhlil, tərbiyə prosesinə, şagird şəxsiyyətinin inkişafı, onun elmi dünyagörüşünün formalaşması, təlim prosesində mənəviyyat və əxlaqın aşlanması məsələsini əhatə edir.

**İkinci plan** dərsin metodik cəhəti ilə bağlıdır: onun məqsədinin əsaslandırması məzmunu və təşkiliməsələrini əhatə edir. Dərsin şagirdlərin hazırlıq səviyyəsinə və onların intellektual inkişafına uyğunluğu yoxlanılır. Dərs prosesində təlim materialının öyrənilməsinin psixoloji təbiəti, dərs zamanı şagirdlərin intellektual aktivlik səviyyəsi təhlili olunur. Burada həmçinin şagirdlərin yaş və fərdi xüsusiyyətlərinin təhlil olunur. 

Dərsin təhlilinin **üçüncü planı** iki ünvana yönəlir, birincisi, şagirdin idraki-kommunikativ tələbatı, onun formalaşması və inkişafı; nitq fəaliyyətinin xüsusiyyətləri, kommunikativ qabiliyyəti, fərdi-psixoloji xüsusiyyətləri və s. başqa sözlə desək, şagirdin təlim fəaliyyətinin subyekti kimi xüsusiyyətləri, onun şagirdlərlə və müəllimlə pedaqoji ünsiyyəti. Dərsin psixoloji təhlilinin ikinci ünvanı müəllimdir. Çünki, psixoloji təhlil həm də müəllimin pedaqoji fəaliyyətinin təkmilləşdirilməsi üçün müasir məktəb şəraitində yaxşıbir alət və ya vasitədir. Belə olan halda dərsin psixoloji təhlili refleksiya mexanizmi vasitəsilə gerçəkləşdirilir. ”Refleksiya” (latınca-geriyə müraciət etmək deməkdir)- ilk növbədə insanın özünü, öz daxili aləmini dərk etməsi, özünün fikir, hiss və əməllərini təhlil etməsi, başqa adamlara münasibətini görmək bacarığı, özü haqqında mühakimələri nəzərdə tutlur. Bundan başqa refleksiya həm də başqa adamların sənə necə münasibət bəsləmələrini, səni necə başa düşdüklərini dərk etmək deməkdir. Pedaqoji refleksiya anlayışı özündə yuxarıda göstərdiyimiz mənanı əks etdirir. Bu mənada pedaqoji refleksiya - müəllimin

pedaqoji fəaliyyət prosesində özünün fəaliyyətini və şagirdlərlə olan ünsiyyətini dərk etməsi, onu qiymətləndirə bilməsidir. Pedaqoji refleksiya müəllimin pedaqoji fəaliyyətin subyekti kimi özünüdərki və şagirdlərin tərbiyəsi və təlimi üçün sosial cavabdehliyi deməkdir. Dərsin psixoloji təhlili zamanı pedaqoji refleksiyanın əsas obyektini nə təşkil edir? Bu hər şeydən əvvəl pedaqoji fəaliyyətin motivi olmalıdır. Tədqiqatlar göstərir ki, müəllimlər pozitiv sosial motivlərlə yanaşı, kənar amillərin təsiri ilə şərtlənən motivlərin də təsirinə məruz qalırlar. Ona görə də "nəyin naminə bu fəaliyyətlə məşğul oluram?" sualı onun keyfiyyətini tənzim edə bilər. Digər əsas cəhət müəllimin öz fəaliyyətinin gedişinə və nəticəsinə bəslədiyi emosional münasibətlə bağlıdır. Başqa sözlə desək müəllimin öz fəaliyyətinin gedişi ilə bağlı keçirdiyi hisslər refleksiyaya təsir göstərə bilər. Məlumdur ki, fəaliyyət zamanı keçirdiyimiz pozitiv hisslər, fəaliyyətimizi gücləndirir, möhkəmləndirir, peşə motivasiyasını daha da artırır, neqativ emosional reaksiyalarımız isə əksinə onu iflic edir, fəaliyyətdən uzaqlaşdırır. Pedaqoji fəaliyyətin nəticələri refleksiya obyekti olanda, ilk növbədə müəllimin öz fəaliyyətinin zəif və güclü cəhətləri başa düşülür. Çox maraqlıdır ki, müəllimlər əksər hallarda özlərinin uğursuz dərslərini təhlil edirlər. Çox az müəllimə rast gəlinir ki, özlərinin uğurlu dərslərini refleksiya obyektinə çevirir və onun uğurlu olmasını şərtləndirən səbəbləri qeyd edirlər. Ona görə də pedaqoji ustalığın formalaşdırılması üçün müəllim həm uğurlu, həm də uğursuz dərslərinin hər ikisini refleksiya obyekti kimi götürməli, təhlil etməli və bu yola aparan səbəbləri müəyyən etməlidir.



## 4.2. Dərsin psixoloji təhlilinin təxmini sxemi (M.Ə.Həmzəyevə görə)

1. Dərsin mövzusu, həmin mövzuda aparılan dərslərin ümumi sistemində onun yeri.
2. Dərsin məqsədi və onun təlim-tərbiyəvi vəzifələri.

3. Dərsin təşkili. Şagirdlərin məşğələyə hazırlığı. Şagirdlərin təşkili (onların diqqətinin səfərbərliyə alınması, iş yerlərini hazırlamaq tələbi və s.). Sinif otağının dərsə hazırlığı.
4. Şagirdlərin bilik, bacarıq və vərdişlərinin məzmunu və yoxlanması metodikası. Bilik, bacarıq və vərdişlərin yoxlanmasının məqsədi və yeri. Yoxlama üsulu. Frontal və fərdi sorğu üçün verilmiş sualların, praktik tapşırıqların, müstəqil işin, ayrı-ayrı şagirdlərə verilən fərdi tapşırıqların məzmunu. Şagirdlərin cavablarının keyfiyyəti. Şagirdlərin cavablarındakı qüsurlara müəllimin münasibəti. Sinfin fəallığı. Şagirdlərin biliyinin yoxlanmasının yekunlaşdırılması. Şagirdlərin cavablarının qiymətləndirilməsi.
5. Yeni biliklərin məzmunu və öyrədilməsi metodikası. Mövzu və müəllimin təlim materialını şifahi şərhinin məzmunu. Müəllimin verdiyi biliklərin həcmi və sistemi, şərhi metodları. Şərh olunan materialın elmi və ideya istiqaməti, həyatla əlaqəsi, tərbiyəedici xarakteri. Şərhin sistemi və ardıcıllığı, obrazlılığı, şagirdlər üçün aydınlığı, əvvəl keçilənlərlə əlaqəsi.

Şagirdlərin müstəqil öyrəndikləri təlim materialının mövzusu və məqsədi. Şagirdlərin qarşısına problemli sualların, idraki məsələlərin qoyulması.

Şagirdlərin idrak fəaliyyətinin fəallaşdırılması, ayrı-ayrı məsələlər üzərində şagirdlərin marağının və diqqətinin cəmləşdirilməsi. Şagirdlərin yeni materialı qavramaq və anlamağa yaradıcı şəkildə cəlb olunması. Nümayiş etdirilən texniki və əyani vasitələrin rolu və yeri. Yazı taxtası və dəftərlərdən istifadə. Yeni materialın öyrədilməsi zamanı müstəqil işlərin rolu və yeri. Yeni materialın öyrədilməsi zamanı şagirdlərin biliyinin hesaba alınması yolları.

6. Öyrədilən materialın möhkəmləndirilməsinin məzmunu və metodikası.
7. Evə verilən tapşırığın məzmunu və metodikası. Ev tapşırığının həcmi və növü. Onu yerinə yetirməklə əlaqədar təlimat. Ayrı-ayrı şagirdlərə əlavə (fərdi) tapşırıq.
8. Dərsdə şagirdlərin idrak fəaliyyətlərinin xarakteristikası.

**Diqqət.** Dərsdə şagirdlərin diqqətini təşkil etmək üçün müəllimin ümumpsixoloji prinsiplərdən istifadə etməsi. Dərsdə diqqətin təşkili priyomları: müəllimin zahiri görkəmi, mimika və pantomimikası; diqqətin ritmi və tempi, əyani vasitələrin parlaqlığı və yeniliyi; müəllimin nitqinin emosional zənginliyi, obrazlılığı, şərhin ardıcıllığı və məntiqiliyi. Dərsin müxtəlif mərhələlərində diqqətin davamlılığının təşkili, müəllimin şagirdlərdə diqqətin keçirilməsini təşkil etməsi.

**Qavrayış.** Yeni materialı qavramağa qarşı ustanovkanın yaradılması priyomları. Şagirdlərin müşahidə aparmalarının təşkili.

**Hafizə.** Əvvəl mənimsənilmiş biliklərin fəallaşdırılması priyomları. Şagirdlərdə hafizənin bütün tiplərinin nəzərə alınması və onların inkişafının təmin olunması. Öyrənmənin səmərəli yollarından istifadə edilməsi.

**Təfəkkür.** Şagirdlərin problem situasiya ilə qaşılaşdırılması. Yeni anlayışların formalaşdırılması yolları. Fikri proseslərin dərsin ayrı-ayrı mərhələlərində təşkili. Dərsdə şagirdlərin əqli keyfiyyətlərinin (təfəkkürün müstəqilliyi, tənqidiliyi, əqlin dərinliyi, çevikliyi və s.) təzahürü və müəllimin həmin keyfiyyətləri formalaşdırmaq üçün istifadə etdiyi yollar.



9. Dərsdə şagirdlərin şəxsiyyətlərinin ayrı-ayrı cəhətlərinin təzahürünün xarakteristikası.

Şagirdlərin öz yoldaşlarının cavablarına və müəllimin verdiyi qiymətə münasibətləri. Müəllimin öz hərəkətləri ilə şagirdlərdə yeni davranış motivi yaradıb-yaratmaması. Təlim prosesində əqli, iradi və s. xassələrin necə formalaşması. Şagirdlərin davranışında qüsurların olub-olmaması. Onların səbəbi.

10. Müəllimin xarakteristikası. Materialı bilməsi. Metodiki ustalığı. Pedaqoji mərifəti. Pedaqoji ünsiyyətinin xüsusiyyətləri. Nitqi (tələffüzü, tempi, nitq mədəniyyəti, nitqinin obrazlılığı, emosionallığı).

Ümumi nəticə.Müəllim dərsdə şagirdlərin psixi fəaliyyətini idarə etməyi nə dərəcədə müvəffəqiyyətlə həyata keçirdi.

## 4.3. Dərsin psixoloji təhlili sxemi
## (L.T.Oxitinaya görə)

L.T.Oxitinanın təklif etdiyi təhlil sxemi ilə tanış olaq. Nümunə üçün iki obyekt: dərsin təşkili və şagirdlərin təşkili. Dərsin təşkilinə daxildir:

1) Müəllimin özünütəşkili:
   a) yaradıcı işci əhval-ruhiyyə,
   b) siniflə psixoloji əlaqə
2) Müəllim tərəfindən şagirdlərin idrak fəaliyyətinin təşkili:
   a) müşahidə və qavrayışın təşkili;
   b) diqqətin təşkili;
   c) hafizənin məşqi;
   d) anlayışların formalaşdırılması;
   e) təfəkkürün inkişafı;
   f) təxəyyülün inkişafı;
   z) vərdiş və bacarıqların formalaşdırılmas.



L.T.Oxitina təhlilin başqa strukturuna, şagirdlərin özlərinin təşkilatlanmağını 1) şagirdlərin əqli inkişafının səviyyəsi; 2) şagirdlərin öyrədilənlərə münasibəti; əqli əməyin özünütəşkili; 4) öyrənməyə qabillik.

Ümumi planda dərsin təhlilin keçirilməsinin beş əsas dayaq məntəqəsi var: dərsin psixoloji məqsədi, dərsin üslubu, müəllim fəaliyyətinin rəhbərlik və ya iş üslubu, şagirdlərin idrak fəaliyyətinin təşkili, şagirdlərin yaş xüsusiyyətlərinin öyrənilməsi.

Dərs üslubu təhlil obyekti kimi iki suala cavab tapmağı vacib edir:

**Birinci sual** belədir ki, dərsin məzmunu və strukturu inkişafetdirici təlim məqsədinə nə dərəcədə uyğun gəlir və xüsusi olaraq:

a) şagirdin hafizə yükünün, onun təfəkkürünə uyğunluğu;
b) şagirdin təkrar fəaliyyəti ilə yaradıcı fəaliyyətinin uyğunluğu;
c) müstəqil əldə etdiyi biliklərlə, hazır əldə etdiyi biliklərin nisbəti;

d) şagirdlərdə fəaliyyətə həvəslə (yerinə yetrirlmiş işlərə görə müsbət hisslər oyatmaq, çətinliyi aradan qaldırmaq üçün iradi cəhd göstərmək və s.) və ya təsir göstərməklə (şagird borcunu xatırlamaq, qiymətləndirməni yada salmaq, irad tutmaq, dilə tutmaq və s.) qoşulması nisbəti
e) müəllimlər tərəfindən şagirdlərin fəaliyyətinin qiymətləndirilməsi və təhlili ilə şagirdlərin özünənəzarət və özünütəhlil arasındakı nəzarətin nisbəti;

**İkinci sual** müəllimin özünütəşkilinin hansı xüsusiyyətləri var:
a) müəllimin dərsə hazırlığı (dərsin məzmunu və struktur komponentlərinə yiyələnmə dərəcəsi, psixoloji məqsədin dərketmə dərəcəsi və onun icrasına daxili hazırlığı)
b) dərsin başlanğıcında və gedişində müəllimin iş əhvalı
c) müəllimin pedaqoji məharəti

d) sinifdəki psixoloji iqlim (müəllim sinifdə uşaqlarla nə dərəcədə səmimi ünsiyyət şəraiti qura bilir və hər bir şagirdin özünü rahat, sərbəst hiss etməsinə şərait yarada bildimi?)

Dərsin təhlilində ən əsas cəhətlərdən biri də şagirdlərin idrak fəaliyyətlərinin nə dərəcədə təşkil olunması, xüsusilə təfəkkür və təxəyyülün səmərəli fəaliyyətini təmin etməkdir:
a) şagirdlərin öyrənilən məsələdə onların qavrayışının seçiciliyini, mənalılığını, tamlğını necə təmin etdi,
b) hansı ustanovkadan hansı formada istifadə etdi (inandırma, təlqin)
c) yeni materialları mənimsəmək üçün, əvvəl mənimsənilmiş biliklərin aktivləşdirilməsi üçün hansı iş formalarından istifadə etdi (fərdi sorğu, siniflə frontal sorğu, təkrar çalışmalar və s.)

Yeni bilik və bacarıqların formalaşması prosesində, şagirdlərin təfəkkür və təxəyyülünü təşkil etmək üçün aşağıdakı suallara cavab vermək lazımdır:

a) şagirdlər bilikləri hansı səviyyədə mənimsəmişdilər (konkret-hissi təsəvvür, anlayışlar, ümumiləşmiş obrazlar və s.)
b) müəllim şagirdlərin təfəkkür və təxəyyül fəaliyyətinin təşkil edərkən təsəvvür, anlayış, başa düşmə səviyyəsi, yeni obrazlar yaradarkən hansı psixoloji qanunauyğunluğa istinad edir?
c) müəllim şagirdlərin aktivliyini və təfəkkür müstəqilliyini hansı üsullardan istifadə etməklə nail olurdu (suallar, problem şəraitin yaradılması, beyin həmləsi, qrup müzakirəsi və s.)
d) müəllim şagirdlərdən hansı dərk səviyyəsinə (təsvir, müqayisə, izahedici, ümumiləşdirici, qiymətləndirmə, problemli) nail olurdu və bununla əlaqədar olaraq inam və ideallların formalaşdırılmasından istifadə edirdi;
e) dərsdə hansı yaradıcılıq işlərindən istifadə olunurdu və müəllim şagirdlərin yaradıcılıq təxəyyülünə necə rəhbərlik edirdi (mövzunun izahı və işin məqəsdi, icra şəraiti, materialın sistemləşdirilməsi və seçim etmə və nəticələrin işlənməsi və tərtibi);



Dərsin psixoloji təhlilinin ümumi sxeminə dörd plan (xarici dil dərsi nümunəsində)daxildir.

**I.** Şagirdlərin tədris fənni kimi xarici dili mənimsəmələrinin psixoloji xüsusiyyətləri. Bu planda təhlil müəllim tərəfindən xarici dildə nitq fəaliyyətinə (qrammatik, leksik, fonetik nitq hərəkətləri) yiyələnməyin hansı xüsusiyyətlərə malik olması sualına cavab axtarılır. Dərsi təhlil edərək müəllim materialın mənimsənilməsinin qanunauyğunluqlarını,vərdişlərin təkmilləşdirilməsi, şagirdlərin kommunikativ qabiliyyətlərinin inkişaf etdirilməsinə diqqət yetirir.

**II.** Xarici dil müəllimi şəxsiyyətinin psixoloji xüsusiyyətləri: dərsdə müəllimin ümumşəxsiyyəti və peşəkar-pedaqoji istiqamətinin təzahürü; xarici dil müəlliminin ümumpedaqoji və xüsusi (kommunikativ, analitik və b.) qabiliyyətləri və onun dərsdə təzahürü; müəllimin fərdi-psixoloji xüsusiyyətləri; emosionallıq, həyəcan,

narahatlıq, özünüqiymətləndirmə və s.dərsdə təzahürü.

**III.** Şagirdlərin təlim fəaliyyətinin psixoloji xüsusiyyətləri, onların fərdi-psixoloji xüsusiyyətlərinin təzahürü, şagirdlərin tədris fənninə münasibəti və onun xarici dil dərsində təzahürü, şagirdlərin təlim fəaliyyətinə qoşulması, dərsdə şagirdlərin intellektual aktivliyinin (fikri, perseptiv, mnemik), yaş və fərdi-psixoloji xüsusiyyətlərinin, psixi vəziyyətin (diqqət, stress, gərginlik, hazırlıq və b.) təzahürü. Şəxsiyyətlərarası münasibətlər a) dil yarımqrupu şagirdləri arasında, b) müəllim-şagird münasibətlərinin dərsdə təzahür etməsi.

**IV.** Pedaqoji ünsiyyət və əməkdaşlıq: müəllim-şagirdlər kommunikativ məsələləri necə həll edirlər; pedaqoji ünsiyyət üslubu (avtoritar, demokratik, liberal, avtokratik); şagirdlər arasındakı əməkdaşlıq (diadlar, triadlar, lidelik və s.).



Dərsin psixoloji təhlil pedaqoji fəaliyyətin ayrılmaz tərkib hissəsidir. Proyektiv-perseptiv-refleksiv qabiliyyətə əsaslanaraq və analitik, proyektiv, refleksiv bacarıq vasitəsilə həyata keçirilməsi, müəllim üçün özünütənzim, özünənəzarət və özünüinkişafetdirmə vasitəsidir. Dərsin psixoloji təhlilinin üç səviyyəsi: dərsqabağı, cari və retrospektiv təhlil bu bacarıqların xüsusiyyətləri ilə səciyyələnir. Psixoloji təhlil etmək bacarığı, müəllimdə pedaqoji refleksiya, lahiyələndirmə bacarığı ilə yanaşı, bütövlükdə pedaqoji qabiliyyətləri inkişaf etdirir. Psixoloji təhlil həm də sinifin idarə olunması, yəni sinif menecmenti qabiliyyətinin inkişafını təmin edir, pedaqoji ustalığı inkişaf etdirir.

| **Dərsin psixoloji təhlil növləri** | **Müəllimin özünə münasibəti ilə bağlı vəzifələri** | **Müəllimin şagirdlərə münasibəti ilə bağlı vəzifələri** |
|---|---|---|
| **dərsqabağı psixoloji təhlil** | Dərsin psixoloji məqsədinin müəyyən edilməsi (fənnə olan idrak marağının inkişafı; fikri fəaliyyətin fəallaşdırılması; hafizənin inkişafı; yüksək mənəvi keyfiyyətlərin və inamın formalaşdırılması) metodik priyomların, məqsəd və vəzifələrin psixoloji cəhətdən əsaslandırılması, özünün fərdi-psixoloji xüsusiyyətlərinlə qarşıya qoyulan məqsədin uzlaşdırılması | Təlim fəaliyyətinin əsas motivlərininnəzərə alınması (idrak, kommunikativ, sosial) şagirdlərin fərdi-psixoloji xüsusiyyətlərinin nəzərə alınması (təfəkkür, hafizə, təxəyyül, qavrayış və s.) dərsə fənn hazırlıq səviyyəsininqeydi, qrupda şəxsiyyətlərarası münasibətlərin qeydə alınması |
| **cari psixoloji təhlil** | Daimi müşahidə, qeydə alma, verilən tapşırıqların yerinə yetirilməsinin korreksiyası, təlim tapşırığı və pedaqoji ünsiyyət prosesi, tapşırığın icrası prosesində çətinlik zamanı yeni tapşırıqları qoymaq bacarığı, yeni vasitələrdən istifadə etməklə dərsin gedişini dəyişdirmək bacarığı. | Şagirdlərin tədris işlərinin gedişinin nəzərə alınası (dərsə maraq, fikri aktivlik, materialın mənimsənilməsininxarakteri) |
| **retrospektiv psixoloji təhlil** | Özünün pedaqoji fəaliyyətinin qiymətləndirilməsi (uğurlar, nöqsanlar, səhvlər və onların səbəbi və aradan qaldırılması yolları) | Şagirdlərin ümumtəhsil, tərbiyə və praktik planda real inkişafının təyin edilməsi, keçirilən dərsin uşağın inkişafında real faydası, onun inkişafına verdiyi töhfə. |

**____________fənni üzrə___________________**
**mövzsunda dərsin psixoloji təhlili**



**Dərsin psixoloji təhlili balla qiymətləndirilir**

**İmza: metodist psixoloq______________**

## 4.4. Dərs cədvəlinin psixoloji təhlil sxemi

Dərs cədvəli - məktəbin iş rejimim müəyyən edən ən əsas təşkilati sənəddir. Dərs cədvəlinin tərtibində məqsəd

- ❖ şagirdlərin inkişaf etməsi, təhsil alması, mədəniyyətə yiyələnməsi, zəruri bacarıq və vərdişləri mənimsəməsi üçün şəraitin yaradılması;
- ❖ şagirdlərin və müəllimlərin yaxşı fəaliyyət göstərməsi üçün şəraitin yaradılması;
- ❖ təhsil müəsissəsinin səmərəli rejimdə fəaliyyət göstərməsi üçün normal şəraitin yaradılması.
- ❖ müəllimlərin və inzibati heyətinin əməyinin elmi təşkilinə xidmət etməkdir.

Dərs cədvəlləri tərtib edilərkən həftəlik dərs yükü 5 günlük tədris həftəsində I sinif (20 saat), II-IV siniflər (25 saat), V sinif (28 saat), VI sinif (29 saat), VII sinif (31 saat), VIII-IX sinif (32 saat), X-XI sinif (33 saat) götürülməlidir.



Orta ümumtəhsil məktəblərində tədris olunan fənləri "çətinlik" dərəcəsinə görə 4 qrupa bölürlər:

- I qrupa - azərbaycan dili, ana dili, riyaziyyat, kimya, fizika, xarici dil;
- II qrupa - coğrafiya, biologiya, astronomiya;
- III qrupa- ədəbiyyat, tarix, rəsmxət;
- IV qrupa isə - texnologiya, təsviri incəsənət, musiqi, bədən tərbiyəsi.

Fənləri çətinlik dərəcəsinə əsasən qiymətləndirdikdə Riyaziyyat (11), Xarici dil və informatika (10), Fizika və Kimya (9), Tarix və ictimaiyyət (8), Azərbaycan dili və ədəbiyyat (7), Təbiətşünaslıq, Coğrafiya, Biologiya, İqtisadiyyat (6), Bədən tərbiyəsi, Gənclərin çağrışa qədərki hərbi hazırlığı (5), Əmək təlimi (4), Rəsmxətt (3), Təsviri incəsənət (2), Musiqi (1) balla qiymətləndirilir. "Çətinlik" dərəcəsinə görə qruplaşdırma müəyyən mənada şərti və nisbi xarakter daşıyır.Burada şagird şəxsiyyəti, onun fənnə münasibəti, idrak imkanları fərqli mövqey kimi özünü göstərə bilər. Şagirdlərə ilk dəfə tədris olunan fənləri də "çətin" fənlər qrupuna daxil etmək olar. Dərslərin sıralama ardıcıllığı da əsas amil kimi şagirdlərin

yorulmasına ciddi təsir göstərir. Ona görə də dərs cədvəlinin tərtibi zamanı hökmən bu faktor nəzərə alınmalıdır.

Mütəxəsislər həftənin günlərini çox və az əlverişliolmaqla qruplaşdırırlar. Belə ki, **çox əlverişli** günlər I -IV sinif (Çərşənbə axş., çərşənbə, cümə axş.), V sinif (Bazar ertəsi, Çərşənbə axş), VI sinif (Çərşənbə ax, cümə ax, cümə), VII - VIII sinif (Çərşənbə axş., çərşənbə, cümə axş.), IX-XI sinif (Çərşənbə axş., çərşənbə, cümə) günləri sayılır. I -IV siniflərdə (Bazar ertəsi, cümə), V sinifdə (çərşənbə - şənbə), VI sinifdə (Bazar ertəsi, çərşənbə), VII-VIII siniflərdə (Bazar ertəsi, cümə), IX-XI siniflərdə isə (Bazar ertəsi, Çərşənbə axş) günlər isə**az əlverişli** günlərhesab olunur. Ona görə də dərs cədvəlinin tərtibi və təhlili zamanı bu faktları nəzərə almaq lazımdır. Beləliklə, dərs cədvəlinin müsbət qiymətləndirilməsi aşağıdakı tələblərin gözlənilməsi şəraitində mümkündür:

- dərs yükünün həftə ərzində qeyri-bərabər paylanması;
- fənlərin çətinlik dərəcəsinin nəzərə alınması;
- fənlərin ardıcıllığında səmərəlilik amilinin gözlənilməsi;
- həftənin əlverişli və əlverişsiz günlərinin nəzərə alınması
- dərs yükü paylanarkən, bazar ertəsi istisina olmaqla ən çoxu iki "pikin" olması;
- bir gün dərs yükünün çox az olması və həftə sonu dərs yükünün ən aşağı həddə olması;
- müəllim əməyinin gücündən rasional qayda ilə istifadə, "pəncərələrin" olmaması;
- dərslərin müvafiq fənn kabinetlərinə verilməsi.

Beləliklə, həftə ərzində şagirdin iş qabiliyyətinin əsası bazar ertəsi günü qoyulur. Ən yüksək iş qabiliyyəti - çərşənbə axşamı və çərşənbə günlərinə düşür. İş qabiliyyətinin aşağı düşməsi - cümə axşamı və cümə günüdür. Tədqiqatlar göstərmişdir ki, gün ərzində məktəblilərin böyük əksəriyyətində mərkəzi sinir sisteminin ən yuksək fəallığı aşağıdakıvaxt intervalına düşür:

I dövr:səhər saat 8.00 -dan -12.00-dək.

II dövr: axşam saat 16.00-dan-18.00-dək.

Şagirdlərdə iş qabiliyyətinin çərşənbə axşamı və çərşənbə günlərində yüksək olduğunu nəzərə alaraq yoxlama işlərini

və çətin tapşırıqları həmin günlərdə yerinə yetirmək məsləhətdir. Cümə axşamı isə nisbətən asan məşğələlər keçirmək yaxşı olar. Bütün həftə ərzində uşaqların iş qabiliyyətlərini qoruyub-saxlamaq lazımdır. Beləliklə, dərs məşğələlərinin cədvəli tərtib edilərkən və ya psixoloji cəhətdən təhlil edilərkən yuxarıda qeyd edilən psixoloji-pedaqoji şərtlərə əməl olunmalıdır.

**_____ sinifin dərs cədvəlinin psixolojitəhlili**



**Dərs cədvəlinin psixoloji təhlili ____ balla qiymət-ləndirilir**

**İmza: metodist psixoloq __________**

## 4.5. Aktual mövzuda əxlaqi-psixoloji söhbət

Müasir təhsil konsepsiyası şagird şəxsiyyətinin formalaşdırılmasını təhsil sisteminin başlıca vəzifəsi hesab edir. Bu vəzifənin yerinə yetirilməsi məktəbdə təhsilverici, inkişafetdirici və tərbiyəedici sosial şəraitin yaradılmasından asılıdır. Qeyd olunan məqsədə nail olmaq üçün yerinə yetirilən işlərdən biri şagirdlərlə aktual psixoloji mövzuda söhbətin keçirilməsidir. Bu yönümdə təcrübəçi tələbələrdə müvafiq peşə vərdişi və bacarığının formalaşdırılması məqsədilə onların şagirdlərlə aktual psixoloji mövzuda söhbət aparmasını pedaqoji təcrübə müddətində yerinə yetirəcəkləri tapşırıqlar siyahısına daxil edilmişdir. Bu işlərin yerinə yetirilməsi həm də təcrübəçi tələbənin peşə adaptasiyasına kömək göstərir. Təcrübəçi tələbə təhkim olunduğu sinif kollektivi ilə tanışlıqdan sonra ehtiyac duyulan əxlaqi-psixoloji mövzuda söhbəti keçirə bilər. Təcrübəçi tələbə təklif edilən mövzulardan başqa özü də metodist psixoloqla məsləhətləşdikdən sonra hər hansı mövzuda söhbət apara bilər. Bu yolla təcrübəçi tələbə şagirdləri daha yaxından tanımaq imkanı əldə edir, onları müvafiq istiqamətdən inkişaf və tərbiyə edir.

1. Torpaq uğrunda ölən varsa Vətəndir.
2. Şəhidlik zirvəsi - əbədiyyətdir.
3. Sən Vətən yolunda nə etmisən?
4. Vətən torpaqları bizi gözləyir.
5. Mən Vətənin bir hissəsiyəm.
6. Evdə şagirdin iş guşəsi
7. Dərsi yadda saxlamanın səmərəli yolları
8. Məktəblinin hüquq və vəzifələri
9. Dostluq və yoldaşlıq psixologiyası
10. Dost kimdir və onu necə qazanmalı?
11. Məktəblinin gündəlik rejimi
12. Asudə vaxt mədəniyyəti
13. İnsanın inkişafında əməyin rolu.
14. Sənət və peşələr haqqında nə bilirsiniz?
15. Sən kim olmaq istəyirsən?
16. İslam - mənəvi paklıq və kamillik mənbəyidir.
17. Milli adət və ənənələrimiz.

18. Ailə mədəniyyəti.
19. Məktəb və ailə
20. Peşə seçimi necə olur?

Əsasən ümumi planda qeyd olunan mövzulardan məktəblilərin yaş dövrünə (kiçik məktəbli, yeniyetməlik, böyük məktəbli) uyğun gələn variantından istifadə olunmalıdır

## 4.6. Sual təfəkkürün katalizatoru kimi

Klassik psixologiya hesab edir ki, təfəkkür sualdan başlayır. Nəzəri və eksperimental tədqiqatlar da bu müddəanı dəstəkləyir. Müasir mədəniyyət dialoji mədəniyyətdir və yeni pedaqoji təfəkkür üçün məsələnin belə qoyuluşu konseptual əhəmiyyət daşıyır.



Ənənəvi didaktik sistem əsasən hafizə məktəbi idi və şagirdin bilik, bacarıq və vərdişi daha çox hafizə əsasında qiymətləndirilirdi. Müəllimlərin də şagirdlərə verdikləri suallar təfəkkürdən çox hafizəni aktivləşdirirdi. Müasir məktəb üçün isə sual problemi, ilk növbədə, məhz təfəkkür problemidir və ancaq bu kontekstdə xüsusi əhəmiyyətə malikdir. Bu yolda hafizə, təfəkkkürün inkişafı yolunda daha çox vasitədir. Sual problemi üçtərəfli problemdir:

1. Müəllim şagirdə sual verir;
2. Şagird müəllimə sual verir;
3. Şagird-şagirdə sual verir.

Şagirdlərin müəlimə və bir-birilərinə sual verməsinin önəmli psixoloji problemləri var. Təəssüflə deyə bilərik ki, elmi-texniki tərəqqi əsrində sinifdə şagird suallarının həcmi artmaq əvəzinə azalması müşahidə olunur. Bu meylin kökləri açıqlanaraq ətraflı təhlil olunmalıdır. Şagird suallarını təhlil edəndə bir cəhət aydın nəzərə çarpır. Onlar çox vaxt xatırladıcı və yadasalıcı məzmunlu "neçəinci ildə olub?", "nə vaxt olub?", " nə deyilir?" tipli primitiv suallar verirlər. Bunlar hafizə yönümlü suallardır, təfəkkürü hərəkətə gətirmədiyi üçün düşündürcü deyildir.

Sinif məkanında şagird təfəkkürünü necə alovlandırmaq olar? Gənc müəllimlərə, şagirdlərə "düşünülmüş suallar" verməyi necə öyrətmək olar? Bu suallardan istifadə etmək texnikasını mənimsəmək yolu ilə. Bu sualların hamısı üçün ümumi cəhət odur ki, onlar hafizənin deyil, bilavasitə təfəkkürün gedişinə istiqamət verir və müəyyən təfəkkür vərdişlərindən istifadə olunmasını nəzərdə tutur. Belə qənaətdəyik ki, bu suallardan praktik olaraq istənilən situasiyada istifadə etmək olar. Apardığımız təcrübələrə əsasən deyə bilərik ki, əgər şagirdlər, tələbələr belə suallar verməyi və onları cavablandırmağı öyrənərlərsə materialın anlaşılması və yadda saxlanılması yaxşılaşır.

Amerika psixoloqu Kinqin adı ilə bağlı olan bu metod "Qarşılıqlı suallar və cavablar" adlanır. Aşağıda verilmiş cümlələrdə nöqtələrin yerinə müvafiq sözləri qoymaqla sual verilir.



| Ümumi suallar | Formalaşan təfəkkür vərdişləri |
|---|---|
| ... misal göstərin | Tətbiqetmə |
| ...üçün ...necə istifadə etmək olar? | Tətbiqetmə |
| Əgər ... nə baş verər? | Ehtimal etmək (fərziyyə irəli sürmək) |
| ... dedikdə nə nəzərdə tutulur? | Təhlil/ nəticə |
| ...güclü və zəif cəhətləri nədən ibarətdir | Təhlil/ nəticə |
| ...nəyə oxşayır? | İdentifikasiya, bənzətmə və metaforanın yaradılması |
| ...haqqında biz artıq nə bilirik? | Əvvəl mənimsənilmiş biliklərin aktivləşdirilməsi |
| ... necə təsir göstərir? | Səbəb-nəticə münasibətlərinin aktivləşdirilməsi |
| ... əvvəllər öyrəndiyimizlə | əvvəl mənimsənilmiş biliklərin |

| | |
|---|---|
| necə əlaqədardır? | aktivləşdirilməsi |
| İzah edin, nə üçün ....? | Təhlil |
| İzah edin,.... necə? | Təhlil |
| .... mənası nədən ibarətdir? | Təhlil |
| Nə üçün .... əhəmiyyətlidir? | Əhəmiyyətin təhlili |
| ... ilə .... arasındakı fərq nədən ibarətdir? | Müqayisə-qarşılaşdırma |
| ... və .... bir-birinə nə ilə oxşayır? | Müqayisə-qarşılaşdırma |
| ... gündəlik həyatda necə tətbiq etmək olar? | Real aləmə tətbiq |
| ... əksinə hansı arqumenti gətirmək olar? | Əks arqumentasiya |
| ....hansı yaxşıdır və nə üçün? | Qiymətləndirmə və onun əsaslandırılması |
| Məsələnin həllinin mümkün yolları hansılardır? | İdeyaların sintezi |
| ... əsasında ... və ... müqayisə edin. | Müqayisə-qarşılaşdırma |
| Sizin fikrinizcə, səbəb hansıdır və nə üçün? | Səbəb-nəticə əlaqələrinin izahı |
| ... siz bu hökmlə razısınızmı? | Qiymətləndirmə və onun əsaslandırılması |
| Siz öz cavablarınızı nə ilə əsaslandıra bilərsiniz? | Qiymətləndirmə və onun əsaslandırılması |
| Sizin fikrinizcə, ... məsələsinə necə baxa bilər? | Başqalarının nöqteyi-nəzərinin araşdırılması |

V BÖLMƏ

# PSİXOLOGİYADAN TAPŞIRIQLARIN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ PEDAQOJİ TƏCRÜBƏ DƏFTƏRİNİN TƏRTİBİNƏ AİD MATERİALLAR

## 5.1. Psixologiya üzrə tapşırıqların və pedaqoji təcrübənin qiymətləndirilməsi meyarları haqqında

Pedaqoji təcrübə müddətində proqramda nəzərdə tutulmuş psixologiya üzrə tapşırıqlar metodist-psixoloq tərəfindən tələbələrin özlərinin iştirakı ilə qiymətləndirilir. Tələbələrin yerinə yetirdiklər işlər həm pedaqoji təcrübənin gedişində, həm də təcrübə başa çatdıqdan tapşırıqların tərtibi keyfiyyətinə görə qiymətləndirilir. Tələbə pedaqoji təcrübə başa çatdıqdan sonra psixologiya üzrə yerinə yetirdiyi bütün tapşırıqların sənədlərini metodist-psixoloqa təqdim etməlidir. Tapşırıqlar qiymətləndirildikdən sonra nəticələr pedaqoji təcrübə juralında qeyd olunur. Tələbənin pedaqoji təcrübəyə görə yekun qiyməti yazılarkən onun psixologiyadan topladığ bal nəzərə alnır. Əgər təcrübəçi tələbə psixologiyadan 4 baldan az toplayıbsa onda pedaqoji təcrübədən kredit qazana bilmir. Pedaqoji təcrübə dövründə tələbələrin psixologiyadan, tapşırıqların 10 ballıq sistem üzrə qiymətləndirilməsi aşağıdakı göstəricilərə əsaslanır:

- şagird şəxsiyyətinə və sinif kollektivinə aid psixoloji-pedaqoji xarakteristikanı tərtib etmək;
- psixoloji müşahidə qeydlərinin sistemli olması;
- dərsin psixoloji təhlilini aparmaq;
- şagirdlərlə aktual psixoloji mövzuda söhbət etmək;
- dərs cədvəlinin psixoloji təhlili;

- psixologiya üzrə tapşırıqları vaxtında, aydın və səliqəli şəkildə yazaraq təhvil vermək;
- pedaqoji təcrübyə davamiyyət.

**10 bal –** Psixologiya üzrə tapşrrıqları keyfıyyətlə yerinə yetirən, ayrı-ayrı şagirdlər və sinif kollektivi üzərində ardıcıl surətdə psixoloji müşahidə aparan və müşahidə dəftərini müntəzəm tərtib edən, dərslərin keçirilməsində və miizakirəsində fəal iştirak edən və onları psixoloji cəhətdən düzgün təhlil edən, aktual psixoloji mövzuda əxlaqi söhbərlər aparan və dərs cədvəlini psixoloji cəhətdən düzgün təhlil edən tələbəyə verilir.

**9 bal –** Psixologiya üzrə tapşırıqları keyfıyyətlə yerinə yetirən, şagirdlər üzərində ardıcıl müşahidə aparan və müşahidə dəftərini müntəzəm tərtib edən, dərslərin müzakirəsində fəal iştirak edən və onları psixoloji cəhətdən təhlil edən aktual psixoloji mövzuda əxlaqi söhbət aparan, dərs cədvəlini qismən düzgün təhlil edəntələbəyə verilir.



**8 bal –** Psixologiya üzrə tapşırıqları keyfıyyətlə yerinə yetirən, şagirdlər üzərində ardıcıl müşahidə aparan və müşahidə dəftərinin müntəzəm tərtib edən, dərslərin müzakirəsində fəal iştirak edən və onları psixoloji cəhətdən təhlil edən, aktual psixoloji mövzuda əxlaqi söhbət aparan, dərs cədvəlinin təhlilində müəyyən səhvlərə yol verən tələbəyə verilir.

**7 bal –** Psixologiya üzrə tapşırığı keyfıyyətlə yerinə yetirən, şagirdlər üzərində ardıcıl müşahidə aparan və müşahidə dəftərini müntəzəm tərtib edən, dərsin psixoloji təhlilində səhvlər edən, aktual psixoloji mövzuda əxlaqi söhbət aparan və dərs cədvəlini qismən təhlil edən tələbəyə verilir.

**6 bal –** Psixologiya üzrə tapşırığı keyfıyyətlə yerinə yetirən, şagirdlər üzərində ardıcıl müşahidə aparan və müşahidə dəftərini tərtib edən, dərslərin müzakirəsində iştirak edən və lakin onları psixoloji cəhətdən sistemli təhlil edə bilməyən, aktual jısixoloji mövzuda əxlaqi söhbət aparan, lakin dərs cədvəlinin psixoloji təhliliniaparmayan tələbəyə verilir.

**5 bal –** Psixologiya üzrə tapşırığı yerinə yetirən, şagirdlər üzərində ardıcıl müşahidə aparan və müşahidə dəfltərini tərtib edən, dərslərin müzakirəsində fəal iştirak etməyən və

dərslərin psixoloji təhlilini qismən bacaran, aktual psixoloji mövzuda söhbət aparan və dərs cədvəlinitəhlil etməkdə çətinlik çəkən tələbəyə verilir.

**4 bal –** Psixoloji müşahidə gündəliyi olan, lakin psixologiyadan nəzərdə tutulan tapşırıqlardan yalnız ikisini-şagird və sinif kollektivinin psixoloji xarakteristikasını tərtib edən tələbəyə verilir.

**3 bal –** Psixoloji müşahidə gündəliyi olmayan və psixologiyadan nəzərdə tutulan tapşırıqlardan yalnız birini-şagird şəxsiyyətinin psixoloji xarakteristikasını tərtib edən tələbəyə verilir.

**2 bal –** Psixologiya üzrə tapşırıqları səthi yerinə yetirən, müntəzəm psixoloji müşahidə aparmayan,tapşırıqları yazılı şəkildə yerinə yetirməyən tələbəyə verilir.

**1 bal –** Pedaqoji təcrübədə iştirak edən lakin, psixologiyadan verilmiş tapşırıqların heç birini yerinə yetirməyən tələbəyə verilir.

**0 bal –** Psixologiyadan verilmiş tapşırıqların heç birini yerinə yetirməyən tələbəyə verilir.



| **Tapşırıqlar** | **ballar** | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **10** | **9** | **8** | **7** | **6** | **5** | **4** | **3** | **2** | **1** | **0** |
| Şagird şəxsiyyətinin psixoloji-pedaqoji xarakteristikası | | + | | | | | | | | | |
| Sinif kollektivinin psixoloji-pedaqoji xarakteristikası | + | | | | | | | | | | |
| Bir dərsin psixoloji təhlili | | | + | | | | | | | | |
| Sinifin dərs cədvəlinin psixoloji təhlili | | | | + | | | | | | | |
| Psixoloji müşahidə | | + | | | | | | | | | |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| qeydiyyatı | | | | | | | | | | | | |
| Aktual psixoloji mövzuda söhbət | | | | | + | | | | | | | |
| Psixologiya tapşırıqlarının sənədləşdirilməsi | | | | | | + | | | | | | |
| Dərsə davamiyyət | | + | | | | | | | | | | |

**Qeyd:** Cədvəldə qeyd olunan tapşırıqların hər birinə ayrılıqda verilən ballar toplanılır və 8-ə bölünür. Alınmış rəqəm tələbənin pedaqoji təcrübədə aldığı yekun qiymət hesab olunur.

**Məsələn: (9+10+8+7+9+6+5+9): 8 = 7.8 = 8**

Pedaqoji təcrübədə iştirak edən 1 nəfər tələbəyə görə ayrılan 56 saat dərs yükü müəllimlər arasında aşağıdakı normada bölünür:



İxtisas üzrə metodist – 31 saat
Pedaqoq – 4 saat
Psixoloq - 2 saat
Fənn müəllimi – 16 saat
Məktəb direktoru – 1 saat
Dərs hissə müdiri – 1 saat
Sinif rəhbəri – 1 saat

Pedaqoji təcrübədə iştirak edən tələbənin davamiyyətə və yerinə yetirdiyi tapşırıqlara görə fəaliyyəti ümumi olaraq 100 balla qiymətləndirilir. 100 balın

50 balı – ixtisas üzrə
30 balı – davamiyyətə
10 balı – pedaqoji
10 balı – isə psixoloji tapşırıqlara görə verilir.

Pedaqoji təcrübənin müddəti 70 iş günüdür (14 həftə). Məktəblilərin yaz tətilinə ayrılmış 5 günü iş günləri hesab

olunmur. Bu səbəbdən təcrübəçi tələbələr 65 gün müddətində 5 günlük iş həftəsinə əsasən ilk 30 gününü 7 saat, qalan 35 gününü isə 6 saat olmaqla məktəbdə olmalıdırlar.

Pedaqoji təcrübə müddətində universitet tərəfindən təhkim olunmuş ixtisas üzrə metodistin, psixoloq və pedaqoqun məktəbə davamiyyəti rəhbərlik etdiyi tələbənin sayına və ona uyğun olaraq ayrılmış saata əsasən müəyyən edilir.

Məsələn, 7 nəfər tələbəyə görə 14 həftə ərzində metodist – 217 saat, pedaqoq – 28 saat, psixoloq isə 14 saat məktəbdə olmalıdır.

## 5.2. Pedaqoji təcrübə dəftərinintərtibində nəzərə alınması vacib olan materiallar

Təcrübəçi tələbə pedaqoji təcrübəyə aid hesabat hazırlayarkən aşağıdakı materiallar cavablandırılmış şəkildə hesabat dəftərinin əvvəlində öz əksini tapmalıdır.



Universitet üzrə inzibati heyət

İxtisas üzrə metodist: ______________________
Psixologiya üzrə metodist:___________________
Pedaqogika üzrə metodist:___________________

Məktəb üzrə inzibati heyəti

Məktəb direktoru: _________________________
Tədris işləri üzrə direktor müavini: ___________
Tərbiyə işləri üzrə direktor müavini: __________
İbtidai siniflər üzrə direktor müavini: _________
Məktəb psixoloqu: ________________________
Sinif rəhbəri:______________________________

## _____ sinifində dərs deyən müəllimlər

| s\s | Soyadı, adı, atasmın adı | tədris etdiyi fənn | pedaqoji iş təcrübəsi | siniflə iş təcrübəsi |
|---|---|---|---|---|
| 1. | | | | |
| 2. | | | | |
| 3. | | | | |
| 4. | | | | |
| 5. | | | | |
| 6. | | | | |
| 7. | | | | |
| 8. | | | | |
| 9. | | | | |
| 10. | | | | |

## ___sinif pasportu

| s\s | Adı, atasının adı, soyadı | Təvəl-lüdü | Milli-yəti | Ailənin tipi | Ailədə sosial inkişaf şəraiti |
|---|---|---|---|---|---|
| 1. | | | | | |
| 2. | | | | | |
| 3. | | | | | |
| 4. | | | | | |
| 5. | | | | | |
| 6. | | | | | |
| 7. | | | | | |

## Məktəbin zəng cədvəli

| I NÖVBƏ | | | | II NÖVBƏ | | | |
|---|---|---|---|---|---|---|---|
| | Başlanır | Qurtarır | Fasilə | | Başlanır | Qurtarır | Fasilə |
| 1-ci dərs | | | | 1-ci dərs | | | |
| 2-ci dərs | | | | 2-ci dərs | | | |
| 3-ci dərs | | | | 3-ci dərs | | | |
| 4-ci dərs | | | | 4-ci dərs | | | |
| 5-ci dərs | | | | 5-ci dərs | | | |
| 6-ci dərs | | | | 6-ci dərs | | | |

**_ sinfin dərs cədvəli**

| Günlər | Bazar ertəsi | Çərşənbə axşamı | Çərşənbə | Cümə axşamı | Cümə | Şənbə |
|---|---|---|---|---|---|---|
| 1-ci dərs | | | | | | |
| 2-ci dərs | | | | | | |
| 3-cü dərs | | | | | | |
| 4-cü dərs | | | | | | |
| 5-ci dərs | | | | | | |
| 6-cı dərs | | | | | | |

VI BÖLMƏ

# TƏLİM PSİXOLOGİYASI ÜZRƏ NƏZƏRİ VƏ PRAKTİK MƏSƏLƏLƏR

## 6.1.Təlim məqsədlərinin taksonomiyası

Fəaliyyət, insanın dərk olunmuş məqsədilə tənzimlənən psixi və fiziki fəallığıdır. Məqsəd fəaliyyətin sonunda alınan nəticəyə deyilir. Fəaliyyətin bütün struktur xüsusiyyətləri, vasitələri və üsulları məhz məqsəd ölçüləri ilə müəyyən olunur. Bu mənada təlim fəaliyyətində də təlim məqsədinin müəyyən edilməsi və onun müəllim tərəfindən dərk olunması çox vacibdir. Çünki, dərsin infrastrukuturu, kompozisiyası bilavasitə təlim məqsədlərilə şərtlənir. Çox vaxt gənc müəllimlərin qarşılaşdığı çətinliklərdən biri elə təlim məqsədlərini, o cümlədən keçəcəyi mövzu və ya dərslə bağlı hansı məqsədlərə nail olacağını dərk edə bilməməsi ilə bağlıdır. Müəllim təlim məqsədlərini başa düşmədikdə dərsi elə dərs xatirinə, mövzunu sadəcə olaraq kitabda verildiyi üçün tədris edir.



Təlim məqsədləri anlamı öz mahiyyətinə görə həmişə dövrün pedaqoji təfəkkürünün meyarlarını və cəmiyyətin mədəni dəyərlərini əks etdirir. Uzun müddət təlim məqsədlərinə sırf təhsil məqsədi kimi baxılmış elə bu yönümdən də qavranılmış və qiymətləndirilmişdir.

Müasir psixologiyada bu problemin yeni konsepsiyasıtaksonomiya konsepsiyası formalaşıb. Bu məsələnin tarixi amerikan psixoloqu Benjamin Blumun adı ilə bağlıdır. Taksonomiya - yunan sözüdür, taxus-qayda ilə yerləşmə + nomos isə qanun deməkdir. Təlim məqsədlərinin şəbəkəli (ierarxik) və ya "sistemli" təsnifatına taksonomiya deyilir. Təhsildə taksonomiyalar nə üçün lazımdır? Müəllimin taksonları bilməsi onun nəyinə gərəkdir? Təlim məqsədlərinin taksonomiyası tədris prosesinin elmi-metodik səviyyədə planlaşdırmaq və onun nəticəsini ölçmək imkanı verir.

Azərbaycan psixopedaqogikasında taksonomiya məsələsi prof.Əbdül Əlizadə tərəfindən araşdırılmışdır. O, “Taksonomiya nəzəriyyəsi və təcrübəsi: müasir məktəbin işıqlı yolu” adlı əsərində “Üç tərkibli taksonomiyalar” sistemini (2008) ***öyrənmə-inkişaf-mədəniyyət*** kateqoriyaları ilə təqdim etmişdir. Bu kateqoriyalar aşağıdakı tərkib hissələrdən ibarətdir.

**ÖYRƏNMƏ İNKİŞAF MƏDƏNİYYƏT**



| **QİYMƏTLƏNDİRMƏ** | **KOQNİTİV VƏ KREATİV PROSESLƏR** | **DÜNYƏVİ MƏDƏNİYYƏT** |
|---|---|---|
| TƏTBİQ | AĞLIN KEYFİYYƏTLƏRİ | MİLLİ-MƏNƏVİ MƏDƏNİYYƏT |
| ANLAMA | MÜCƏRRƏDLƏŞDİRMƏ | İRADİ KEYFİYYƏTLƏR |
| XATIRLAMA | ÜMUMİLƏŞDİRMƏ | ƏXLAQİ MƏDƏNİYYƏT |
| VƏRDİŞ | MÜQAYİSƏ | KOMMUNİKATİV MƏDƏNİYYƏT |
| BACARIQ | TƏRKİB | ÜNSİYYƏT MƏDƏNİYYƏT |
| BİLİK | TƏHLİL | HİSSLƏR MƏDƏNİYYƏTİ |

## *"Öyrənmə" taksonları sistemi*

| ***Taksonlar*** | ***Taksonların şərhi*** |
|---|---|
| **Bilik** | Şagird faktları, terminalogiyanı, faktların seçilmə üsullarını, konvensional işarələri, inkişaf meyllərini, təsnifatı, yoxlama və qiymətləndirmə meyarlarını, tədqiqat metodlarını bilir. Bu zaman müəllim aşağıdakı fellərdən istifadə edir: *tap, sadala, ifadəli oxu, danış, hesabla, nəql et, kateqoriyalara aid et, vurğula, yaz, qulaq as, xəyalında canlandır, əlaqələndir, adlandır, ayır danış, yadda saxla.* |
| **Bacarıq** | Bu səviyyədə bilik praktik canlandırılır. Şagird ümumi intellektual bacarıqlara: planlaşdırma, kitabla iş, dinləmək, müşahidə; zəruri intellektual bacarıqlara: mətndəki əsas fikri ayırd etməyə, mətni mənasına görə hissələrə bölməyi, hadisələri tutuşdurmaq; xüsusi intellektual bacarıqlara (bu və ya digər fənnin xüsusiyyətlərini əks etdirir: qrafik, kartoqrafik bacarıqlar) və ya hərəki bacarıqlara malik olmaq. Bu zaman müəllim aşağıdakı fellərdən istifadə edir: *yaz, planlaşdır, ayırd et, hissələrə böl, tutşdur, müqayisə et, öz sözlərinlə nəql et, yoxla.* |
| **Vərdiş** | Bu səviyyədə şagird işi, hərəkəti, sərbəst, şüurla, asanlıqla, sürətlə və dəqiq yerinə yetirir, nəzarət və tənzim edə bilir. Bu zaman müəllim aşağıdakı fellərdən istifadə edir: *tut, yerini dəyiş, ayır, dinlə, təkrar et, tanış ol, çək, göstər, yaz, bənzət, uyğunlaşdır, qur, sök, nümayiş etdir, tərtib et.* |

| | |
|---|---|
| **Xatırlama** | Bu səviyyədə şagird əvvəllər öyrəndiklərini, bildiklərini eləcə də məlum informasiyaları xatırlayır, tanıyır, təsvir edir, siyahıya alır, axtarırı, adlandırır, yerləşdirir, tapır, şərh və müəyyən edə bilir və yeni dərs kontekstində mənalandırır. Bu zaman müəllim aşağıdakı fellərdən istifadə edir*: siyahıya al, nəql et, göstər, müqayisə et, nümunələr ver, fikrini de, təkrar et, yada sal, tanı, qruplaşdır, oxu, yaz, icmal tut, seç, təkrarla, qeyd et, altından xətt çək.* |
| **Anlama** | Şagird öyrəndiyi bilik əsasında yeni məlumatın mənasını dərk edir, ideya və fikirləri izah edə bilir. İdrak prosesinin bu səviyyəsində şagird anlayır, şərh edir, izah edir, nəticə çıxarır, zənn edir, fikir irəli sürür, nəql edir, səciyyələndirir. Bu zaman müəllim aşağıdakı fellərdən istifadə edir: *müqayisə et, izah et, təsdiq et, müəyyən et, müzakirə et, əlaqələndir, hesabat ver, tanı, təkrar et, müşahidə et, icmal tut, şərh et, əsas fikri ver, qiymətləndir.* |
| **Tətbiq** | Şagird öyrəndiyi məlumatı başqa bir məzmunda və fərqli şəraitdə istifadə edir, yerinə yetirir. Bu zaman müəllim aşağıdakı fellərdən istifadə edir: *əlaqələndir, idarə et, nümayiş etdir, şəkillə təsvir et, hesabla, düzəlt, təcrübədən keçir, tətbiq et, rənglə, hesabla, uzlaşdır, səhnələşdir, qur, uyğunlaşdır.* |
| **Qiymətləndirmə** | Bu zaman şagird yoxlayır, fərziyyələri təsdiq və ya tənqid edir, təcrübədən keçirir, mühakimələr yüyürüdür. Bu zaman müəllim aşağıdakı fellərdən istifadə edir: *seç, nəticə çıxar, sübut et, zəmanət ver, qiymətləndir, araşdırma apar, mübahisə et, qərarı təsdiq et, tənqid et, dəyərləndir, əzbərlə, müqayisə et, topla, müəyyən et.* |

### *"İnkişaf" taksonları sistemi*

| ***Taksonlar*** | ***Taksonların şərhi*** |
|---|---|
| **Analiz** | Obyektin ayrı-ayrı komponentlərini, cəhətlərini, əlaqələrini, münasibətlərinin və s. ayrılması. Şagird öyrənilən informasiyanı daha yaxşı başa düşməkdən ötrü məlumatı bir neçə hissəyə ayırır. Bu proses zamanı müqayisə edir, təşkil edir, yenidən qurur, təyin edir, icmal yazır, tapır, ayırır. Bu zaman müəllim aşağıdakı fellərdən istifadə edir: *müqayisə et, suallar ver, qiymətləndir, təcrübədən keçir, yoxla, gözdən keçir, təhlil et, tədqiqat apar, hesabla, aşkara çıxar, uzlaşdır, tesdən keçir*. |
| **Sintez** | Şagird əvvəlki biliklərinə istinad edərək yeni ideya və fikirlər irəli sürü. Bu prosesdə şagird lahiyə quqrur, plan hazırlayır, məhsul əldə edir, ixtira edir, fikirləşir. Bu zaman müəllim aşağıdakı fellərdən istifadə edir: *tərtib et, formalaşdır, inkişaf etdir, özündən fərziyyə irəli sür, məlumat ver, fikirləş yarat, planlaşdır, bərpa et, təsəvvür et.* |
| **Müqayisə** | Şagird iki və ya bir neçə obyekti müqayisə etmək üçün onları bir-biri ilə qarşılaşdırır, oxşar və fərqli cəhətlərini müəyyən edir, təhlil edir, hər hansı cismi etalonla tutşdurur. Bu zaman o, aydınlaşdırır, ayırır, müqayisə edir,qarşılaşdırır,fərqləndirir, əlamətləri seçir,əsas ideyanı müəyyənedir, oxşadır, nisbəti üzəçıxarır, bənzədir, bərabərləşdirir. Bu zaman müəllim aşağıdakı fellərdən istifadə edir: *seç, oxşat, göstər, müəyyən et, izah et, başa sal, əsas fikri ifadə et, ayırd et, yaz*. |

| | |
|---|---|
| **Ümumiləşdirmə** | Şagird obyektləri müəyyən əlamətlər əsasında qruplaşdırır, hər hansı bir obyekti başlıca əlamətlərinə görə müəyyən anlayışlar sisteminə aid edir, müqayisə olunan obyektlərin ümumi cəhətlərini müəyyənləşdirir. Bu zaman müəllim aşağıdakı fellərdən istifadə edir: *səbəbini tap, uyğunlaşdır, müəyyən et, əlaqə yarat, eyniəşdir, faktları cəmləşdir, qruplaşdır, ümumi nəticə çıxart.* |
| **Mücərrədləş dirmə** | Şagird öyrənilən obyektin hər hansı bir əlamətini fikrən, digər əlamət və cəhətlrdən ayırır, təcrid edir. Bu zaman müəllim aşağıdakı fellərdən istifadə edir: *ayır, izah et, seç, ümumiləşdir, fikir ver, təsəvvür et, təcrid et, təhlil et, ifadə et, müəyyənləşdir*. |
| **Ağlın keyfiyyətləri** | Şagird tənqidi təfəkkürün, fikrin müstəqilliyinin, ağlın dərinliyi, genişliyi, çevikliyi, sürətliliyi və qənaətcilliyinin inkişaf etdirilməsi sayəsində yeni sual, yeni problemi görür və onları irəli sürür, müstəqi həll edir, tənqidi münasibət bildirir, problemin həllinin müxtəlif yollarını tapır. Bu zaman müəllim aşağıdakı fellərdən istifadə edir: *həll et, münasibət bildir, yoxla, sübut et, nəticə çıxar, təyin et, qərar qəbul et, oxşarını tap, proqnoz ver, müqayisə et, təkmilləşdir.* |
| **Koqnitiv və kreativ proseslər** | Təfəkkür, təxəyyül, hafizə və nitqin inkişaf etdirilməsi. Şagird əvvəlki biliklərinə istinad edərək, yeni ideya və məlumatlar irəli sürür. Bu prosesdə artıq o, lahiyəni qurur, plan hazıirlayır, məhsul əldə edir, ixtira edir, fikirləşir, hazırlayır. Bu zaman müəllim aşağıdakı fellərdən istifadə edir: *tərtib et, topla, hərəkət et,məhsul yarat, inkişaf etdirir, təsəvvür et*. |

### *"Mədəniyyət" taksonları sistemi*

| *Taksonlar* | *Taksonların şərhi* |
|---|---|
| ***Hisslər mədəniyyəti*** | Əxlaqi, intellektual və estetik hisslər |
| ***Ünsiyyət mədəniyyəti*** | Verbal və qeyri-verbal ünsiyyət, sosial nəzarət vərdişləri, başqa adamı qavramaq və anlamaq bacarığı |
| ***Mənlik şüuru mədəniyyəti*** | "Mən"in tipologiyası, özünüqiymətləndirmə, iddia səviyyəsi, şəxsiyyətin psixoloji müdafiəsi |
| ***Əxlaqi mədəniyyət*** | Əxlaqi keyfiyyətlər haqqında təsəvvür və anlayışlar, əxlaqi şüurun paradiqmaları |
| ***İradi mədəniyyət*** | İradi aktivliyin özünü tənzimi prosesi kimi.İradi səyin xüsusiyyətləri. Məsuliyyət hissinin iradi təfsiri, iradi keyfiyyətlər |
| ***Milli-mənəvi mədəniyyət*** | Milli-mənəvi dəyərlər. Azərbaycançılıq konsepsiyası. Etnik-mənin xüsusiyyətləri |
| ***Ümumbəşəri mədəniyyət*** | Dünya xalqları tərəfindən qəbul olunmuş dəyərlər sistemi, səmavi kitablarda əks olunmuş dəyərlər, fundamental təbiət qanunları |



Mədəniyyət, tərbiyə, təhsil və inkişafın nəticəsidir. Bu kontekstdə mədəniyyət sadəcə olaraq əsrin estetik şüuarı kimi deyil, ilk növbədə mənəvi-psixoloji şüarı kimi dəyərləndi-rilir. Hisslər, ünsiyyət, mənlik şüuru, və ya iradə kimi həmişə ənənəvi ölçülərlə verilən anlayışlar, yeni baxımda - mədəniy-yət baxımından təhlil edilir. Müəllimlər bu önəmli meyarları nəzərə almalıdırlar. Ənənəvi fenomenlərdən biri iradədir. İra-dəni psixologiyada adətən "psixi proseslər" cərgəsində açıqla-yırlar. İradəni heç vaxt mədəniyyət kontekstində təhlil etmə-

yiblər. Müasir psixologiyada aktivlik konsepsiyası formalaşıb və bu konsepsiyada artıq iradəni aktivliyin təmin edilməsinin başlıca şərti hesab edirlər. İradə mədəniyyətinə yiyələnmədən insan heç bir fəaliyyəti icra edə bilməz. Istər kitab oxumaq, istər xalça toxumağı öyrənmək, istərsə də yanlış hərəkət edən yaxın bir dostunun hərəkətinə dərhal eyni reaksiya verməkdən insanı saxlaya biləcək psixi qüvvə iradədir. Bu mənada iradə mədəniyyətinin alternativi iradə mədəniyyətsizliyidir. Sosial qrupda, məsələn tələbə qrupunda məhz bu mədəniyyətsizlik ucbatından nə qədər normal qrup həyatını pozan konfliktlər meydana çıxır? Mədəniyyət sosial fenomen kimi tarixi prosesdir, maddi-mənəvi dəyər və normalara söykənir, insanın "ikinci təbiəti" hesab olunur. Müasir dünyada təhsil, tərbiyə insan təbiəti ilə bağlı olan bütün məsələlər məhz mədəniyyətin təsirinə məruz qalır və onunla şərtlənir.

Biz təlim məqsədlərinin taksonomiyasını ümumi ölçülərlə səciyyələndirdik. Nəzərdən keçirdiyimiz taksonomiya ayrı-ayrı

fənlər və siniflər üzrə konkretləşdirilməli və yaş xüsusiyyətləri baxımından açıqlanmalıdır. Bu mühüm məsələni müfaiq fənn metodistləri psixoloq və pedaqoqla birlikdə həll etməlidirlər.

Qərb mədəniyyəti kökündə formalaşmış təhsil sistemi tərbiyəyə deyil, təlimə yönəlmişdir. Məktəbin infrastrukturu da tərbiyə işi üçün deyil, məhz təlim işi üçün nəzərdə tutulmuşdur. Adi şüur səviyyəsində də məktəbi həmişə tədris ocağı kimi qavrayıblar. Müəllim də deyəndə bir qayda olaraq hər hansı fənni tədris edən insan nəzərdə tutublar. Halbuki, Şərqdə, türk-islam mədəniyyətində fərdi əxlaqi təkamül, mənəvi mükəmməllik idealı, kamillik həmişə dominant olub və Şərqin təhsil fəlsəfəsinin qızıl fondunu təşkil edib. Şərq təhsil sistemi, insan mənəviyyatının kamilləşməsinə, onun əxlaq və şəriət normalarını mənimsəməsinə, Qərb təhsili isə praktik iş qabiliyyəti olan, müəyyən ixtisas biliyinə yiyələnmiş olan kadrlar yetişdirilməsinə üstünlük verilir. Görünür, Respublikamızda Maarif Nazirliyinin Təhsil Nazirliyi adı ilə əvəz olunması Qərb təhsil sistemini daha çox bəyənməyimiz, tərbiyədən çox təlimə əhəmiyyət verməyimizlə bağlıdır.

Müəllim keçəcəyi hər bir mövzunu təlim taksonlarına uyğunlaşdırmalıdır. Yəni hər bir dərs şagirdi nəyəsə öyrətməli, onu inkişaf etdirməli və onu tərbiyələndirməlidir, yəni müvafiq keyfiyyətlərə yiyələnməlidir. Hər üç takson nəticədə şagirdin şəxsiyyət kimi formalaşması, həyatda özünü gerçəkləşdirə bilməsinə imkan yaratmalıdır.

## 6.2. Modelləşdirilmiş pedaqoji şərait və vəziyyətlər üzrə praktikum

Psixoloq Kurt Levin insan davranışını iki faktorla əlaqələndirirdi: şəxsiyyət və şəxsiyyətin olduğu sosial şəraitlə. Bu düstura (davranış=şəxsiyyət/şərait) əsasən insanın davranış və rəftarının, fikir və hisslərinin necə olması bir tərəfdən şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətlərindən, dünya görüşündən, bilik və bacarığından digər tərəfdən isə düşdüyü və ya fəaliyyət göstərdiyi sosial şəraitdən, vəziyyətdən asılıdır. Hər iki faktor daima vəhdət təşkil edir və qarşılıqlı surətdə biri digərinə təsir göstərir. Bu mənada pedaqoji fəaliyyət zamanı müəllimin şagirdlərlə ünsiyyət zamanı, qarşılıqlı təsir prosesində necə reaksiya verməsi, şagirdi düzgün istiqamətləndirə bilməsi onun pedaqoji ustalığının səviyyəsindən, eləcə də öz peşəsinə psixoloji-pedaqoji və metodiki cəhətdən necə hazır olmasından asılıdır.



Biz də məsələyə bu aspektdən yanaşdıq və pedaqoji fəaliyyət zamanı şagirdlərlə iş apararkən müəllimlərin qarşılaşa biləcəkləri müxtəlif pedaqoji şərait və vəziyyətləri modelləşdirməyi zəruri bildik. Hesab edirik ki, bu vəziyyətlər real məktəb həyatını əks etdirir və təcübəçi tələbələri bu cür şərait və vəziyyətlərə tanış etmək, onlardan daha düzgün çıxış yolunun tapmağı problem kimi onların qarşısına qoymaq nəticədə onların müəllim kimi psixoloji pedaqoji hazırlığ səviyyəsinin yüksəlməsinə kömək edəcəkdir. Digər tərəfdən mümkün pedaqoji şərait və vəziyyətlərlə əvvəlcədən tanışlıq təcrübəçi tələbələrdə qabaqlayıcı adaptasiya imkanı verəcəkdir.

## TESTLƏŞDİRİLMİŞ PEDAQOJİ ŞƏRAİTLƏR

Təlimat: qarşınızda bir sıra mürəkkəb pedaqoji şəraitlər var. Onlardan hər birinin məzmunu ilə tanış olduqdan sonra münasibətinizi bildirin. Bünün üçün seçdiyiniz varianti dairəyə alın.

**Pedaqoji şərait 1.**

Dərsə başlamısınız, hamı sakit olub. Birdən kimsə bərkdən gülməyə başlayır. Siz sualedici baxışla gülən şagirdə baxırsınız. O yenə gülür və deyir: "Mənim həmişə sizə baxanda gülməyim gəlir, siz dərsə başlayanda da gülmək istəyirəm". Necə cavab verəcəksiniz?

1. "Halal olsun".
2. "Gülməli nə var ki?"
3. "Gülmək istəyirsən, gül".
4. "Sənin başın işləmi?"
5. "Şən adamları sevirəm".
6. "Səndə şad əhval-ruhiyyə doğurduğuma görə sevinirəm".



**Pedaqoji şərait 2.**

Dərslər başlayanda, yaxud bir neçə dərsdən sonra şagird sizə deyir: "Mən fikirləşirəm ki, siz bir müəllim kimi bizə nəsə öyrədə bilməyəcəksiniz". Sizin münasibətiniz:

1. "Sənin işin oxumaqdır, müəllimi öyrətmək deyil".
2. "Əlbəttə, sənin kimilərinə mənheç nə öyrədə bilmərəm".
3. "Bəlkə sən digər sinfə keçəsən, yaxud başqa müəllimlə məşğul olasan".
4. "Sən sadəcə oxumaq istəmirsən".
5. "Mənə maraqlıdır, niyə belə düşünürsən?"
6. "Gəl bu barədə söhbət edək, görünür mənim davranışımda səni belə düşünməyə vadar edən nə isə var".

**Pedaqoji şərait 3.**

Müəllim şagirdə tapşırıq verir, o isə tapşırığı yerinə yetirmək istəməyərək bildirir: "Mən bunu etmək istəmirəm!". Müəllimin reaksiyası necə olmalıdır?

1. "İstəmirsən, məcbur edərik".
2. "Daha niyə oxumağa gəlmisən?"
3. "lap yaxşı. Qul özünü öldürdü, dedi, ağaya ziyan vurdum".
4. "Sən dərk edirsən ki, bunun axırı necə olacaq?"
5. "İzah edə bilərsən niyə?"
6. "Gəl oturaq müzakirə edək, bəlkə sən haqlısan".

**Pedaqoji şərait 4.**

Şagird müvəffəqiyyətlərindən razı deyil, öz qabiliyyətlərindən şübhəlidir, nə vaxtsa dərs materialını dərk edə biləcəyinə əmin deyil və müəllimə deyir: "Sizcə mən nə vaxt başqa uşaqlardan geri qalmayacam, nə vaxt yaxşı qiymət alacağam?" Müəllim ona nə cavab verməlidir? 

1. "Düzünə qalsa, əmin deyiləm".
2. "Əlbəttə, buna əmin ola bilərsən".
3. "Sənin yaxşı qabiliyyətin var, mən sənə çox ümid bəsləyirəm".
4. "Sən özünə niyə inanmırsan?"
5. "Gəl söhbət edək, problemləri aydınlaşdıraq".
6. "Bizim səninlə çalışmağımızdan çox şey asılıdır".

**Pedaqoji şərait 5.**

Şagird müəllimə deyir: "Sizin sonuncu iki dərsinizə gəlməyəcəyəm, çünki idman yarışlarına tamaşa etmək istəyirəm (dostlarımla gəzintiyə gedəcəyəm, konsertə tamaşa edəcəyəm, sadəcə dərslərdən istirahət edəcəyəm)". Ona nə cavab verərsiniz?

1. "Gəlmə, sonrasına baxarsan".
2. "Gələn dəfə məktəbə valideynlərinlə birgə gəl".
3. "Bu sənin işindir, imtahanı sən verəcəksən, onsuz da buraxdığın bütün dərsləri səndən soruşacağam".

4. “Mənə elə gəlir ki, sən dərslərə çox məsuliyyətsiz yanaşırsan”.
5. “Bəlkə sən məktəbi atasan?”
6. “Bəs sonra nə edəcəksən?”
7. “Mənə maraqlıdır, görəsən niyə idman yarışlarını dərslərdən üstün tutursan?”
8. “Səni başa düşürəm, əlbəttə idman yarışlarına tamaşa etmək, dostlarla ünsiyyətdə olmaq, istirahət etmək məktəbdə oxumaqdan daha maraqlıdır, lakin mən bilmək istəyirəm, niyə təkcə sənin üçün?”

**Pedaqoji şərait 6**.

Müəllim sinfə daxil olanda şagird deyir: “Çox yorğun görünürsünüz”. Buna müəllim necə reaksiya verməlidir?

1. “Mənə elə gəlir ki, iradın yersizdir”.
2. “Bəli, özümü pis hiss edirəm”.
3. “Mənim qayğıma qalma, öz işinlə məşğul ol”.
4. “Bu gecə pis yatmışam, işim çox idi”.
5. “Narahat olma. Bu, dərsə mane olmayacaq”.
6. “Sən çox diqqətlisən, qayğına görə təşəkkür edirəm”.



**Pedaqoji şərait 7.**

Şagird müəllimə deyir: “Hiss edirəm ki, apardığınız məşğələlər mənə kömək etmir. Ümumiyyətlə bu məşğələləri atacağam”. Müəllim buna necə reaksiya verməlidir?

1. “Düşünməmiş danışma”.
2. “Halal olsun, günahkarı tapdın”.
3. “Bəlkə sən ayrı müəllimlə məşğul olasan?”
4. “Bilmək istərdim, niyə təkcə səndə belə fikir yaranıb”
5. “Bəlkə problemin həlli üzərində birgə çalışaq?”
6. “Bəlkə sənin probleminin hansısa ayrı həlli yolu var?”

**Pedaqoji şərait 8.**

Şagird tam arxayınlıqla müəllimə deyir: “Elə bir şey yoxdur ki, mən onu istəyim və bacarmayım. O cümlədən sizin fənni də mənimsəmək mənim üçün heç nədir”. Müəllimin buna reaksiyası necə olmalıdır?

1. "Özün haqqında çox yüksək fikirdəsən".
2. "Sənin qabiliyyətlərinə şübhə edirəm".
3. "Görünür sən özünü çox arxayın hiss edirsən".
4. "Buna şübhəm yoxdur, bilirəm ki, istəsən hər şey edərsən".
5. "Görünür bu səndən böyük gərginlik tələb edəcək".
6. "Özündən çox razılıq yaxşı hal deyil".

**Pedaqoji şərait 9.**

Müəllimin iradına şagird cavab verir ki, ona dərs materiallarını qavramaq üçün çox da vaxt lazım deyil. "Məni kifayət qədər istedadlı insan sayırlar". Müəllim buna nə cavab verməlidir?

1. "İnanmıram ki, sən eləsən".
2. "Dərslərdə üzləşdiyin çətinliklər, bilik və bacarıqların heç də bunu təsdiq etmir".
3. "Bir çox adamlar özlərini istedadlı sayırlar, lakin həqiqətdə bu belə deyil".
4. "Şadam ki, özün haqqında belə yüksək fikirdəsən".
5. "Bu səni daha da çox zəhmət çəkməyə vadar etməlidir".



**Pedaqoji şərait 10.**

Şagird müəllimə deyir: "Yenə dərsə hazır deyiləm (dəftəri yaddan çıxarmışam, ev tapşırığını yerinə yetirməmişəm və s.)". Buna müəllim necə reaksiya verməlidir?

1. "Yenə də?"
2. "Bu sənə məsuliyyətsizlik kimi görünmür?"
3. "Düşünürəm, sən bu işə daha məsuliyyətlə yanaşmalısan".
4. "Bilmək istərdim, niyə?"
5. "Görünür buna imkanın olmayıb".
6. "Səncə, mən niyə dəfələrlə bunu sənin yadına salıram".

**Pedaqoji şərait 11.**

Müəllimlə söhbətdə şagird deyir: "İstərdim ki, mənə digər uşaqlardan fərqli yanaşasınız". Müəllim şagirdin bu xahişinə nə cavab verməlidir?

1. “Görəsən mən niyə sənə o biri şagirdlərdən yaxşı yanaşmalıyam?”
2. “Heç səni başqalarından fərqləndirmək fikrində deyiləm”.
3. “Özünə yüksək dəyər verən insanlardan xoşum gəlmir”.
4. “Bilmək istəyirəm, nəyə görə sını başqa şagirdlərin arasından seçməliyəm?”
5. “Əgər səni başqalarından daha çox sevdiyimi desəm, özünü yaxşı hiss edəcəksən?”
6. “Necə fikirləşirsən, bəs mən sənə necə münasibət bəsləyirəm?”

**Pedaqoji şərait 12**.

Şagird müəllimə onun tədris etdiyi fənnin mənimsənilməsi ilə bağlı şübhələrini deyir: “Sizə məni narahat edən məsələlər haqqında dedim. İndi siz mənə deyin, bunun səbəbi nədir, çıxış yolu nədir?”. Müəllim buna necə cavab verməlidir?



1. “Mənə elə gəlir ki, səndə çatışmamazlıq kompleksi var”.
2. “Narahatlıq üçün heç bir əsasın yoxdur”.
3. “Öz rəyini deməzdən əvvəl problemin mahiyyətini yaxşı başa düşməliyəm”.
4. “Gəl gözləyək, işləyək və bu problemin müzakirəsinə bir müddət keçəndən sonra qayıdaq, düşünürəm ki, biz onu həll edərik”.
5. “Dəqiq cavab verməyə hazır deyiləm, fikirləşməliyəm”.
6. “Narahat olma, məndə də nə vaxtsa heç nə alınmırdı”.

**Pedaqoji şərait 13**.

Şagird müəllimə deyir: “Sizin dərslərdə zövqlə bağlı dediyiniz və müdafiə etdiyiniz fikirlər xoşuma gəlmir”. Müəllimin cavabı necə olmalıdır?

1. “Sənin zövqün yoxdur”.
2. “Görünür, sənin bundan başın çıxmır”.
3. “Ümidvaram ki, gələcəkdə fikrin dəyişəcək”.
4. “Nəyə görə?”
5. “Bəs sən özün nəyi sevirsən?”
6. “Zövqdə və rəngdə hər kəsin öz seçimi var”.
7. “Sən bilən niyə mən bunu deyirəm?”

**Pedaqoji şərait 14.**

Şagird sinif yoldaşına pis münasibət bəslədiyini nümayiş etdirərək söyləyir: "Mən onunla işləmək (oxumaq) istəmirəm". Müəllim buna necə reaksiya verməlidir?

1. "Nə olsun ki, mənim də çox şeydən xoşum gəlmi".
2. "Nə tələb edirlər, onu da elə".
3. "Bu sənin tərəfindən gülməli hərəkətdir".
4. "Bundan sonra o da səninlə işləmək (oxumaq) istəməz".
5. "Nəyə görə?"
6. "Düşünürəm ki, sən haqlı deyilsən".

| **Vəziyyətlər** | **Seçilmiş variant və onların ballar üzrə hesablanması** | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **№** | **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** |
| **1.** | 4 | 3 | 4 | 2 | 5 | 5 | - | - |
| **2.** | 2 | 2 | 3 | 3 | 5 | 5 | - | - |
| **3.** | 2 | 3 | 4 | 4 | 5 | 5 | - | - |
| **4.** | 2 | 3 | 3 | 4 | 5 | 5 | - | - |
| **5.** | 2 | 2 | 3 | 3 | 2 | 4 | 5 | 5 |
| **6.** | 2 | 3 | 2 | 4 | 5 | 5 | - | - |
| **7.** | 2 | 2 | 3 | 4 | 5 | 5 | - | - |
| **8.** | 2 | 2 | 4 | 5 | 4 | 3 | - | - |
| **9.** | 2 | 4 | 3 | 4 | 5 | 4 | - | - |
| **10.** | 2 | 3 | 4 | 4 | 5 | 5 | - | - |
| **11.** | 2 | 2 | 3 | 4 | 5 | 5 | - | - |
| **12.** | 2 | 3 | 4 | 5 | 4 | 5 | - | - |
| **13.** | 3 | 2 | 4 | 4 | 5 | 4 | 5 | - |
| **14.** | 2 | 2 | 3 | 4 | 4 | 5 | - | - |



"Pedaqoji şəraitlar" testinin nəticələri ballarla hesablanır.

56-70 bal. Pedaqoji ustalığın olması, öz işində məsuliyyətlilik, problemli situasiyaları məharətlə həll etmək, şagirdlərlə ünsiyyəti və lazım olan səviyyədə tənzimləyir, demokratik ünsiyyət tipinə malikdir.

29-55 bal. Pedaqoji ustalıq orta səviyyədədir, şagirdlərlə qarşılıqlı münasibətlərdə bəzən çətinliklər yaranır, onları hə-

mişə yaxşı başa düşmədiyindən tələsik qərarlar verir, problemlərlə üzləşir, avtoritar-liberal ünsiyyət tiöinə malikdir.

14-28 bal. Pedaqoji ustalığın zəif olması, pedaqoji uğursuzluqlar, şagirdlərlə ünsiyyətdə çətinliklər, onları başa düşməmək, anlamamaq, bu nəticə göstərən müəllimlərin məktəbdə işləməsi tövsiyyə olunmur.

***Qeyd: Testləşdirilmiş pedaqoji şərait Səbinə Əlizadə tərəfindən hazırlanmışdır.***

**Səhv düşüncə 1. ”Özünüzü elə aparın ki, güya həmişə hər şeyi bilirsiniz“**

Dərs vaxtı şagirdlərdən biri müəllimə çox çətin bir sual verir. Sualın cavabı müəllimin bilik dairəsindən kənarda olur. O, suala düzgün cavab verə bilmir. Belə olduqda o, sual verən şagirdə acıqla baxır və cavabdan yayınmağa çalışır. Digəri verilmiş sualı yersiz və axmaq hesab edir. Üçüncü birisi sualı qulaq ardına vurur və ya səhv cavb verir.



***Onların inamı:***

1. Mən özümün savadsız kimi göstərə bilmərəm. Belə etsəm gözdən düşərəm.
2. Əgər boynuma alsam kimi nəyi isə bilmirəm, deməli özüm öz əlimlə bu işə yararsız olduğumu təsdiq etmiş olaram.
3. Müəllim şagirdin hər bir sualına cavab verməlidir, yoxsa uşaqlar ona hörmətlə yanaşmazlar.

***A. Daha düzgün m ənalandırma:***

1. Siz “Mən bu sualı bilmirəm” deməklə, heç də özünüzü biabır etmir, əksinə düzgün və səmimi insan olduğunuzu şagirdlərə nümayiş etdirməklə daha çox hörmət əldə etmiş olursunuz. Səmimilik və açıqlıq həmişə diqqətə layiq keyfiyyətdir.
2. Müəllim hər şeyi bilməlidir fikrinin özü doğru deyil.
3. Bu və ya digər məsələdə nəyi isə bilməməyin özü daha dərindən öyrənmək üçün yaxşı stimul rolunu oynayır. Ensiklopedist biliyə malik olan dahi filosofun gəldiyi qənaət belədir: Mən onu bilirəm ki, heç nəyi bilmirəm (Sokrat).

4.”Müəllim hər şeyi bilir‟ fikri stereotip davranış tərzidir və heç də neytral fikir deyil. Bəzi müəllimlərin özlərinin hərtərəfli biliyə, şagirdlərin isə heç nəyi bilməmələri ilə bağlı qəsdən yaratdıqları distansiya, əqli fəaliyyəti stimullaşdırmır, əksinə onu boğur.

5. Bir dəfə şagirdlərdən biri ədəbiyyat dərsində müəllimədən soruşur ki, Urkanava kimdir? Əslində o, bu familiyanı sinif yoldaşlarının baş hərflərini toplamaqla düzəltmişdir. Müəllimə də özünü sındırmamaq üçün cavab verir “Yapon yazıçısı” Cavabı eşidən sinif ucadan gülür. Yəqin ki, o müəlliməni yerində olmaq istəməzdiniz .

***B. Daha düzgün davranış:***

1. “Mən bu barədə dəqiq məlumatım yoxdur, amma söz verirəm ki, gələn dərs izah edim.” “Maraqlı sualdır. Biz hökmən bu məsələyə qayıdacağıq, hələlik isə mövzuya diqqət edək.”

2. Ola bilsin ki, siz nəyi isə yadnıza sala bilmirsiniz. Belə olan halda fikirləşmək və yaxud ipucu əldə etmək üçün verilmiş sualı şagirdlərə ünvanlayın. Məsələn, görək, bu suala Nurlan necə cavab verər?, Ömər sual haqqında nə deyə bilər? Bəs, Şəbnəm bu sual haqqında nə fikirləşir? 

3. Əgər siz həmişə şagirdlərə özünüzü “biləndar” kimi göstərmizsinizsə, hərdən bilmədiyinizi etiraf edin. Görəcəksiniz ki, nəticələr sizin xeyrinizə olacaq, uşaqlar sizə daha çox inanacaqlar.

## Səhv düşüncə 2. ”Səhv etmək olmaz‟

Müəllim cümlə təhlili zamanı səhvə yol verir. Şagird səhvi başa düşür və bunu müəllimə bildirir. Müəllim özündən çıxır. O, şagirdlərin onun haqqında nə düşünəcəkləri ilə bağlı narahatlıq keçirir.

***Onun inamı:***

1. Əgər müəllim səhv etsə, onun haqqında pis fikirləşəcəklər.

2. Səhv etmək- zəiflik əlamətidir.

3. Əgər sən şagirdlərin gözü qarşısında səhv etsən, onlar bunu sənin savadsızlığın kimi başa düşəcək.

4. Əgər səhv etmisənsə, çalış onu ört-basdır edəsən.

***A. Daha düzgün mənalandırma:***

1.Hamı səhv edə bilər. Belə səhvlər mümkündür və başa düşüləndir. Şagirdlərin gözü qarşısında səhv etmək siz fikirləşdiyiniz qədər də dəhşətli vəziyyət deyil.

2. Həmişə haqlı olmaq, heç bir vaxt səhv etməmək fikrində olmaq insanda daxili gərginlik yaradır və insanı öz səhvini və haqsız olmasını gizlətməyə məcbur edir.

3. Əgər siz öz səhvinizi qəbul etmir, onu düzəltmir və yenə də haqlı, səhvsiz olduğunuzda israr edirsinizsə, şübhəsiz nüfuzunuzu zərbə altına qoymuş olursunuz. Səmimi olmağa çalışın. Səhvi etiraf etmək böyüklük və səmimilik əlamətidir.

4. "İş olan yerdə səhv də olar" fikrini uşaqlarla bölüşün. Unutmayın ki, şagirdlər görəndə ki, siz səhvinizi boynunuza alır və onu düzəldirsiniz, sizə daha da hörmətlə yanaşacaqlar.



***B. Daha düzgün davranış:***

1. Yaranmış şəraitindən daha yaxşı çıxmaq və öz nüfuzunu qorumaq məqsədilə belə bir yoldan istifadə etmək olar. "Əhsən, sənə ki, bu səhvi gördün. Mən onu qəsdən buraxmışam ki, görüm sizlər nə dərəcədə diqqətlisiniz." "Səhv o qədər ciddi deyil, mən onu təsadüfən etmişəm" "Uşaqlar bağışlayın, deyəsən mən səhv etmişəm. Onu dəftərinizdə düzəldin, deyəsən bu dəfə biz əməlli-başlı səhv etmişik. Əslində bu belə həll olunmalıydı."

2. Əgər özünüzü gözdən salmaq istəmirsinizsə, onda səs-küy salıb, səhvinizi nəyin bahasına olursa-olsun ört-basdır etməyə çalışmayın.

3. Şagirdlər görəndə ki, siz səhv buraxmaqdan heç də qorxmursunuz, onda sizə daha çox rəğbət bəsləyəcəklər. Belə olmaqla siz həm də onlara səmimi olmağı tərbiyə edir və səhvi etiraf etməyin heç də dəhşətli bir hadisə olmadığını canlı nümunədə göstərirsiniz.

**Səhv düşüncə 3. ”Şagirdin biliyi necə sual verməsində deyil, cavabında bilinir.“**

Müəllim kimya dərsində sınaq şüşəsindəki mayeni şagirdlərə göstərib soruşur: “Bu maye hansı rəngdədir?”

“Belə də tapşırıq yazmaq olar?” (sualdan görünür ki, çalışma səhvdir).

“Sən sual vermə, sənə verilən suala cavab ver. Burada sualı mən verirəm, sən yox.” “Kitablar niyə açıqdır. Bu təzə dəbdir. Deyin görüm Türkmənçay müqaviləsi nə vaxt? və harada? Imzalanıb. Əhmədov! Nə olub?, Yenə də hazır deyilsən? Oxumaq istəmirsən. Sənnən oxuyan olmaz. Otur. Gündəliyini gətir.”

***Onun inamı:***

***1.*** Mən yaxşı bilirəm nəyi və necə soruşum.

***2.*** Təcrübəli müəllim üçün sual problem deyil. O, sual verir, şagirdlər də əgər bilirlərsə cavab verirlər.

***3.*** Mən gözləyə bilmərəm ki, o nə vaxt fikirləşəcək və sonra cavab verməyə başlayacaq.

***4.*** Əsas odur ki, onları suala tutasan. Fikirləşməyin ki, onları nəsə maraqlandırır.

***5.*** Tez-tez sual-cavab etmək şagird hafizəsini qüvvətləndirir.

***A. Daha düzgün mənalandırma:***

1.”Sual nədir?” sual haqqında sual- müəllim tərəfindən heç də birmənalı şəkildə istifadə olunmayan vasitədir. Sualın iki tərəfi var. Sual şagirdi ruhlandıra bilər, sual şagirdin marağını” öldürə” bilər, onu həvəsdən sala bilər.

2. Xalq pedaqoqikasında deyilir: “Sual necədirsə, cavab da elə olar”. Müəllimin sualından, onun necə ifadə etməsindən asılı olaraq şagirdlərin fikri istiqamətlənir və müəyyən məntiqi nəticələrə gəlirlər.

3. Müəlim sinifə sual verir. Birini qaldırır, o bir az düz başlamadı. Onu yerinə otuzdurur və başqasını çağırır. Bu cür proses demək olar ki, bütün siniflərdə ilboyu davam edir. Əslində şagirddən dərhal cavab verməyi tələb etmək düzgün de-

yil. Yalnız əzbərlənmiş materialı bu qayda ilə yada salmaq olar. Düşünmək, müstəqil fikir yürütmək, müəyyən nəticəyə gəlmək və müzakirə olunan məsələ ilə bağlı münasibət bildirmək üçün hökmən şagirdə vaxt vermək lazımdır.

4. Səthi, bayağı suallar şagirdin fənnə olan idrak marağını azaldır.

5. Şagirdlərin fikri fəaliyyəti və əqli inkişafı əsasən düşündürücü suallar sayəsində baş tutur.

***B. Daha düzgün davranış:***

1. Sual vermək qabiliyyətinə yiyələnmək üçün amerikan psixoloqu B.Blumun fikirlərinə diqqət yetirmək məsləhətdir: aşağı səviyyəli suallar nəyi isə yada salmağı, orta səviyyəlilər biliyin tətbiqini, yüksək səviyyəli suallar isə bütün mənimsənilən biliklərin sintezini tələb edir.

2. Yüksək səviyyəli suallardan müəllimin istifadə etməsi zəruridir. Amma, bu heç də o demək deyildir ki, adi suallardan istifadə lazım deyil. İlk vaxtlarda diqqəti cəlb etmək yaxud da motivasiya yaratmaq üçün adi suallardan istifadə etmək daha səmərəli olur. Ona görə də hansı şəraitdə hansı sualdan istifadə etmək müəllimin öz qərarından asılıdır.



3. Sualların tez-tez verilməsi və dərhal onlara cavab verilməsi halı şagirdləri daima gərgin vəziyyətdə saxlayır. Belə halın daima təkrar olunması, şagirdlərin uzun müddət stress şəraitində qalmasına səbəb olur. Sualların imperativ tonda verilməsi şəraitin gərginləşməsinə səbəb olur.

4. Düzgün və düşündürücü suallar təfəkkürün katalizatorudur. Təfəkkür sualdan başlayır. Müəllimin sualları hafizəni yox, təfəkkürü aktivləşdirməlidir.

5. Şagirdlərin sizə və bir-birilərinə sual verməsini dəstəkləyin və onlara "düşündürücü suallar" verməyi öyrədin.

**Səhv düşüncə 4."Qiymət-"çomaq və halva" təlim prosesi"**

- "Qiymət vermədən dərs keçmək-ağıla batan iş deyil".
- "Axı, şagirdlərin qiymət almaqdan xoşları gəlir"
- "Bax, afərin, sən məni sevindirdin. Sənə 5 yazıram".

***Onların inamı:***

1. Hamıya məlumdur ki, bilik qiymətləndirilməlidir. Qiymət yazmadan şagirdi öyrətmək mümkün və düzgün deyil. Əks halda şagird oxumayacaq, müəllim isə məsuliyyət hissini itirəcək.

2. Qiymət uşağı həvəsləndirir və onun özünə qarşı tələbkarlığını artıtır.

3. Şagirdlərin çoxu oxumaq istəmir. Əgər bilsələr ki, oxumadıqlarına görə heç kim onları cəzalandıra, yaxud rəğbətləndirməyəcək, onda heç kim kitab açmaz.

4. Rəğbətləndirilən, mükafatlandırılan şagirdlər onu əldə etməyənlərlə müqayisədə daha yaxşı çalışırlar.

***A. Daha düzgün mənalandırma:***

1. Bizim təhsil sistemimizdə istifadə olunan qiymətləndirmə sisteminin uzun əsrlik tarixi var. Bu sistem bir çox hallarda özünü doğrultmur. Bir çox hallarda jurnalda bilik qrafasına yazdığımız qiymət şagirdin davranışına görə yazılır.



2. Heç fikirləşirsinizmi ki, qiyməti nə iləsə əvəz etmək olar. Müəllimlərin əksəriyyəti unudurlar ki, şagirdin işi keyfiyyət baxımından təhlil olunub qiymətləndirilməlidir. "Bax, afərin, sən məni sevindirdin. Sənə 5 yazıram" fikri alınan qiyməti izah etmir. Belə çıxır ki, şagird müəllimi sevindirsə, 5, sevindirməsə 2 alır. Ən əsas odur ki, müəllim sözlü qiymətləndirmədən istifadə etsin, rəqəmli qiymət köməkçi vasitə olmalıdır.

3. Qiymətin təsiri heç də neytral deyil. Pis qiymət şagirdə, illah da emosional təbiətli şagirdə daha pis təsir göstərir. Uğursuzluq həm də özünüqiymətləndirməni aşağı salır .

4. "İki"nin zərərindən çox danışırlar, amma o da var ki, qiymət almaq əsas məqsəd olanda "beş" lər daha çox mənəvi zədə vurur. Çünki, belə olan halda şagird hər bir öyrəndiyi sözə, qaydaya, cümləyə, misala görə ödəniş, haqq istəyir. Qiymət xatirinə təhsil-şagirdi dolayı vasitələrlə qiymət almağa vadar edir.

5. Uşaq məktəbə qədəm qoyduğu lik gündən başlayaraq, müəllim onu həvəsləndirmək üçün qiymətdən istifadə edir. Qiymətdən həvəsyaradıcı vasitə kimi istifadə etməklə,

biz bəzi hallarda qiyməti təlim fəaliyyətinin mərkəzinə çeviririk. Bilik-inkişaf-tərbiyə isə həmin dairənin kənarına düşür.

***A. Daha düzgün davranış:***

1. Biz tez-tez müəllimlərdən eşidirik: "Uşaqlar qiymət üçün oxuyurlar". Bu düzdür, amma onlar yaxşı qiymət almaq istəyirlər. Elə şagird tapa bilərsinizmi ki, "beş" əvəzinə "iki" almaq istəsin? Əlbəttə ki, yox. Biz sadəcə olaraq qiymətin rolunun bu qədər artmasının əleyhinəyik. Sadəcə olaraq rəqəmli qiymətdənsə daha çox sözlü qiymətdən istifadə edin. Hər bir yazılı qiymətin arxasında duran mənanı sözün köməyi ilə şagirdə çatdıırın. Çalışın ki, şagird nə üçün ona məhz bu qiymət verildiyini başa düşsün.Əks təqdirdə qiymət nə məlumatverici, nə nəzarətedici funksiyanı, nə də motivasiya edici funksiyanı yerinə yetirə bilməyəcək. Ola bilsin ki, əks səmərə versin.

2. Görəsən soruşacaq-yoxsa soruşmayacaq? Keçən dərs cavab verdim, yəqin bu dərs soruşmayacaq. Bu tip suallarla şagirdlər özlərinin riskini azaldırlar. Elə müəllimlər də hiylə işlədir və şagirdləri dərsə hazırlıqsız gələndə yaxalamaq istəyirlər. Bəs görəsən şagirdlərə cavab vermək üçün vaxt seçmək imkan versək nə baş verər? Əla qiymət üçün rüb ərzində 15 yaxşı cavab, ondan yalnız ikisi məqbul səviyyədə ola bilər. Səhv cavablar ümumiyyətlə hesaba alınmır.



3. Şagirdlərdə özünənəzarət və özünüqiymətləndirmə bacarığını inkişaf etdirmək üçün, müxtəlif cür qarşılıqlı yoxlama və nəzarət üsullarından istifadə edin. Bu şagirdlərdə refleksiya hissini inkişaf etdirəcək.

4. Tapşırıqları icra edərkən qiymət verməyin. Çalışın qiymətləndirməni müxtəlif işlərə görə icra edəsiniz: şifahi cavaba, yazılı cavaba, əzbər söylənilmiş, üzündən köçürülmüş və s. Şagirdin qiymətini bütün növ cavablara əsasən müəyyən edilməlidir.

**Səhv düşüncə 5. "Hər şeyi görmək, heç nəyi nəzərdən qaçırmamaq".**

- Səni nə qədər gözləməli olacam? Kitabı aç və bax!

- Sən hara baxırsan? Əllərini niyə gizlədirsən? Nə var orada, ver bura görüm!

- Sən sus, danşma!

- Sakit oturun və səs salmayın!

- Sən hara baxırsan? Dərsə qulaq as!

***Onların inamı:***

- İntizam olmayan məktəb-susuz dəyirmana bənzəyir.

- Əgər sakit oturublarsa, deməli qulaq asırlar.

- Dərsdə müəllim danışanda, milçək uçarsa səsi eşidilməlidir. Əks halda dərs alınmaz!

- Qışqırsan, quzu kimi sakit oturarlar, yox əgər insan kimi rəftar etsən, nizam-intizam itəcək.

***A. Daha düzgün mənalandırma:***

1. Nizam-intizam heç də şagirdlərə tutulan iradların sayı ilə ölçülmür. Hər an irad tutmağa vərdiş edən müəllim heç vaxt intizam yarada bilməyəcək. 

2. Bəzən müəllimə elə gəlir ki, şagirdlər ona qulaq asır. Əslində isə eşitmirlər. Ona görə də biz əvvəl gərək şagirdlərə eşitmək, dinləmək bacarığı aşlamalıyıq ki, sonradan onlardan onu tələb edə bilək. Dərsdə sakitlik kimə lazımdır? Yəqin ki, müəllimə. Dinib-danışmamaq uşaq təbiəti ilə ziddir. Görəsən 5-6 saat şagirddən diqqətli olmağı necə tələb etmək olar? Axı, başqa fənlər də var. Sakitlik, heç də dinclik üçün deyil, iş xatirinə olmalıdır.

3. Halva-halva deməklə ağız şirin olmaz. İmperativ tonda deyilmiş sözlər, şagirdi inandıra bilmir.

4. Müəllimin peşəkar müşahidəçiliyi yalnız görünənənləri görməkdə deyil, həm də görünməyənləri görə bilməkdədir. O, hər şeyi görür, amma üzə vurmur. Müəllim heç də şagirdin hər bir sözünə reaksiya verməməli, bəzən konfliktdən uzaq olmaq üçün, onun söz və hərəkətinə göz yummalıdır.

***B. Daha düzgün davranış:***

1. Müəllimlərin əksəriyyəti sinifdə intizam mühitini imperativ göstərişlər verməklə təmin etməyə çalışırlar. Dərsdə şa-

girdin səssiz-səmirsiz oturmasını tələb etmək heç də həmişə özünü doğrultmur. Qurp şəraitində qarşılıqlı fəallıq, müzakirə, fikir mübadiləsi verbal ünsiyyətlə reallaşdırılır. Ona görə də işgüzar səs-küy fəal dərsin atributudur.

2. Mürəkkəb tapşırıqları güclü şagirdlərə, asan məsələləri isə zəif oxuyanlara həvalə edin. Unutmayın ki, ciddi tapşırıqlar ciddi münasibət tələb edir.

3. Çalışın heç bir söz demədən, dərsdən yayınan şagirdi kənar işdən uzaqlaşdırasınız. Buna fasilə verməklə, qeyri adi sual verməklə yaxud da atmaca atmaqla da nail olmaq olar. İntizamsız şagirdə sakit reaksiya da vermək olar. Yaxşı olar ki, problemi yumorla həll edəsiniz.

4. Müəllim lövhədə yazı yazır. Qəflətən yerə düşən kitab səsi sakitliyi pozur. Müəllim cəld çevrilib "cinayətkarı" görür və deyir: "Bir də belə etsən, sinifdən cəhənnəm ol. Digər şagird şəraiti qiymətləndirir, müəllimin reaksiyasını əsas götürür, qəsdən yoldaşının kitabını yerə salaraq deyir: "Əli, çıx

dərsdən!". Şablon təsir üsullarından uzaq olun, çünki onlar müəllimi çətin vəziyyət salır.

5. "İki verəcəm", "gündəliyə yazacam", "valideynlərinə deyəcəm" və s . arqumentlər şagirdlərdə müvəqqəti kortəbii tabeçilik yaradır. İradlar şəxsiyyətə hörmətlə çatdırılmalıdır. Tələbkarlıq, hörmət hissi ilə vəhdətdə olmalıdır.

## Səhv düşüncə 5. "Yenə də "iki"

"Nə etmək olar?! Həmişəki kimi, iki! Deməli, bütün bunlar sənin üçün azdır?!" "Həsən, çox tənbəl və məsuliyyətsizdir. Doğrusu, ona bu gün "3" yazmaq olardı. Amma, qoy bilsin ki, çox çalışmaq, zəhmət çəkmək lazımdır".

Zəif şagirdlə olan söhbətdən:

- "Əvvəllər pis qiymət alanda ağlayırdım, çox həyəcanlanırdım, heç evə də getmək istəmirdim. İndi isə fərqi yoxdur. Gündəliyə heç gözümün ucu ilə belə baxmıram."

- Və yaxud: "Müəllim, bilmirəm, oxumamışam. İkimi yazın!"

***Onların inamı:***

1. Mən ona başqa qiymət yaza bilmərəm. Lövhəyə çağırıram və əvvəlcədən bilirəm ki, sonrası necə olacaq.

2. Sinifdə intizam yaratmağın və uşaqları oxumağa stimullaşdırmağın ən təsirli vasitəsi- pis qiymətlə cəzalandırmaqdır.

3. Əgər bilsəydim ki, o doğurdanda bacarmır onda məqbul qiymət yazardım. Mən əksinə inanıram ki, bacarır, amma etmək istəmir. Gücü çatdığı halda onu rəğbətləndirməyə dəyərmi?

4. Mən – müəlliməm. Bütün sinif mənə baxır. Hər şeydən əvvəl mən obyektiv olmalıyam. Düzgünlük hər şeydən ucadır.

***A. Daha düzgün mənalandırma.***

1. Böyük pedaqoq V.A.Suxomlinskinin fikirlərinə diqqət yetirin: "Mən, bir çox məktəblərdə sinifdə ikinci ilə qalan və arxa cərgədə oturan hər şeyə etinasız olan, əsəbi, qəmgin və qaşqabaqlı şagirdləri ürək ağrısı ilə yada salıram. Elə etmək olmaz ki, onlar məktəbdən qəddarlaşmış və biliklərə etinasız şəkildə məktəbdən getsinlər. Əgər normal insan heç bir fənn üzrə müvəffəqiyyət qazana bilməyibsə, əgər onun sevimli fənni yoxdursa, deməli məktəb yerində deyil. Təlimdə geri qalan şagirdlərinizi xatırlayın və fikirləşin". 

2. Bəzən şagirdin layiq olduğu pis qiymətlər belə onun özünə olan inamını, gücünü azaldır. Şagird pis qiymətə laqeyd olmağa başlayır və özünün geridə qalması, pis oxuması ilə razılaşır.

3. Qiymət təhlükə və həyəcan mənbəyi olmamalıdır. Lövhəyə çağrılmaq və pis qiymət almaq təhlükəsi olmasa şagirdlər böyük həvəslə sizin dərsinizə girəcəklər. Qiymət, tənbəllik və məsuliyyətsizliyə görə olan cəza yox, zəhmət və əməksevərliyi görə olan mükafat olmalıdır.

4. Həll, axtarış yolunda səhvlərin olması labüddür. Siz şagirdin səhv etmək fürsəti verə bilərsiniz. Pis qiymətlə səhvdən "yan keçmək" olmaz. Səhvi düzəltmək lazımdır.

***B. Daha düzgün davranış.***

1. Özünüzə sual vermisinizmi ki, təlimdə geri qalan, zəif oxuyan şagirdləri başqa cür necə qiymətləndirmək olar? Təlimdə geri qalan şagirdlərin də müəyyən güclü tərəfləri var. İfadə, inşa yazarkən çoxlu səhvlər buraxan şagird ola bilsin ki, məntiqi şəkildə izah etmək, yaxşı təhlil və ümumiləşdirmək qabiliyyətinə malikdir. Diferensiallaşdırılmış qiymət şagirdə özünün güclü tərəfini göstərə bilməsinə və uğur qazanmasına kömək edir. Diferensiallaşdırılımış qiymət –ədalətli müəllimin peşəkar imzasıdır.

2. Razılaşarsınız ki, hər bir şagirdin "güclü" və "zəif" tərəfləri var. Bax, bunu öz işinizdə nə dərəcədə nəzərə alırsınız? Özünüzü yoxlayın. Bundan ötrü hesab edin ki, dərs dediyiniz sinif iki qrupa bölünüb. Bu qruplardan birində siz dərs deyəcəksiniz. A) Öz qrupunuzda görmək istədiyiniz üç nəfər oğlanın və üç nəfər qızın adını qeyd edin. B) qrupunuzda olmasını heç istəmədiyiniz üç nəfər oğlanın və üç nəfər qızın adını

qeyd edin. A) variantında olan şagirdlərin "zəif", b) variantında olanların isə "güclü" tərəflərini təsvir edin. İndi isə zəiflərə özünü sınamaq imkanı verin. Onların "güclü" cəhətlərinə istinad edin.

3. Növbəti mərhələdə qeyri-məqbul qiymətlərdən az istifadə edin. Şagirdin diqqət yetirmədiyi, lakin bilməli olduğu məsələləri ona izah edin, buraxdığı boşluqları göstərin, cəhd göstərməyə həvəs yaradın.

4. Şagirdin uğursuzluğunu onun şəxsiyyətinə bütövlükdə aid etməyin. Yadda saxlayın ki, qiymətin gücü, təsiri hər şeydən əvvəl şagirdin bütövlükdə şəxsiyyətinə deyil, onun ayrı-ayrı tərəflərinin təzahürünə aid olmasından asılıdır. Şagirdi bütövlükdə şəxsiyyətini deyil, onun ayrı-ayrı əməllərini qiymətləndirmək lazımdır. Bu qiymətləndirmənin "qızıl" qaydasıdır. "Sən səliqəsiz adamsan, pintisən" yox "Sən bu tapşırığı səliqəsiz yazmısan", "Sən savadsızsan" yox "Sən bu məsələni düzgün həll etməmisən" deməyiniz daha doğrudur.

5. Hər bir konkret hadisə ilə bağlı şagirdin oxumamasının və hazır olmamasının səbəbinə nüfuz edin. Bilməməyin, hazır gəlməmənin arxasında hansı səbəb dayanır: mövzunu

başa düşməmək, sinif yoldaşları ilə münasibət, öz tənbəlliyi yaxud başqa səbəb. Bir "üç"lə şagirdin bilməməisini və ya özünüzün ayrı-ayrı şagirdlərlə işləmək istəməməyinizi ört-basdır etməyin.

### Səhv düşüncə 6. "Yenə də gecikmə?!"

Zəng vuruldu. Dəhliz boşalmışdır. Şagird tövşüyə-tövşüyə içəri daxil olur. Ətrafa boylanır və sinif qapısına yaxınlaşır. Onun ardınca daha iki şagird də gəlir. Sinif qapısını döyür və içəri keçmək üçün icazə istəyirlər. Müəllim əsəbi halda qapıya yaxınlaşır və qapını dərsə gecikən şagirdlərin üzünə çırparaq bağlayır.

Eləsi var ki, içəri daxil olana fikir vermir və dərsini davam etdirir.

Başqa birisi ittihamlı baxışlarla şagirdə nəzər salır və ona yerini tutmağa icazə verir.

Üçüncüsü, sinifi yaddan çıxarır, nöyüd-nəsihət saatına başlayır.



***Onların inamı:***

1. Eybi yox. Bu gün gecikib. Sabah vaxtında gələr.
2. Souyuq baxışlarımla göstərəcəm ki, onun belə hərəkəti xoşuma gəlmir.
3. Dərsə gecikməyə göz yummaq olmaz. Tənbeh etmək lazımdır ki, bir də gecikməsin.

***A. Daha düzgün mənalandırma.***

1. Gecikən şagird sinifin diqqətini cəlb edir, dərs dəqiqələri də boş-boşuna axıb gedir.
2. Cəzalandırmasan, gecikməyə adət edən şagird bu pis vərdişindən əl çəkə bilməyəcək. Xroniki surətdə dərsə gecikən şagird, sabah işə də gecikməyə hazır olan pis işçi olacaq.
3. Cəza və tənbeh gecikməni aradan qaldırmır. "Gecikmə-cəza", "yenə gecikmə-yenə cəzalandırma" zənciri ardıcıl surətdə davam edir. Gecikməni aradan qaldırmaq üçün onu doğuran səbəbləri araşdırmaq və aradan qaldırmaq lazımdır.

4. Bəzən gecikmələr biz müəllimlərə görə gecikənlərə qarşı vahid tələbin olmaması ilə bağlı olur. Şagirdlər, tələbkar olmayan müəllimlərin dərslərinə daha çox gecikirlər.

***B. Daha düzgün davranış.***

1. İlk növbədə kimlərin hansı dərslərə, hansı günlərdə gecikdiyini müəyyənləşdirin.
2. Sinifə daxil olma sərbəstdir. Sizin tərəfinizdən heç bir irad, heç bir qeyd edilmir: keç otur və işlə. Ancaq qeyd dəftərində müəyyən qeydlər aparamaq lazımdır. Dərsdən sonra sakit halda aydınlaşdırırsınız ki, gecikənlər kimdir: qəsdən, dərsi pozanlardır yoxsa hansısa arzu olunmayan bir şəraitə düşən "qurbanlardır"?
3. "Qəsdən gecikənlər"ə qarşı ən yaxşı tədbir tələbkarlıq və ciddilikdir. Əgər bilsələr ki, onların məktəbə gəlişi müəllimlər tərəfindən xüsusi nəzarətə götürülür onda dərsə gecikmək istəyindən uzaq olacaqlar. Bu cür şagirdlərdə vaxt hissini tərbiyə etmək məqsədilə aşağıdakı çalışmalardan istifadə etmək faydalıdır: birinci dərsdən qabaq növbətçi olmaq, dərs üçün əyani vəsaitləri hazırlamaq və s.
4. Gecikmə hallarının müəyyən edilməsi üzürlü səbəbləri də aşkar etməyə imkan verir. Bəzən şagirdlər özləri istəmədiyi halda da gecikirlər. "Balaca qardaşımı bağçaya aparmışdım", "Evdə saat vaxtı düzgün göstərməmişdir ", "Evin açarını götürməmişdim", "Çörək almağa getmişdim" və s. bu cür hallarda şagirdi başa düşmək lazımdır.



### Səhv düşüncə 7. "Mənim işimə bax, bu özünü dahi sayır!"

**("ünsiyyət-aşağalama" yaxud "ünsiyyət-təhqir")**

Bağlı qapı arxasından eşidilir: "Avara!", "Kobud!", "Tənbəl!", "Axmaq, başıboş!". Bu gedişlə səni çox "parlaq" gələcək gözləyir. Ən yaxşı halda süpürgəçi işinə yaraya bilərsən.

Sənə baxanda fikirləşirəm ki, səninlə heyvanxana sakinləri arasında nəsə bir ümumi yaxınlıq var. Otur yerinə sinifin üz qarası olan qəhrəmanı (sinifdə gülüş səsi və müəllim də özünün atmacalarından razı qalmış halda özünü aparır).

***Onların inamı.***

1. Müəllim də insandır və onun da öz hisslərini ifadə etmək haqqı var. Sizi bir gün belə sinifə buraxsam siz də pedaqogika və psixologiyanı unudardınız.

2. Əgər mən qəzəblənməyimdə səmimiyəmsə, deməli bu cür olmağa əsasım var.

3. Deməli, belə çıxır ki, şagirdə hər şey olar yəni oxumaya, avaralana və dərsdə səs-küy sala bilər. Müəllim isə həmişə "səbirli olmalıdır", "şagirdə hörmətlə yanaşmalıdır", "onu sevməlidir" və s.

4. Birini gülünc vəziyyətə salarsan, onda digərləri də özünü yığışdırar.

***A. Daha düzgün mənalandırılma.***

1. Şagirdin səhv hərəkətinə görə onu təhqir etmək, üstünə qışqırmaq müəllimin münaqişənin produktiv yolla həlli qarşısında gücsüz və zəif olmasının əlamətidir.

2. Aristotel demişdir: "Əgər insan qəzəblidirsə, onun gəldiyi qərar yarasız olacaqdır". Atalar sözündə deyildiyi kimi: "Hirsli başda ağıl olmaz". Yadda saxlamaq lazımdır ki, güclü insan özünə sahib olan insandır. Özündən çıxmaq zəiflik əlamətidir.



3. Sizin xeyirxahlıq kimi xüsusiyyətə olan etinasızlığınız şagirdləri sizə qarşı nəzakətli və hörmətli olmaqdan azad edir. Belə olduqda qazandığınızdan daha çox itirirsiniz.

***B. Daha düzgün davranış.***

1. Pedaqoji təsir üsulu kimi davranış normalarının pozulmasına qarşı neqativ münasibətin ifadə forması olan ittihamla acıqlı, əsəbi olmaq arasında çox böyük fərq var. Yalnız məzəmmət etmək inamın elementlərini özündə əks etdirir və günahkara münasibəti açır.

2. Müəllim öz narazılığını elə yolla bildirməlidir ki, şagird etdiyi hərəkətə görə utansın və peşiman olsun. Tərbiyə özünütərbiyəyə keçdikdə daha səmərəli olur.

3. Müəllimlərdən tez-tez eşidirik: "Artıq özümü ələ ala bilmirəm, əsəblərim dözmür". Axı, pedaqoji ustalığın, peşə-

karlığın ən əsas keyfiyyətlərindən biri özünü ələ ala bilməkdir. Bu xüsusiyyətə yiyələnmək üçün autotreninqlə məşğul olmaq lazımdır. Sakit bir otaqda özünüzü "Mən sakitəm" fikrinə kökləyin. Dərindən burunla nəfəs alın, nəfəsinizi ağızınızdan xaric edin və sakit olduğunuzu fikrən təkrar edin. Tam sakitləşənə qədər məşğələni davam edin. Bu məşqin əlverişli bir otaqda keçirilməsi "sakit" sözü ilə müvafiq şəraitin olması şərti refleksin yaranması üçün əsas şərtdir. Belə olan halda istənilən şəraitdə "Mən sakitəm" fikri sizdə daxili sakitliyi yaradacaqdır. Yaxşı olar ki, bu məşqi tez-tez edəsiniz.

ƏLAVƏLƏR

# PSİXOLOJİ-PEDAQOJİ HİKMƏT XƏZİNƏSİNDƏN

❖ Allah məni bir müəllim olaraq göndərdi. Mən gözəl əxlaqi tamamlamaq üçün göndərildim.

*Məhəmməd peyğəmbər s.v.s*

❖ Elm öyrətdiyiniz və elm öyrəndiyiniz insanlarla yumşaq və mülayim olun!

*Məhəmməd peyğəmbər s.v.s*



❖ Elm xəzinəsinin açarı soruşub öyrənməkdir. Soruşub öyrənin. Çünki soruşduqda dörd adama savab düşər: soruşana, öyrədənə, dinləyənə, bunları sevənə.

*Məhəmməd peyğəmbərs.v.s*

❖ İnsanlara ağılları ölçüsündə söz söyləyin.

*Məhəmməd peyğəmbərs.v.s*

❖ Asanlaşdırın, çətinləşdirməyin! Müjdələyin, nifrət etdirməyin!

*Məhəmməd peyğəmbərs.v.s*

❖ Allah üzün ağ etsin o adamın ki, bizdən bir söz öyrənir və öyrəndiklərini bilməyənlərə öyrədir.

*Məhəmməd peyğəmbərs.v.s*

- Peyğəmbər s.v.s. səhabəsi, Muaz ibn Cəbəli (r.a.) yazır "Elm öyrənin! Həqiqətən elmi Allah xatirinə öyrənmək təqvadır, elm tələb etmək – ibadətdir, elmi müzakirə etmək təsbihdir (Allahı zikr etmək), elm axtarmaq – cihaddır, bilməyənlərə elm öyrətmək sədəqədir. Çünki, məhz elm halal və haramın öyrənilməsi üçün səbəbdir, Cənnət əhlinin yolunu işıqlandıran nurdur, vəhşilər arasında insandır, qəribklikdə isə dostdur, xəlvətdə sənə həmdəmdir, sevinc və kədərində sənə yol göstərən vasitə, düşmənlə mübarizədə silah, dostlar yanında zinətdir. Onunla Uca Allah bir qism insnalara xeyir nəsib edir, onları aparıcı qüvvəyə çevirir və digərləri də onların ardınca gedir, mələklər onları sevir və onları əhatə edir, hər bir canlı və cansız onlar üçün bağışlanma diləyir. Hətta dənizlərdəki balıqlar və qurudakı heyvanlar belə. Elm qəlbləri cəhalətdən oyadır, gözləri də zülmətdən nura açır. Bəndə, elmin fəziləti ilə ən xeyirli insanların dərəcəsinə çatır, dünya və axirətdə olan ən yüksək məqamlara nail olur. Elmdə təfəkkür orucu, müzakirə etmək isə gecə namazını əvəz edir. Onun vasitəsilə qohumluq əlaqələri möhkəmlənir. Elm hər bir əməlin imamı hesab olunur və əməl də ona tabe olur. Elmə nail olan insan xoşbəxt, ondan məhrum olan isə bədbəxt olur.



- Sizin biliyiniz qarşıdakının anladığı qədərdir.

- Düzgün qiymət düzgün qan dövranına bənzəyir, qan dövranı düzgün olmayanda durğunluq və xəstəliklər baş verir. Qan dövranı bədənin digər sistemləri üçün nə qədər vacibdirsə, qiymətləndirmə də istənilən uğurlu və səmərəli fəaliyyət üçün bir o qədər vacibdir.

- İstedadlı uşaqlar milli-mənəvi sərvətdir. Onların qabiliyyət və istadadlarının vaxtında üzə çıxarılması, müəyyən olunması, işıqlı yola çıxarılması adi güzəran məsələsi deyildir, köklü mili məsələdir və onun mahiyyəti milli-mənəvi sərvət ölçüləri ilə qiymətləndirilməlidir.

*Əbdül Əlizadə*

- ❖ Şagirdin tələbat-motivasiya sahəsini formalaşdırmaq, onun özünü aktuallaşdırması üçün əlverişli şərait yaratmaq tədris fəaliyyətinin səmərəli olması üçün əsas şərtdir.

*Abraham Maslou*

- ❖ Adi müəllimin bilikləri şagirdlərə hazır şəkildə çatdırır, yaxşı müəllim isə biliyi tapmağın yolunu öyrədir.

*A.Disterverq*

- ❖ Biliyi yaddaşa görə deyil, mühakiməyə görə qiymətləndirmək lazımdır.

*L.N.Tolstoy*

- ❖ Məktəb şagirdin yaxşı oxuya bilməsi və yaxşı oxumaq istəməsi üçün şərait yaratmalıdır.



*M.N.Berulava*

- ❖ Yer üzündə başqa adama təsir göstərməyin yeganə üsulu həmin adamın istəyi haqqında danışmaq və həmin istəyə nail olmağın yolunu öyrətməkdir.

*D.Karnegi*

- ❖ "Maraqlı tədris fənni" şagirdin bu və ya digər təhrikedici motivilə əlaqədar olaraq onun "məqsəd sahəsinə" çevrilmiş tədris fənnidir.

*A.N.Leontyev*

- ❖ Əgər biz atı su axurunun yanına gətirə biliriksə, uşağı da bu qaydada məktəbə göndərə bilərik.Lakin atı su içməyə məcbur edə bilmədiyimiz kimi uşağı da,əgər o bunu istəmirsə, oxumağa məcbur edə bilmərik.

*Q.Ayzenk*

- Əgər şagird uğurlarının və ya uğursuzluqlarının onun özündən asılı olduğunu, onun nəzarəti altında olduğunu güman edirsə, o, müvəfəqiyyət əldə etmək üçün daha çox səy göstərir.

*P.Massen*

- Mənə de - unudum, göstər - yadda saxlayım, cəlb et - öyrənim.

*Çin hikməti*

- Baş boş olanda mühakimə yürütmür.

*Qədim yunan hikməti*

- Təfəkkür adətən problem və ya sualdan, heyrətdən və şübhədən, ziddiyyətdən başlayır. Şəxsiyyətin fikri prosesə cəlb olunması problem situasiya ilə müəyyən olunur.



*S.L.Rubinşteyn*

- Fikri əməliyyatların mənimsənilməsi uşaqların əqli inkişafının nüvəsini təşkil edir.

*J.Piaje*

- Həyat velisoped üzərində gəzintiyə bənzəyir, tarazlığı saxlamaq üçün mütləq hərəkət etməlisən.

*A.Eynşteyn*

- Biz hamımız dahiyik. Əgər siz balığı ağaca dırmanmaq qabiliyyətinə görə mühakimə edərsənizsə, o bütün ömrü boyu özünü axmaq kimi hiss edərək yaşayacaq.

*A.Eynşteyn*

- Təlim prosesində konkretdən mücərrədə yüksəlmə şagirdin empirik təfəkkürünü, mücərrədən konkretə yüksəlmə isə nəzəri təfəkkürü inkişaf etdirir.

- Təkrar biliyin ögey, tətbiq isə doğma anasıdır.

- Hafizə məqsəd deyil, təfəkkür və təxəyyül üçün vasitədir.

- Diqqət hafizənin kəsici dişidir.

- Həyatda uğursuzluq yoxdur! Sadəcə nəticə vardır. Nəticədən öyrənin.

- Dəyişmək ya da acı çəkmək! Bu bir insan seçimidir.

- Çevik düşünən hər zaman qazanır.



- Zehin və bədən birlikdə çalışır və daima bir-birinə təsir göstərir.

- İnsanların reaksiyası onların daxili dünyasına uyğun olur.

- Kommunikasiyanın mənası – yaratdığı cavab reaksiyasıdır.

- İnsanlar öz həyatlarını özləri şəkilləndirir.

- İnsan dəyişə bilmək üçün bütün qaynaqlara sahibdir.

- Seçim azadlıqdır! Seçimsizlik isə köləlik!

- Birinin etdiyini başqası da edə bilər.

- Məna kontekstdən asılı olur.

- Şəxsiyyət və davranış fərqli hadisədir. Biz davranışımızdan daha çox məzmun kəsb edirik.

## Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları

### 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasında ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları) (bundan sonra - dövlət standartları) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən hazırlanmışdır.

1.2. Dövlət standartları aşağıdakıları müəyyən edir:

- ümumi təhsilin məzmununu;
- ümumi təhsilin idarə olunmasını;
- ümumi təhsilin maddi-texniki və tədris bazasını;
- ümumi təhsilin infrastrukturunu;
- ümumi təhsil sistemində təhsilverənlərin keyfiyyət göstəricilərini;
- ümumi təhsil sistemində təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsini.



### 2. Ümumi təhsilin məzmunu

2.1. Ümumi təhsilin məzmunu fərdin, cəmiyyətin, dövlətin maraq və tələbatlarını, milli və ümumbəşəri dəyərləri əks etdirməklə, humanistlik, dünyəvilik, varislik, inteqrativlik prinsipləri əsasında müəyyən edilir.

2.2. Ümumi təhsilin məzmunu təhsilalanların yaş, fizioloji, psixoloji xüsusiyyətləri nəzərə alınmaqla, onların dünyagörüşünün və şəxsiyyətinin formalaşmasını, bazar münasibətlərinin tələblərinə uyğun zəruri bilik və bacarıqlara yiyələnməsini, əqli, fiziki, mənəvi, estetik inkişafını, müstəqil əmək və təhsil həyatına hazırlanmasını, cəmiyyətin faydalı və məhsuldar üzvünə çevrilməsini təmin edir.

2.3. Ümumi təhsilin məzmununa dair ümumi tələblər aşağıdakılardır:

- təhsilin məzmununu təhsilalanın və cəmiyyətin tələbatına, dövlətin təhsil siyasətinə uyğunlaşdırmaq;
- məzmunu nəticəyönümlülük, şəxsiyyətyönümlülük, şagirdyönümlülük, inteqrativlik prinsipləri əsasında müəyyənləşdirmək;

- təhsilalanların təlim marağını, potensial imkanlarını, sağlamlığının təhlükəsizliyini nəzərə almaqla onlara davamlı inkişaflarını təmin edən, müstəqil həyatda lazım olan zəruri biliklərin və əqli, informativ-kommunikativ, psixomotor bacarıqların aşılanmasını təmin etmək;
- təhsilin məzmununa şagirdlərin ümumi inkişafına xidmət etməyən, tətbiqi xarakterdə olmayan, məzmunu ağırlaşdıran məlumatyönümlü məsələlərin daxil edilməsinə yol verməmək.

**3. Ümumi təhsilin idarə olunması**

3.1. Ümumi təhsilin idarə olunması hesabatlılıq, məsuliyyətin bölüşdürülməsi və inkişafın monitorinqi prinsipləri əsasında həyata keçirilir.

3.2. Hesabatlılıq nəticə etibarilə ümumi təhsilin həyata keçirildiyi müəssisədə kollektivin hər bir üzvünün tapşırılmış iş sahəsində cavabdehliyini təmin edir. Ümumi fəaliyyətin müntəzəm hazırlanan və müzakirə edilən hesabatlarda əks olunması müəssisədə hər bir fərdin vəzifə funksiyalarına məsuliyyətlə yanaşmasında mühüm rol oynayır.



3.3. Məsuliyyətin bölüşdürülməsi ümumi təhsilin idarə olunmasında demokratiklik, sistemlilik və şəffaflıq yaradan mühüm amil kimi meydana çıxır, ümumi fəaliyyətin səmərəli planlaşdırılmasına və nəzərdə tutulan tədbirlərin icrasına çevik nəzarət mexanizminin müəyyənləşdirilməsinə xidmət edir.

3.4. İnkişafın monitorinqi mövcud idarəetmə sisteminin məqsəd-yönlülük səviyyəsini aşkara çıxarmaq və irəliləyişlərin dinamikasını müəyyən etməklə, planlaşdırma və icra sistemində zəruri dəyişikliklər aparılmasını təmin edir.

3.5. Ümumi təhsilin idarə olunması dövlət-ictimai xarakter daşıyır.

3.6. Ümumi təhsil müəssisələrində ali idarəetmə orqanı Pedaqoji Şura hesab olunur. Pedaqoji Şuranın Əsasnaməsi Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilir.

3.7. Pedaqoji Şura iclaslarında, əsasən, təhsil sahəsində dövlət siyasətinə uyğun olaraq, təlim-tərbiyə prosesinin təşkili

və həyata keçirilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsi, idarəetmənin təkmilləşdirilməsi, innovativ pedaqoji ideyaların məktəbdə tətbiqi, müəssisədə sağlam psixoloji mühit və təhlükəsiz şərait yaradılması, maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi ilə əlaqədar aktual məsələlər, ümumi fəaliyyətin yaxşılaşdırılması istiqamətində təkliflər və hesabatlar müzakirə olunaraq, müvafiq qərarlar qəbul edilir.

3.8. İdarəetmədə demokratikliyi və şəffaflığı daha da yüksəltmək məqsədi ilə ümumi təhsil müəssisələrində ictimai əsaslarla fəaliyyət göstərən özünüidarə orqanları (məktəb şurası, qəyyumlar, himayəçilər şuraları, metodik şura, valideyn-məktəb assosiasiyası, valideyn komitəsi, uşaq parlamenti, qanunvericilik əsasında fəaliyyət göstərən uşaq və gənclər təşkilatlarının orqanları) yaradıla bilər.

3.9. Ümumi təhsil müəssisəsinə rəhbərliyi qanunvericiliklə müəyyən edilmiş qaydada təyin edilmiş direktor həyata keçirir. Direktorun vəzifə funksiyaları ümumi təhsil müəssisəsinin nizamnaməsi ilə müəyyən edilir.



**4. Ümumi təhsilin infrastrukturu**

4.1. Müəyyən edilmiş dövlət standartlarına uyğun keyfiyyətli ümumi təhsil almaq üçün müvafiq infrastrukturun yaradılması mühüm şərt hesab edilir.

4.2. Ümumi təhsilin infrastrukturuna təhlükəsiz təhsil şəraiti, pedaqoji kadrlarla təminat, təhsil fəaliyyəti üçün zəruri imkanlara malik binalar, yardımçı bina və qurğular, sadə idman meydançası və qurğuları, müvafiq kadrlarla təmin olunmuş tibb, iaşə obyektləri, kitabxana, rabitə, su, istilik, elektrik sistemləri, internet xidməti daxildir.

**5. Ümumi təhsilin maddi-texniki və tədris bazası**

5.1. Ümumi təhsil üzrə dövlət təhsil proqramlarının (kurikulumların) yerinə yetirilməsinə əlverişli şərait yaratmaq məqsədi ilə ümumi təhsil müəssisələri zəruri maddi-texniki və tədris bazasına malik olmalıdır.

5.2. Ümumi təhsil müəssisəsinin maddi-texniki və tədris bazasına təchiz olunmuş tədris laboratoriyaları, emalatxana-

lar, idman və akt zalları, təhsilalan və təhsilverənlər üçün mebel avadanlığı, informasiya-kommunikasiya texnologiyaları, audio-vizual avadanlıqlar, tədris-əyani vəsaitləri, təlimin texniki vəsaitləri, dərslik və elmi-bədii ədəbiyyat fondu daxildir.

**6. Ümumi təhsil pilləsində təhsilverənlərin keyfiyyət göstəriciləri**

6.1. Ümumi təhsilin həyata keçirildiyi müəssisələrə, bir qayda olaraq, pedaqoji ali təhsilli mütəxəssislər qəbul edilirlər.

6.2. Pedaqoji kadrlar ümumi təhsil müəssisələrində işə bilavasitə öz ixtisasları üzrə qəbul olunurlar.

6.3. Zəruri hallarda ucqar yaşayış ərazilərində yerləşən ümumi təhsil müəssisələrində pedaqoji orta-ixtisas təhsilli şəxslərin qəbuluna, habelə ixtisaslı pedaqoji kadr çatışmadığı hallarda məzmun və mahiyyət etibarilə yaxın fənlərin müvafiq ixtisas müəllimi tərəfindən tədrisinə yol verilir.

6.4. Cinayət məsuliyyətinə cəlb olunmuş təhsilverənlərin pedaqoji fəaliyyəti davam etdirmələri, habelə səhhətinin vəziyyətinə görə təhsilverənlərin təlim-tərbiyə müəssisəsində fəaliyyətdən kənarlaşdırılması müvafiq qanunvericilik aktları ilə tənzimlənir.



6.5. Ümumi təhsil sistemində çalışan təhsilverənlər, əsasən, aşağıdakı keyfiyyət göstəricilərinə malik olmalıdırlar:

- ixtisası üzrə dövrün tələbatına uyğun elmi-nəzəri biliklərə;
- uşaqlarla həssas ünsiyyətqurma və iş bacarığına;
- əxlaqi-mənəvi keyfiyyətlərə, pedaqoji etika və mədəniyyətə;
- əməkdaşlıq, tədqiqatçılıq, özünütəhsil və idarəçilik bacarıqlarına;
- yaradıcılıq və sağlam rəqabət tələb edən layihələrdə, müsabiqə və innovativ proqramlarda iştirak etmək qabiliyyətinə;
- öz fəaliyyətini təqdim etmək və qabaqcıl pedaqoji təcrübələrdən bəhrələnmək bacarığına;
- ədalətlilik, məsuliyyətlilik, cavabdehlik keyfiyyətlərinə;
- işlədiyi məktəbdə və ictimaiyyətdə hörmətə və nüfuza.

- Təhsilverənlərin keyfiyyət göstəriciləri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən attestasiya qaydalarına əsasən müəyyən edilir.

**7. Ümumi təhsil pilləsində təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsi**

7.1. Ümumi təhsil pilləsində təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsi ümumi təhsilin hər bir səviyyəsi üzrə təsdiq olunmuş təlim nəticələri və fənlər üzrə məzmun standartları ilə müəyyən edilir.

7.2. Təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsini müəyyən edən təlim nəticələri və məzmun standartları aşağıdakı tələbləri ehtiva edir:

- fərdin, dövlətin, cəmiyyətin maraq və tələbatının ödənilməsi;
- təhsilin nəticəyönümlülük, şagirdyönümlülük, inteqrativlik prinsipləri əsasında qurulmasına didaktik zəmin yaradılması;
- təhsilalanların həyati bacarıqlara yiyələnməsinin prioritet hesab edilməsi;
- keyfiyyətli təhsil almaq üçün hamıya bərabər imkanların yaradılması;
- təhsil səviyyələri üzrə təhsil proqramlarında (kurikulumlarda) varisliyin təmin olunması;
- şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə müvafiq standartların müəyyən edilməsi üçün etibarlı əsas yaradılması;
- təhsilalanların sağlamlığının qorunması məqsədi ilə ağırlaşdırıcı tədris materiallarının təlim prosesinə gətirilməsinin qarşısının alınması.



**8. Təhsil proqramı (kurikulum)**

8.1. Ümumi təhsil üzrə təhsil proqramında (kurikulumda) aşağıdakılar əhatəli şəkildə göstərilir:

- ümumi təhsilin səviyyələri üzrə təlim nəticələri və məzmun standartları;
- ümumi təhsilin hər bir səviyyəsində tədris olunan fənlər;

- ümumi təhsilin səviyyələri üzrə həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarı;
- ümumi təhsil sistemində pedaqoji prosesin təşkili prinsipləri;
- təlim nailiyyətlərinin (nəticələrinin) qiymətləndirilməsi və monitorinqi.

8.2. Baza tədris planları və proqramları Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilir.

**9. Ümumi təhsilin səviyyələri üzrə təlim nəticələri**

9.1. İbtidai təhsil üzrə ümumi təlim nəticələri

- İbtidai təhsili başa vurmuş şagird aşağıdakıları bacarmalıdır:
- yaşına uyğun bədii, elmi-kütləvi və məlumat xarakterli mətnləri müəyyən edilmiş qaydada oxumağı;
- oxuduğu mətndəki əsas məzmunu ayırmağı və ona öz fikrini bildirməyi;
- lüğətlərdən, məlumat xarakterli vəsaitlərdən, kompüter texnikasından istifadə etməyi;
- öz fikirlərini şifahi və yazılı formada aydın ifadə etməyi;
- məntiqi düşünməyi, fikir irəli sürməyi, başqasının fikrinə münasibət bildirməyi;
- zəruri riyazi bilikləri həyatda tətbiq etməyi, sadə alqoritmləri yerinə yetirməyi;
- müşahidə etdiyi obyekt və hadisələri təsvir etməyi, onları səciyyəvi əlamətlərinə görə fərqləndirməyi;
- ünsiyyət qurmağı, əməkdaşlıq etməyi, komanda, kollektiv tərkibində fəaliyyət göstərməyi;
- sadə mədəni davranışı, şəxsi gigiyena və zəruri təhlükəsizlik qaydalarına əməl etməyi;
- müəyyən olunmuş normativlər çərçivəsində fiziki hərəkətləri, bədii-estetik qabiliyyətini nümayiş etdirməyi, sadə əmək vərdişlərini tətbiq etməyi;
- öz hüquqlarını müdafiə etməyi, başqasının hüquqlarına hörmət etməyi;

- insanlara, təbiətə, şəxsi və dövlət əmlakına, başqasının əməyinə həssas, qayğıkeş və ədalətli münasibət göstərməyi;
- Azərbaycan xalqının əxlaqi-mənəvi dəyərləri, tarixi, mədəniyyəti, incəsənəti, görkəmli şəxsiyyətləri haqqında qazandığı ilkin bilikləri, habelə ölkəsinə qarşı əks mövqedə olan qüvvələri sadə formada təqdim etməyi;
- Xarici dildə sadə ünsiyyət bacarıqlarına yiyələndiyini nümayiş etdirməyi.

9.2. Ümumi orta təhsil üzrə ümumi təlim nəticələri

Ümumi orta təhsili başa vurmuş şagird aşağıdakıları bacarmalıdır:

- dinlədiyi və oxuduğu müxtəlif üslubda və janrda olan mətnləri təhlil etməyi, onların məzmununu yığcam, həm də qismən geniş formada başqasına çatdırmağı;
- nitqin monoloq və dialoq formalarından istifadə etməyi;
- plan, tezis, icmal tərtib etməyi, layihə, rəy hazırlamağı;
- nümunələr və dəlillər vasitəsilə fikirlərini məntiqi cəhətdən əsaslandırmağı, müxtəlif fikirlərdə ifadə olunan başlıca məqamları ümumiləşdirməyi;
- hesablamalar və proqnozlaşdırma aparmağı, riyazi dildən istifadə etməyi, alqoritmlər qurmağı, ehtimallar irəli sürməyi;
- ətraf aləmi dərk etmək üçün müşahidə, ölçmə, hesablama, təcrübə, qiymətləndirmə üsul və vasitələrindən istifadə etməyi;
- təbiətdəki əsas qanunauyğunluqların mahiyyətini və onların qarşılıqlı əlaqəsini izah etməyi;
- müxtəlif fakt, mülahizə və dəlilləri müqayisə, təsnif və təqdim etməyi;
- təlim prosesində yaradıcılıq tələb edən işləri müstəqil yerinə yetirməyi;
- təlim tapşırıqlarını yerinə yetirmək üçün müxtəlif informasiya mənbələrindən (lüğətlər, ensiklopediyalar, kompüter, internet, dövri mətbuat və s.) istifadə etməyi;

- öz imkanlarını, meyil və marağını şüurlu olaraq müəyyən etməyi, iradi və qeyri-iradi keyfiyyətlərini nümayiş etdirməyi;
- gördüyü işlərin nəticəsini qiymətləndirməyi, qarşılaşdığı problemlərin optimal həllini tapmağı;
- sadə formada icraçılıq, təşkilatçılıq və idarəetmə bacarıqlarını nümayiş etdirməyi;
- ictimai davranış, habelə müvafiq təhlükəsizlik və tibbi-gigiyena qaydalarına, sağlam həyat tərzi normalarına əməl etməyi;
- milli, əxlaqi-mənəvi, hüquqi, etik, estetik dəyərlərə, vətəndaşlıq mövqeyinə, liderlik keyfiyyətlərinə malik olduğunu nümayiş etdirməyi;
- problemlərin həllində birgə fəaliyyət göstərməyi, kollektiv iş prosesində özünün və başqalarının fəaliyyətini qiymətləndirməyi;
- xarici dildə ünsiyyət qurmağı;
- ana dilində yazılı və şifahi ünsiyyət bacarıqlarına yiyələndiyini, ölkəsinin ədəbiyyatı, tarixi, mədəniyyəti, incəsənəti, görkəmli şəxsiyyətləri barədə, habelə vətəninə qarşı əks mövqedə dayanan qüvvələr haqqında müvafiq məlumatlara malik olduğunu nümayiş etdirməyi.



9.3. Tam orta təhsil üzrə ümumi təlim nəticələri

Tam orta təhsili başa vurmuş şagird aşağıdakıları bacarmalıdır:

- dinlədiklərinə və oxuduqlarına tənqidi və yaradıcı münasibət bildirməyi, maraq dairəsinə görə onları yeni məlumatlarla zənginləşdirməyi;
- nitqin müxtəlif formalarından məqamına görə istifadə etməyi;
- fikirlərini yazılı formada ifadə etməyi, yaradıcı yazılar (esse, müşahidə və təəssürat xarakterli yazılar və s.) yazmağı;
- ictimai həyatda baş verən hadisələrə və sosial-mədəni sahələrdəki yeniliklərə yaş səviyyəsinə uyğun olaraq münasibət bildirməyi;

- maraq dairəsinə görə müstəqil məlumatlar toplamağı, onları sistemləşdirməyi, təhlil və tətbiq etməyi;
- informasiya-kommunikasiya texnologiyalarından həyat fəaliyyətinin təşkili istiqamətində istifadə etməyi;
- qarşılaşdığı həyati problemləri qiymətləndirməyi və onların həlli istiqamətində optimal qərarlar qəbul etməyi;
- potensial imkanları daxilində mövcud bilik və bacarıqlarını təkmilləşdirməyi, mədəni və intellektual səviyyəsini yüksəltməyi;
- insan əməyini, vətəndaşların hüquq və azadlıqlarını dəyərləndirməyi, milli əxlaqi-mənəvi dəyərlərə, habelə ümumbəşəri dəyərlərə həssas və tolerant münasibət bəsləməyi;
- xarici dildə (dillərdə) ünsiyyət saxlamağı;
- icraçılıq, təşkilatçılıq və idarəetmə ilə bağlı funksiyaları yerinə yetirməyi və bu proseslərdə liderlik xüsusiyyətlərini nümayiş etdirməyi;



- ana dilində yazılı və şifahi nitq mədəniyyətinə yiyələndiyini, ölkəsinin ədəbiyyatı, tarixi, coğrafiyası, görkəmli şəxsiyyətləri, habelə Vətənin mənafeyinə qarşı olan əksqüvvələr haqqında ətraflı məlumatlara malik olduğunu nümayiş etdirməyi.

**10. Ümumi təhsilin səviyyələri üzrə məzmun standartları**

10.1. İbtidai təhsil səviyyəsində məzmun standartları

***"Azərbaycan dili" (təlim Azərbaycan dilində olan məktəblərdə), "Rus dili" (təlim rus dilində olan məktəblərdə), "Gürcü dili" (təlim gürcü dilində olan məktəblərdə) fənləri üzrə şagird:***

- danışanın fikrinə münasibət bildirir, öz fikirlərini sərbəst və ardıcıl ifadə edir;
- düzgün, sürətli, şüurlu, ifadəli oxuyur, oxuduğu mətnlərə münasibət bildirir;
- kiçikhəcmli rabitəli mətnlər qurur;
- lüğətlərdən, məlumat kitablarından istifadə edir;

- Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi dəyərləri, incəsənəti, adət-ənənələri haqqında öyrəndiyi məlumatları sadə formada təqdim edir;
- yazılı və şifahi nitqində fonetik, leksik, qrammatik qaydalara yiyələndiyini nümayiş etdirir.

**"Azərbaycan dili"(dövlət dili kimi)* fənni üzrə şagird:**

- dinlədiyi fikirləri anladığını nümayiş etdirir;
- müşahidə etdiyi əşya və hadisələri təsvir edir;
- kiçikhəcmli mətnləri düzgün və sürətli oxuyur, məzmununu izah edir;
- söz birləşməsi və cümlə modellərindən kiçikhəcmli şifahi və yazılı mətnlər qurur;
- dialoqlarda zəruri nitq etiketlərinə yiyələndiyini nümayiş etdirir; məlumat xarakterli kiçikhəcmli mətnləri lüğət vasitəsilə tərcümə edir.



**"Xarici dil" fənni üzrə şagird:**

- dinlədiyi fikrin məzmununu izah edir;
- gündəlik həyatda və məişətdə istifadə olunan əşyaları, onlara aid əlamət və hərəkətləri adlandırır;
- sadə nitq etiketləri əsasında ünsiyyət yaradır, süjetli şəkillər üzrə nitq nümunələri qurur;
- ana dili ilə müqayisədə öyrəndiyi dilin fərqli səslərini ayırır və tələffüz edir;
- kiçikhəcmli mətnləri oxuyur və məzmununu izah edir;
- öyrəndiyi söz birləşməsi və cümlə modelləri əsasında kiçikhəcmli şifahi və yazılı mətnlər qurur;
- qarşılaşdığı yeni sözlərin mənasını lüğət vasitəsilə müəyyən edir.

**"Riyaziyyat" fənni üzrə şagird:**

- sıfır da daxil olmaqla, milyon dairəsində natural ədədlər üzərində hesab əməllərini yerinə yetirir;
- kəmiyyətlərdən (uzunluq, sahə, həcm, zaman, kütlə, dəyər) həyati məsələlərin həllində istifadə edir;

- sadə müstəvi fiqurlar və fəza cismlərinin xüsusiyyətlərini müəyyən edir və onların əsasında ölçmə və hesablamalar aparır;
- məlumatları toplayıb sistemləşdirir, təhlil edir və nəticələri şərh edir.

**"İnformatika" fənni üzrə şagird:**
- eynicinsli obyektlər qrupunda əşyanı artıq seçir, onları əlamətlərinə görə ayırır və müqayisə edir;
- hərəkətlər ardıcıllığında buraxılmış addımı müəyyən edir;
- qanunauyğunluqları müəyyən edir və onların əsasında modellər qurur;
- sadə riyazi alqoritmlər və layihələr tərtib edir;
- kompüterdə sadə əməliyyatları icra edir;
- qrafik redaktorda rəsmlər çəkir, onları redaktə edir, rəsmlərə mətn daxil edir, alqoritmlərdən istifadə edərək mozaikalar qurur;
- mətn redaktorunda sadə mətnlər yığır, redaktə edir və onlara rəsmlər daxil edir.



**"Həyat bilgisi" fənni üzrə şagird:**
- öz hüquqlarını dərk etməsini, başqalarının hüquq və azadlıqlarına hörmətlə yanaşmasını, insanlara, təbiətə, ekologiyaya həssas və qayğıkeş münasibət bəsləməsini nümayiş etdirir, həmin məsələlərlə bağlı şəxsi fikirlərini bildirir;
- insan həyatı və sağlamlığının qorunması ilə bağlı ən zəruri təhlükəsizlik qaydalarını izah edir;
- mənəvi keyfiyyətlərin (düzlük, ədalətlilik, humanistlik, rəhmdillik) mahiyyəti barədə mülahizələrini şərh edir, şəxsi həyatında bu keyfiyyətlərə əməl etdiyini nümayiş etdirir;
- iqtisadi biliklərdən məişətdə istifadə edir;
- təbiət hadisələri üzərində müşahidələr aparır və onlara münasibət bildirir;

- cəmiyyətdə baş verən hadisələri, insan-təbiət, insan-cəmiyyət münasibətlərini öz yaş səviyyəsinə uyğun şərh edir.

**"Texnologiya" fənni üzrə şagird:**

- materialları müqayisə edir və çeşidləyir, müvafiq texnologiyalardan (ölçmə, kəsmə, biçmə, tikmə, toxuma, qatlama, yapma, birləşdirmə və s.) və texnoloji vasitələrdən istifadə edir, sadə məmulatlar hazırlayır;
- sadə məişət xidmətlərini yerinə yetirir;
- birgəfəaliyyət bacarıqları nümayiş etdirir, özünün və başqalarının hazırladığı məmulatlara münasibət bildirir;
- təhlükəsizlik texnikası və sanitariya-gigiyena qaydalarını şərh edir və praktik fəaliyyətdə onlara riayət etdiyini nümayiş etdirir;
- yaradıcılıq tələb edən sadə model və layihələr qurur.

**"Fiziki tərbiyə" fənni üzrə şagird:**



- hərəki qabiliyyətlərini formalaşdıran oyunları və hərəkət komplekslərini icra edir, müəyyən edilmiş normativləri yerinə yetirir;
- hərəki vərdiş və bacarıqları formalaşdıran müxtəlif statik və dinamik hərəkətləri sadə üsullarla icra edir;
- idman oyunlarını, o cümlədən milli idman oyunlarını və onların növlərini təqdim edir;
- şəxsi gigiyena və təbii vasitələrlə orqanizmi möhkəmləndirmək qaydalarını izah edir;
- fiziki tərbiyə prosesində intizam və rejim qaydalarına əməl edir, birgəfəaliyyət bacarıqlarını nümayiş etdirir.

**"Musiqi" fənni üzrə şagird:**

- mahnı oxumaq qaydalarından istifadə edir, mahnıların mətnlərini məzmununa görə səhnələşdirir;
- musiqi alətlərini səslənməsinə, musiqi əsərlərini xarakterinə görə fərqləndirir və onlara münasibət bildirir;
- musiqini emosional qavramasını onun xarakterinə uyğun ritmik hərəkətlər etməklə nümayiş etdirir;

- musiqi notlarını adlandırır və oxuyur, onları sadə musiqi alətlərində ifa edir.

**"Təsviri incəsənət" fənni üzrə şagird:**

- əşyaları və hadisələri praktik yolla təsvir edir;
- yaş səviyyəsinə uyğun təsviri sənət nümunələrini izah edir, onları fərqləndirir;
- əşyanın məzmunu və forması arasındakı əlaqəni şərh edir;
- rəng çalarlarını ayırır, rəngləri emosional məna çalarlarına görə müqayisə edir;
- sadə kompozisiyalar qurur və onların ayrı-ayrı hissələrini mütənasib qaydada yerləşdirir;
- sadə tərtibat xarakterli işləri yerinə yetirir.

**10.2. Ümumi orta təhsil səviyyəsində məzmun standartları**



***"Azərbaycan dili" (təlim Azərbaycan dilində olan məktəblərdə), "Rus dili" (təlim rus dilində olan məktəblərdə), "Gürcü dili" (təlim gürcü dilində olan məktəblərdə) fənləri üzrə şagird:***

- dinlədiyi mətnlərə münasibət bildirməklə, mövqeyini əsaslandırır;
- mətni düzgün və ifadəli oxuyur, məzmun və strukturuna görə təhlil edir;
- dil vahidlərindən istifadə etməklə, müxtəlif tipli (nəqli, təsviri, mühakimə) və formalı (inşa, esse, hekayə) mətnlər qurur, onları təkmilləşdirir;
- müxtəlif məzmunlu məlumatlar əsasında təqdimatlar edir;
- şifahi və yazılı nitqində zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir.

**"Azərbaycan dili" (dövlət dili kimi) fənni üzrə şagird:**

- dinlədiyi mətnin məzmununu izah edir, ona münasibət bildirir;

- şüurlu və ifadəli oxu bacarıqlarını nümayiş etdirir;
- müxtəlif formalı rabitəli mətnlər qurur və təqdim edir;
- öz fikirlərini sərbəst, ardıcıl və aydın ifadə edir;
- nitq bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif mənbələrdən istifadə edir, tərcümə bacarığını nümayiş etdirir.

**"Ədəbiyyat" fənni üzrə şagird:**

- ədəbi-bədii nümunələri onların məzmunundan irəli gələn məna çalarlarına uyğun ifadəli oxuyur, mətni bədii-emosional cəhətdən qüvvətləndirən sözlərin mahiyyətini izah edir;
- yazılı nitqində məzmuna uyğun üslub müəyyənləşdirir, orfoqrafiya və orfoepiya qaydalarına əməl edir, söz ehtiyatından səmərəli istifadə edir, fikirlərini ardıcıl və məntiqli ifadə edir, ümumiləşdirmələr aparır;
- ədəbi nümunələrlə bağlı fikirlərini aydın, ardıcıl, məqsədyönlü, yığcam, yeri gəldikcə bədii təsvir vasitələrindən istifadə etməklə şərh edir;
- müxtəlif janrlarda yazılmış mətnlər üzərində sərbəst işləyir, onlarda ifadə olunmuş əsas ideyanı şərh edir, mətni məzmununa uyğun hissələrə ayırır və müvafiq plan tərtib edir;
- şifahi və yazılı ədəbiyyatın oxşar və fərqli cəhətlərini, xarakterik xüsusiyyətlərini konkret nümunələrlə izah edir, öz fikirlərini müqayisələr aparmaqla əsaslandırır;
- ədəbi əsərləri məzmun və ideya istiqamətinə, sənətkarlıq cəhətlərinə, obrazların səciyyəsinə görə təhlil edir, öz şəxsi münasibətini, mülahizələrini bildirir;
- ədəbi əsərlərin müzakirəsi zamanı tolerantlıq, obyektivlik, ədalətlilik, əsaslandırma və ümumi rəyə gələ bilmək bacarıqlarını nümayiş etdirir.



**"Xarici dil" fənni üzrə şagird:**

- dinlədiyi və oxuduğu mətnlərin məzmununa münasibət bildirir;
- dialoji və monoloji nitq bacarıqlarını nümayiş etdirir;

- dilin öyrənilməsi prosesində ünsiyyət etiketi qaydalarına əməl edir, yoldaşlarının nitqinə münasibət bildirir;
- fikirlərini yazılı ifadə edir;
- lüğətlərdən, əlavə materiallardan, texnoloji vasitələrdən istifadə edir, sadə mətnləri tərcümə edir.

**"İkinci xarici dil" fənni üzrə şagird:**
- dinlədiyi fikrin məzmununu izah edir;
- əşya və hadisələri, onlara aid əlamətləri ifadə edir;
- sadə nitq etiketləri əsasında ünsiyyət qurur;
- yeni sözlərin mənasını lüğət vasitəsilə müəyyən edir;
- kiçikhəcmli mətnləri oxuyur və məzmununu izah edir;
- kiçikhəcmli şifahi və yazılı mətnlər qurur.

**"Riyaziyyat" fənni üzrə şagird:**
- ölçmə və hesablama ləvazimatlarından istifadə edir, şifahi, yazılı formada dəqiq və ya təqribi hesablamalar aparır;
- simvollarla ifadə olunmuş cəbri dildən istifadə edir;
- rasional ifadələr üzərində eynilik çevrilmələri aparır, xətti və kvadrat tənlikləri, xətti bərabərsizliklər sistemini həll edir;
- funksiya anlayışından və qrafiklərdən real asılılıqların öyrənilməsində və şərhində istifadə edir;
- müstəvi fiqurlarının və sadə fəza cisimlərinin xassələrini praktik həndəsi məsələlərin həllində tətbiq edir, sadə həndəsi qurmalar və ölçmələr aparır;
- riyazi və statistik məlumatları toplayır, araşdırır, sistemləşdirir və nəticəsini təqdim edir;
- statistika və ehtimal əsasında hadisənin başvermə mümkünlüyünü proqnozlaşdırır;
- mühakimələrini məntiqi əsaslandırır, yazılı və şifahi nitqində fikirlərini dəqiq, aydın və yığcam ifadə edir;
- müxtəlif həyati məsələlərin həllində riyazi bilikləri tətbiq edir;
- fəaliyyətini layihələndirir, onların əsasında alqoritmlər qurur, nəticələri yoxlayır və qiymətləndirir.

**"İnformatika" fənni üzrə şagird:**

- informasiya və kommunikasiya texnologiyalarının müasir cəmiyyətdə rolunu və əhəmiyyətini şərh edir;
- gündəlik həyatda və məişətdə lazım olan məsələləri kalkulyator rejimində həll edir;
- kompüterdə istifadə olunan əməliyyat sistemini tənzimləyir;
- mətn redaktorunda sadə olmayan mətnləri yığır və formatlaşdırır, mətnə müxtəlif yaddaşlardan şəkillər daxil edir;
- qrafik redaktorda müəyyən çətinlik dərəcəsinə malik şəkillər hazırlayır, şəklin atributlarını dəyişdirir, onlara müvafiq mətnlər daxil edir;
- obyektin xassələrini, parametrlərini və mühitini təyin edir, obyektlər sistemini təsnif edir;
- obyektin informasiya modelini qurur və onun təbii modelini təsvir edir;
- informasiyanın xassələrini, kodlaşdırılmasını, qəbul edilməsini və ötürülməsini nümunələr əsasında izah edir;
- şəbəkə növləri vasitəsilə məlumatları axtarır, toplayır, sistemləşdirir və onlardan məqsədyönlü istifadə edir;
- müxtəlif təqdimatlar hazırlayır və nümayiş etdirir;
- elektron cədvəllərdən istifadə etməklə, yeni sənədlər tərtib edir;
- müxtəlif şəbəkə növlərindən, şəbəkənin işini təmin edən proqram təminatından istifadə edir, sadə "Web" səhifələr yaradır.

**"Azərbaycan tarixi" fənni üzrə şagird:**

- tarixi hadisələri xronoloji əsasda təsvir edir, onlar arasındakı səbəb və nəticə əlaqələrini izah edir;
- sivilizasiyaların formalaşmasında, dünya mədəniyyətinin, incəsənətinin inkişafında Azərbaycanın rolu və mövqeyi barədə mülahizələrini şərh edir;

- tarixi fakt və hadisələrə, tarixi şəxsiyyətlərə və onların fəaliyyətinə münasibət bildirir, onları müvafiq dövr baxımından qiymətləndirir.

**"Ümumi tarix" fənni üzrə şagird:**

- tarixi dövrləri və sivilizasiyaları xarakterik əlamətlərinə görə fərqləndirir, tarixi şəxsiyyətləri, hadisələri və faktları dövr baxımından qiymətləndirir, onlara münasibət bildirir;
- tarixi paralellər aparmaq yolu ilə ayrı-ayrı dövlətlərin inkişaf tendensiyalarını, ictimai, iqtisadi, siyasi prosesləri müqayisə edir, nəticə çıxarıb mülahizələrini şərh edir;
- müxtəlif tarixi mənbələri araşdırmaqla, lazımi materialları toplayıb sistemləşdirir və təqdim edir.

**"Fizika" fənni üzrə şagird:**



- təbiət hadisələrini xarakterinə görə qruplaşdırır və onların başvermə səbəblərini fiziki qanunlar əsasında izah edir;
- təbiət hadisələrinin qanunauyğunluqları haqqında məlumatlar toplayır, onları ümumiləşdirib şərh edir;
- fiziki hadisələri müşahidə edir, nəticələri ümumiləşdirir və onlar haqqında mülahizələrini təqdim edir;
- fiziki kəmiyyətləri ölçür və nəticələrindən gündəlik həyatda tətbiq üçün istifadə edir, bu prosesdə təhlükəsizlik qaydalarına əməl edir;
- fizika elminin cəmiyyətin sosial-iqtisadi tərəqqisində rolu və əhəmiyyəti, görkəmli fizik-alimlərin yaradıcılığı barədə təqdimatlar edir.

**"Kimya" fənni üzrə şagird:**

- kimyəvi hadisələrin mahiyyətini dərk etmək üçün müşahidələr və təcrübələr aparır, alınmış nəticələr əsasında onlara münasibət bildirir;
- maddələrin quruluşunu, xassələrini, onların çevrilməsinin səbəblərini izah edir;

- maddələrin çevrilməsini tətbiq və idarə edir;
- ətraf aləmə həssas və qayğıkeş münasibət nümayiş etdirir, müşahidə etdiyi hadisələri ümumiləşdirib təqdim edir;
- kimya sahəsində görkəmli alimlər və onların xüsusi əhəmiyyətə malik elmi kəşfləri, nailiyyətləri haqqında məlumatların ötürülməsi və yayılmasında iştirak edir.

**"Biologiya" fənni üzrə şagird:**

- canlılar aləmini təşkil edən varlıqları səciyyəvi xüsusiyyətlərinə görə müqayisə edir, bu barədə mülahizələrini şərh edir;
- bioloji varlıqlarda baş verən dəyişiklikləri müşahidə edir, nəticələri ümumiləşdirir, onları şərh edir;
- canlı varlıqlarda maddələr mübadiləsinin qanunauyğunluqlarını izah edir;
- bitkilərin əkilməsi, becərilməsi, ev heyvanlarının, quşların və digər heyvanların bəslənməsi və onlardan məhsul alınması texnologiyasını məişətdə tətbiq edir;
- fiziki, kimyəvi, bioloji amillərin canlı varlıqlara mənfi təsiri barədə nəzəri biliklərdən ekoloji problemlərin aradan qaldırılmasında istifadə edir;
- zədələnmələr zamanı ilk tibbi yardım göstərir, xəstəliklər zamanı profilaktik tədbirlər görür.



**"Coğrafiya" fənni üzrə şagird:**

- təbii mühiti təşkil edən komponentlərin əsas xüsusiyyətlərini, təbiətdəki coğrafi hadisələrin başvermə səbəblərini və yerləşmə qanunauyğunluqlarını izah edir, onların əsasında müqayisələr aparır, nəticələri ümumiləşdirir, yazılı və şifahi təqdim edir;
- coğrafi təbəqənin əhəmiyyətini və onun mühafizəsinin həyat üçün vacibliyini müvafiq dəlillər əsasında şərh edir;
- müxtəlif şərait və vəziyyətlərdə ətraf mühitin öyrənilməsində coğrafi cihazlardan istifadə edir;

- müəyyən ərazinin kartoqrafik təsvirini verir, xəritə və plan üzrə təhlillər aparır, xəritədən, coğrafi məlumatlardan, statistikadan istifadə edərək, müvafiq hesablamalar aparır və nəticələrə dair diaqramlar, cədvəllər qurur;
- Azərbaycanın, eləcə də müxtəlif ölkələrin təbiəti, təbii ehtiyatları, əhalisi, iqtisadi inkişaf meyilləri haqqında əlavə məlumatlar toplayır, sistemləşdirir, onların əsasında təqdimatlar edir.

**"Həyat bilgisi" fənni üzrə şagird:**

- müvafiq normativ hüquqi sənədlərdə təsbit olunmuş insan hüquq və azadlıqlarına dair müddəaların mahiyyətini konkret tarixi hadisələrin, faktların, ədəbi əsərlərin nümunəsində şərh edir, özünün və başqalarının hüquqlarına hörmətlə yanaşdığını nümayiş etdirir;
- zərərli vərdişlərin insan həyatı üçün təhlükəli olduğunu və ağır nəticələr verdiyini konkret nümunələr əsasında şərh edir, sağlam həyat tərzi keçirdiyini gündəlik fəaliyyətində nümayiş etdirir;
- həyat fəaliyyətinin təhlükəsizliyi qaydalarına yiyələndiyini yazılı və şifahi təqdimatlarında, təlim-məşq tədbirlərində nümayiş etdirir;
- mənəvi-əxlaqi mövzulara həsr olunmuş müzakirələrdə, diskussiya-larda və digər tədbirlərdə müvafiq problemlərlə bağlı rəy və mülahizələrini bildirir, hadisə və faktları mahiyyətinə görə qiymətləndirməklə şəxsi mövqeyini və münasibətini büruzə verir;
- gündəlik həyatda iqtisadi səmərəliliyə dair kiçik layihələr qurur, onları təqdim və tətbiq edir;
- təbiət və cəmiyyət hadisələri ilə bağlı qanunauyğunluqların mahiyyətini izah edir, həmin məsələlərlə əlaqədar bu fənn daxilində əldə etdiyi məlumatları digər fənlərdəki eyni məzmunlu məlumatlarla müqayisə edir, onları sistemləşdirir və ümumiləşdirmələr aparır.

**"Texnologiya" fənni üzrə şagird:**

- müstəqil həyatda zəruri sayılan ilkin texniki və texnoloji bilikləri tətbiq edir, təhlükəsizlik texnikası qaydalarına riayət etməklə, gündəlik məişətdə vacib olan texnoloji işləri yerinə yetirir, sadə məmulatlar hazırlayır;
- sadə layihələr tərtib edib onları həyata keçirir, məmulatların hazırlanmasında dizayn tələblərinə əməl edir, mürəkkəb olmayan təmir-tikinti işlərini yerinə yetirir;
- texnoloji proseslərə aid informasiyaları toplayıb sistemləşdirir, məmulatların hazırlanmasında onlardan istifadə edir;
- şəraitə və təbii imkanlara uyğun olaraq becərmə, bəsləmə, tədarük və emaletmə bacarıqlarını nümayiş etdirir;
- əmək fəaliyyətini planlaşdırır və idarə edir;
- iş prosesində birgəfəaliyyət bacarıqlarını nümayiş etdirir.

**"Fiziki tərbiyə" fənni üzrə şagird:** 

- ayrı-ayrı hərəki qabiliyyətlərinin inkişafı üçün hərəkətlər kompleksi seçir və onları müvafiq rejim və üsullarla yerinə yetirir;
- fiziki hazırlığını təkmilləşdirmək və sağlamlığını möhkəmləndirmək üçün vasitə və tədbirlər müəyyənləşdirib icra edir, hərəki qabiliyyətləri üzrə müəyyən edilmiş normativləri yerinə yetirir;
- hərəki fəaliyyət prosesində müvafiq təhlükəsizlik qaydalarına, tibbi-gigiyenik tələblərə, gün rejiminə əməl edir;
- kollektiv fəaliyyət zamanı öz yerini və rolunu müəyyənləşdirir, zəruri məqamlarda qabaqcıl və həlledici mövqe tutur, hərəki potensialını reallaşdırır, əməkdaşlıq bacarıqlarını nümayiş etdirir.

**"Musiqi" fənni üzrə şagird:**

- Azərbaycanın görkəmli klassik və müasir musiqi xadimləri, dünya musiqi sənətinin tanınmış nümayəndə-

ləri, onların geniş yayılmış məşhur əsərləri haqqında təqdimatlar edir;

- folklor musiqi nümunələrini, aşıq havalarını, muğamları və onların tərkib hissələrini tanıyır, musiqi əsərlərini ifa vasitələrinə görə müqayisə edir, onları janr və formasına görə fərqləndirir;
- musiqi əsərlərini melodik, ritmik və poetik xüsusiyyətlərinə görə təhlil edir;
- musiqi melodiyalarını notla oxuyur;
- fərdi, qrup və kollektiv daxilində ifaçılıq bacarığını nümayiş etdirir.

**"Təsviri incəsənət" fənni üzrə şagird:**

- təsviri incəsənətin cəmiyyət həyatında əhəmiyyətini izah edir;
- Azərbaycanın, dünya incəsənətinin görkəmli nümayəndələri və onların əsərləri haqqında məlumatları şərh və təqdim edir;
- təsviri sənət növlərini, onları təşkil edən əsas janrları ayırır, bunların xarakterik xüsusiyyətlərini izah edir;
- həyati görüntüləri real, habelə abstrakt tərzdə təsvir edir;
- bədii sənət əsərlərini milli-üslubi cəhətlərinə görə müqayisə və izah edir;
- bədii tərtibat və dizayn bacarıqlarını nümayiş etdirir.



**10.3. Tam orta təhsil səviyyəsində məzmun standartları**

***"Azərbaycan dili" (təlim Azərbaycan dilində olan məktəblərdə), "Rus dili" (təlim rus dilində olan məktəblərdə), "Gürcü dili" (təlim gürcü dilində olan məktəblərdə) fənləri üzrə şagird:***

- müxtəlif mənbələrdən aldığı məlumatları təhlil edir və onlara münasibət bildirir;
- mətnləri üslubi-struktur xüsusiyyətlərinə görə təhlil edir və qiymətləndirir;

- mənbələrdən istifadə etməklə, müxtəlif üslublu mətnlər qurur;
- müzakirə, görüş, diskussiya və s. tədbirlər üçün məruzə, təqdimat və ssenarilər hazırlayır;
- nitqin dəqiqliyi, düzgünlüyü və ifadəliliyi üçün zəruri olan normaları şifahi və yazılı nitqində tətbiq edir.

**"Azərbaycan dili" (dövlət dili kimi) fənni üzrə şagird:**
- dinlədiyi fikirlərlə bağlı mühakimələrini əsaslandırır;
- Azərbaycan dilində aparılan tədbirlərdə çıxış və təqdimatlar edir;
- oxuduğu mətnlərin məzmunu və üslubu haqqında rəy və mülahizələrini bildirir;
- nitqin müxtəlif üslub və tiplərində mətnlər qurur;
- sərbəst tərcümə bacarığını nümayiş etdirir.

**"Ədəbiyyat" fənni üzrə şagird:**



- oxuduğu ədəbi nümunələri bədii-emosional və obrazlı qavradığını nümayiş etdirir;
- ayrı-ayrı mövzulara dair müvafiq üslublarda yaradıcı xarakterli yazılar təqdim edir;
- mövzu, süjet, kompozisiya, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi baxımından ədəbi nümunələr üzərində araşdırmalar aparır;
- ədəbi nümunələri mövzu, janr, problem baxımından müqayisə edir, əsaslandırılmış rəy bildirir;
- ədəbi əsərin məzmununa və ideyasına onun yarandığı dövrdə mövcud olan ictimai-siyasi və əxlaqi-etik dəyərlər kontekstində qiymət verir;
- ədəbi mövzulara aid tədbirlərin təşkilində iştirak edir, ədəbi nailiyyətlərə münasibət bildirir;
- mənbələr üzərində işləyir, görkəmli ədəbi şəxsiyyətlər, ədəbiyyat və mədəniyyət sahəsindəki nailiyyətlər barədə materiallar toplayır, müxtəlif ədəbi mövzularda təqdimatlar hazırlayır.

**"Xarici dil" fənni üzrə şagird:**

- dinlədiyi nitqin məzmununa münasibət bildirir;
- müxtəlif cümlə konstruksiyalarından istifadə etməklə fikirlərini izah edir;
- müzakirə və diskussiyalarda fikirlərini əsaslandırır;
- oxunmuş mətnin planını tərtib edir, qısa məzmununu yazır;
- sadə süjetli yazılı mətnlər qurur;
- dilin öyrənilməsi prosesində müxtəlif mənbələrdən istifadə edir.

**"İkinci xarici dil" fənni üzrə şagird:**

- dinlədiyi və oxuduğu mətnlərin məzmununa münasibət bildirir;
- dialoji və monoloji nitq bacarıqlarını nümayiş etdirir;
- mətnləri oxuyur, planını tərtib edir, qısa məzmununu yazır;
- öz fikrini şifahi və yazılı ifadə edir;
- sadə mətnləri lüğətlər vasitəsilə tərcümə edir.



**"Riyaziyyat" fənni üzrə şagird:**

- riyazi materiallara aid alqoritmləri yerinə yetirir, real həyatda riyazi anlayış və düsturlardan istifadə edir;
- kəmiyyətlər arasındakı asılılığı müəyyənləşdirir və riyazi dillə ifadə edir;
- cəbri çevrilmələrdən və funksional asılılıqlardan yaxın fənlərin öyrənilməsində və ətraf aləmin mövcud qanunauyğunluqlarının araşdırılmasında istifadə edir;
- genişləndirilmiş fəza təsəvvürlərindən çertyoj, şəkil və sxemlərin çəkilməsində, ətraf aləmdəki əşyaların təsvirində istifadə edir;
- ətraf aləmdəki ehtimal və statistikanın qanunauyğunluqlarının mövcudluğu haqqında məlumatları izah edir, ehtimalın klassik modelinə əsasən hadisələrin baş verməsini proqnozlaşdırır;
- ölçmə və hesablama vasitələrindən istifadə edir, yazılı və şifahi əməliyyatlar aparır;

- mühakimələrini riyazi faktlarla əsaslandırır və məntiqi nəticələrini şərh edir, isbat olunmuş təklifi ehtimal və fərz olunandan fərqləndirir.

**"İnformatika" fənni üzrə şagird:**

- informasiyaları ölçür, təsvir edir və informasiya daşıyıcıları ilə işləyir;
- sadə məsələlərin həlli üçün müxtəlif strukturlu alqoritmlər tərtib edir, proqramlar hazırlayır və icra edir;
- sadə informasiya modellərinə uyğun informasiyaların işlənməsi alqoritmlərini qurur və qurulmuş modeli kompüterdə tədqiq edir;
- kompüterdə istifadə olunan əməliyyat sistemini tənzimləyir və lazımi əməliyyatları icra edir;
- qrafik redaktorda müxtəlif təsvirlərin hissələrindən istifadə edərək yeni təsvir yaradır, mətn redaktorunda cədvəl-mətnlər yığır, formatlaşdırır, cədvəllər üzərində hesablamalar aparır, sənədləri çap edir; 
- müxtəlif təqdimatlar hazırlayır, redaktə edir və ona multimedia effektlərini əlavə edir;
- elektron cədvəl prosessorunda və verilənlər bazasında müvafiq əməliyyatları icra edir;
- internetin əsas xidmətlərindən istifadə edir, müxtəlif dizaynlı "Web" səhifələr yaradır.

**"Azərbaycan tarixi" fənni üzrə şagird:**

- Azərbaycanın tarixi keçmişi və müasir dövrü haqqında zəruri biliklərə malik olduğunu nümayiş etdirir;
- tarixi hadisə və proseslərin mahiyyətini konkret dövrün xüsusiyyətləri baxımından izah edir və ona münasibət bildirir;
- tarixi informasiyaları toplayır, sistemləşdirir, təhlil edir və nəticələr barədə təqdimatlar hazırlayır; tarixi hadisələrlə bağlı fərziyyə və mülahizələr irəli sürür, proqnozlar verir;
- debatlarda, diskussiyalarda, müzakirələrdə Azərbaycan haqqında ictimai rəy formalaşdıran təkliflərlə çıxış edir,

Azərbaycan cəmiyyətində hüquqi-siyasi dəyərlərin (demokratiya, şəxsiyyət azadlığı və s.) reallaşmasına münasibət bildirir.

**"Ümumi tarix" fənni üzrə şagird:**

- mənbələr əsasında müxtəlif tarixi hadisələri təhlil edir, onlar arasındakı oxşarlıq və ziddiyyətlərin səbəblərini izah edir, konkret tarixi hadisələrə dair əlavə məlumat toplayır, onları sistemləşdirir və təqdim edir, şəxsi mülahizələri əsasında referat, məruzə, tezislər hazırlayır;
- dünya tarixinin hadisə və proseslərini Azərbaycan tarixinin eyni dövrləri ilə tarixi kontekstdə müqayisə edir, təhlillər aparır və öz mülahizələrini bildirir;
- tarixi mövzulardakı dialoqlarda, keçmiş və müasir dövrün hadisə və proseslərinin müzakirəsində öz mövqeyini bildirir və əsaslandırır;
- cəmiyyətlərin inkişafında islahat və inqilabların rolunu fərqləndirir, onlara öz münasibətini bildirir;
- aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərini müqayisə edir, onların xarakterik cəhətlərini izah edir;
- tarixi proseslər və hadisələr arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirir;
- müasir dövrün qlobal problemlərini şərh edir, onların aradan qaldırılması ilə bağlı öz fərziyyələrini bildirir.



**"Fizika" fənni üzrə şagird:**

- fiziki qanunların mahiyyətini və xarakterik xüsusiyyətlərini izah edir;
- fiziki hadisələrin müəyyən qanun və qanunauyğunluqlarla əlaqəsini və tətbiqi yollarını şərh edir;
- nəzəri biliklərin həyatda reallaşdırılması imkanlarını nümayiş etdirir.

**"Kimya" fənni üzrə şagird:**

- qeyri-üzvi və üzvi maddələri fərqləndirir, onların xarakterik cəhətlərini izah edir;
- kimyəvi hadisələri məişətdə tətbiq edir;

- kimyəvi qanun və qanunauyğunluqların mahiyyətini dərk etmək üçün eksperimentlər və müşahidələr aparır, nəticələrini ümumiləşdirir və bu barədə şifahi və yazılı təqdimatlar hazırlayır;
- ekoloji problemlərin həlli ilə bağlı kiçik layihələr hazırlayır və təqdim edir.

**"Biologiya" fənni üzrə şagird:**

- bioloji varlıqların yaranması və inkişafı ilə bağlı, habelə canlı orqanizmlərdə gedən bioloji prosesləri şərh və izah edir;
- insanın əmələ gəlməsi, irqlərin yaranması, irsiyyət, qlobal ekoloji problemlərin başvermə səbəbləri və aradan qaldırılması yolları barədə materiallar toplayır, sistemləşdirir, müqayisə və təhlil edərək qiymətləndirir;
- irsiyyətin qanunauyğunluqlarını məsələ həlli yolu ilə əsaslandırır və nəticələrini şərh edir;
- seleksiyanın nailiyyətlərinin ayrı-ayrı sahələrdə əhəmiyyətini və tətbiqi yollarını izah edir.



**"Coğrafiya" fənni üzrə şagird:**

- coğrafi təbəqənin tərkib hissələrinin inkişaf qanunauyğunluqlarını, onların qarşılıqlı əlaqəsini, ətraf mühitə təsirinin nəticələrini izah edir, təbii komplekslərin müqayisəli təhlilini aparır, onlarda baş verən dəyişikliklərin səbəblərini nümunələr əsasında şərh edir;
- ətraf mühitin dəyişilməsi prosesini müşahidə etmək üçün təcrübələr aparır, sınaqlar keçirir, onların nəticələrini ümumiləşdirib təqdim edir;
- müvafiq nəzəri biliklər əsasında iqtisadi səmərəliliyin təmin olunması ilə bağlı fərdi qaydada, habelə qrup daxilində kiçik layihələr hazırlayır, hesablamalar aparır, nəticələrin tətbiqi üzrə mülahizələr irəli sürür;
- müxtəlif məzmunlu plan və xəritələr hazırlayır, ayrı-ayrı sahələr üzrə coğrafi hesablamalar aparır və müvafiq diaqramlar, sxem və cədvəllər tərtib edir;

- geosiyasi dəyişiklikləri təhlil edir və ümumiləşdirmələr aparır, bu dəyişikliklərin ölkəmizə təsiri barədə mülahizələr irəli sürür;
- öz biliyini və məlumat dairəsini genişləndirmək üçün əlavə materiallar toplayır, onları sistemləşdirib yazılı və şifahi təqdim edir.

**"Fiziki tərbiyə" fənni üzrə şagird:**
- hərəki qabiliyyətlərin inkişafı üzrə müəyyən edilmiş normativləri yerinə yetirir;
- fiziki tərbiyə prosesinə aid nəzəri məlumatları izah edir və bu məlumatlardan praktik fəaliyyətin qurulmasında məqsədyönlü istifadə edir;
- seçdiyi idman növünün xüsusiyyətlərinə uyğun hərəkətlər kompleksi müəyyənləşdirir və icra edir;
- fərdi, yaxud komanda tərkibində fəaliyyət zamanı təşkilatçılıq, psixoloji dayanıqlıq, dözümlülük, mübarizlik, ümumi mənafeyə xidmət etmək keyfiyyətlərini nümayiş etdirir;
- fiziki hazırlıq və sağlamlığın möhkəmləndirilməsi ilə bağlı zəruri vasitələri seçir və tətbiq edir;
- zəruri şəraitdə ilk tibbi yardım göstərir.



**"Çağırışaqədərki hazırlıq" fənni üzrə şagird:**
- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin tarixi, tərkibi, inkişafı haqqında məlumatları, hərbi xidmət barədə qanunun tələblərini şərh edir;
- Azərbaycan Respublikasının Silahlı Qüvvələrində istifadə olunan hərbi texnika və sursatlar haqqında zəruri məlumatlara malik olduğunu nümayiş etdirir, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamna-mələrində təsbit olunmuş əsas müddəaları mənimsədiyini, tibbi yardım və mülki müdafiə bacarıqlarına, topoqrafik vərdişlərə yiyələndiyini nümayiş etdirir;
- qeyri-müəyyən şərait və hallarla əlaqədar yaranmış vəziyyətlərdə problemləri həll etmək üçün üsul və vasitələrdən istifadə edir;

- mülki müdafiə, sıra təlimi və fiziki hazırlığa aid normativləri yerinə yetirir, onların icrası zamanı qrup və komanda tərkibində əlaqəli fəaliyyət göstərir.

**11. Ümumi təhsil pilləsində tədris edilən fənlər**

11.1. Ümumi təhsil pilləsində tədris edilən fənlər aşağıdakılardır:

11.1.1. İbtidai təhsil səviyyəsində:

"Azərbaycan dili" (təlim Azərbaycan dilində olan məktəblərdə), "Rus dili" (təlim rus dilində olan məktəblərdə), "Gürcü dili" (təlim gürcü dilində olan məktəblərdə), "Azərbaycan dili" - dövlət dili kimi (təlim digər dillərdə olan məktəblərdə), "Xarici dil", "Riyaziyyat", "İnformatika", "Həyat bilgisi", "Texnologiya", "Fiziki tərbiyə", "Musiqi", "Təsviri incəsənət";

11.1.2. ümumi orta təhsil səviyyəsində:

"Azərbaycan dili" (təlim Azərbaycan dilində olan məktəblərdə), "Rus dili" (təlim rus dilində olan məktəblərdə), "Gürcü dili" (təlim gürcü dilində olan məktəblərdə), "Azərbaycan dili" - dövlət dili kimi (təlim digər dillərdə olan məktəblərdə), "Ədəbiyyat", "Xarici dil", "İkinci xarici dil", "Riyaziyyat", "İnformatika", "Azərbaycan tarixi", "Ümumi tarix", "Fizika", "Kimya", "Biologiya", "Coğrafiya", "Həyat bilgisi", "Texnologiya", "Fiziki tərbiyə", "Musiqi", "Təsviri incəsənət";



11.1.3. tam orta təhsil səviyyəsində:

"Azərbaycan dili" (təlim Azərbaycan dilində olan məktəblərdə), "Rus dili" (təlim rus dilində olan məktəblərdə), gürcü dili (təlim gürcü dilində olan məktəblərdə), "Azərbaycan dili" - dövlət dili kimi (təlim digər dillərdə olan məktəblərdə), "Xarici dil", "İkinci xarici dil", "Riyaziyyat", "İnformatika", "Azərbaycan tarixi", "Ümumi tarix", "Fizika", "Kimya", "Biologiya", "Coğrafiya", "Fiziki tərbiyə", "Çağırışaqədərki hazırlıq".

### 12. Ümumi təhsilin səviyyələri üzrə həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının maksimum miqdarı

| | Həftəlik dərs saatlarının maksimum miqdarı | | | |
|---|---|---|---|---|
| **Tədris dilləri** | **ibtidai təhsil səviyyəsi I-IV siniflər** | **ümumi orta təhsil səviyyəsi V-IX siniflər** | **tam orta təhsil səviyyəsi X-XI siniflər** | **yekun I-XI siniflər** |
| Azərbaycan dili | 91/8 | 149/15 | 66/8 | 306/31 |
| Digər dillər | 99/8 | 159/15 | 70/8 | 328/31 |

***Qeydlər:***



*1. Kəsrin surətindəki ədəd dərs saatlarının, məxrəcindəki ədəd isə dərsdənkənar məşğələ saatlarının miqdarını əks etdirir.*

*2. Zəruri hallarda dərsdənkənar məşğələ saatlarından digər fənnin (fənlərin) tədrisinə ayrıla bilər.*

12.1. Ümumi təhsil müəssisələrində siniflər şagirdlərin sayı 20 nəfər olmaqla müəyyən edilir. Zəruri hallarda ümumi təhsil müəssisələrində mövcud qanunvericiliyin tələbləri gözlənilməklə, siniflər şagirdlərin sayı 20 nəfərdən az olmaqla müəyyən edilə bilər.

### 13. Ümumi təhsil sistemində pedaqoji prosesin təşkili prinsipləri

13.1. Pedaqoji proses əvvəlcədən müəyyən olunmuş nəticələri əldə etmək üçün müəllimlərin əlaqələndirici, istiqamətverici, məsləhətçi, şagirdlərin isə tədqiqatçı, təcrübəçi, yaradıcı subyektlər kimi qarşılıqlı əməkdaşlıq fəaliyyətləri əsasında aşağıdakı prinsiplər nəzərə alınmaqla qurulur:

13.2. ***pedaqoji prosesin tamlığı*** – pedaqoji prosesdə təlimin məqsədləri kompleks şəkildə (inkişafetdirici, öyrədici, tərbiyəedici) həyata keçirilir, real nəticələrlə yekunlaşan müəllim və şagird fəaliyyətini əhatə edir;

13.3. ***təlimdə bərabər imkanların yaradılması*** – bütün şagirdlərə eyni təlim şəraiti yaradılır və pedaqoji proses onların potensial imkanları nəzərə alınmaqla tənzimlənir;

13.4. ***şagirdyönümlülük*** – şagird pedaqoji prosesin mərkəzində dayanır. Bütün tədris və təlim işi şagirdlərin maraq və tələbatlarının ödənilməsinə, onların istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına yönəldilir;

13.5. ***inkişafyönümlülük*** – şagirdlərin əqli fəallığı izlənilir, nailiyyətləri təhlil edilir, bilik, bacarıq və vərdişlərinin inkişaf səviyyəsi tənzimlənir;

13.6. ***fəaliyyətin stimullaşdırılması*** – pedaqoji prosesin səmərəli və effektiv qurulması, şagirdlərin təlimə marağının artırılması üçün onların fəaliyyətindəki bütün irəliləyişlər qeyd olunur və dəyərləndirilir, nəticə etibarilə şagirdlərin daha uğurlu təlim nəticələrinə istiqamətləndirilməsi təmin olunur;



13.7. ***dəstəkləyici mühitin yaradılması*** – pedaqoji prosesin münasib maddi-texniki baza əsasında və sağlam mənəvi-psixoloji mühitdə təşkil edilməsi keyfiyyətin və səmərəliliyin yüksəldilməsi üçün əlverişli və təhlükəsiz təlim şəraiti yaradır.

**14. Təlim nailiyyətlərinin (nəticələrinin) qiymətləndirilməsi və monitorinqi**

14.1. Təlim nailiyyətlərinin qiymətləndirilməsi:

- təlim fəaliyyətinin ayrılmaz tərkib hissəsi kimi ardıcıl və sistemli xarakter daşıyır, təhsilin keyfiyyətinin dəyərləndirilməsinə və yüksəldilməsinə xidmət edir, təhsilin keyfiyyəti və inkişafı haqqında müvafiq məlumatların (şagirdlərin təlimə münasibətləri və onların nailiyyətləri, müəllimlərin hazırlıq səviyyəsi, kurikulumların məqsədəmüvafiqliyi, təlim resursları ilə təminatı və

idarəetmə üsulları) toplanması və onların təhlili ilə müşayiət olunur;

- məqsədəmüvafiqlik, qarşılıqlı dəyərləndirmə və etibarlılıq, inkişafyönümlülük, şəffaflıq və qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslanır;
- test tapşırıqlarının verilməsi və yoxlanması, sinifdə müşahidələrin aparılması, fənn kurikulumlarının icra vəziyyətinin, şagird və müəllimlərin fəaliyyətinin müşahidə olunması, qiymət cədvəllərinin və digər məktəb sənədlərinin təhlili və digər üsullarla həyata keçirilir;
- məktəbdaxili, milli və beynəlxalq istiqamətlərdə aparılır;

14.2. Məktəbdaxili qiymətləndirmə 3 komponent üzrə həyata keçirilir:

- şagird irəliləyişinin monitorinqi - məktəb səviyyəsində müəllim və məktəb rəhbərləri tərəfindən həyata keçirilir, bu mərhələdə şagirdlərin nailiyyətləri formativ (müntəzəm, davamlı), mikrosummativ (bəhs və bölmələr üzrə) və makrosummativ (yarımilliklər üzrə) formalarda yazılı və şifahi aparılır;
- kurikulum üzrə qiymətləndirmə - şagirdlərin təlim nəticələrinin müvafiq məzmun standartlarına uyğunluğunu müəyyənləşdirmək məqsədi ilə aparılır;
- təhsil səviyyələri (orta və tam orta) üzrə yekun qiymətləndirmə - mərkəzləşmiş qaydada aparılan buraxılış imtahanları formasında həyata keçirilir və müvafiq təhsil sənədinin verilməsi ilə başa çatır. Tam orta təhsil pilləsində şagirdlərin müvafiq təmayüllər üzrə təhsil almaları ümumi orta təhsil səviyyəsində keçirilmiş yekun qiymətləndirmənin nəticələrinə görə müəyyən olunur;

14.3. Milli qiymətləndirmə, bir qayda olaraq, 4-5 ildən bir keçirilir. Təhsil prosesinin təşkili, planlaşdırılması və aparıldığı şərait haqqında toplanmış məlumatlar vasitəsilə kurikulumların keyfiyyətini və ümumi təhsil sistemində baş verən dəyişiklikləri dəyərləndirmək məqsədi ilə aparılır;

14.4. Beynəlxalq qiymətləndirmə aşağıdakı məqsədlərlə aparılır:

- bir qayda olaraq, hər üç ildən bir seçmə yolla şagirdlərin təlim göstəriciləri əsasında təhsilin vəziyyəti barədə təsəvvür əldə etmək;
- müvafiq məlumatları təhlil etməklə problemləri aşkara çıxarmaq və onların həlli yollarını müəyyənləşdirmək;
- mövcud vəziyyəti digər ölkələrlə müqayisə etmək və perspektiv inkişaf istiqamətlərini proqnozlaşdırmaq;

14.5. Toplanmış məlumatların təhlili aparılır, nəticədə ölkədə təhsil sisteminin qurulması və gələcək inkişaf perspektivlərinin müəyyən-ləşdirilməsi məqsədi ilə istifadə edilir.

* Təlim digər dillərdə aparılan məktəblərdə tədris edilir.

## Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2010-cu il 3 iyun tarixli 103 nömrəli
qərarı ilə təsdiq edilmişdir

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


1. Alıyev C.Q. Pedaqoji təcrübədə psixologiyadan tapşırıqların yerinə yetirilməsi və qiymətləndirilməsi. Bakı, ADPU, 2004.
2. Alıyev C.Q., Mirzəyev R.N. İnsanı tanımağın yolları. Bakı, "Hərbi", 2011.
3. Bayramov Ə.S. Psixologiyadan laborator məşğələlər. ADU, 1981,100 s.
4. Bayramov Ə.S, Əlizadə Ə.Ə. Psixologiya, Bakı, "Maarif" 1989.
5. Bayramov Ə.S, Əlizadə Ə.Ə. Sosial psixologiya, Bakı, 2003.
6. Qədirov Ə.Ə., Məmmədov İ.N. Yaş psixologiyası. Bakı, "Təhsil", 2001.
7. Əlizadə Ə.Ə., Sultanova İ.H.Taksonomiya nəzəriyyəsi və təcrübəsi: müasir məktəbin işıqlı yolu. Bakı, 2008.
8. Əhmədov B.A., Ağayev Ş.S.,Bəşirov B.Y. Təcrübəçi tələbənin uçot-nəzarət kitabçası. Bakı, APİ,1974.
9. Əliyev B., Əliyeva K., Cabbarov R. Pedaqoji psixologiya.Bakı, "Təhsil", 2011.
10. Əlizadə Ə.Ə.Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, "Pedaqogika",1998.
11. Əlizadə Ə.Ə., H.Ə.Əlizadə. Pedaqoji psixologiya.Bakı, ADPU, 2010.
12. Həmzəyev M.Ə.Pedaqoji psixologiya. Bakı, "Maarif" 1991.
13. Məmmədov İsa. Məktəbdə psixoloji xidmət. Bakı, "Maarif" 2002.
14. Psixologiya. S.İ.Seyidovun elmi redaktorluğu ilə, Bakı, "Mütərcim", 2007.
15. Şirəliyev Ə.Ş. Xarici dil müəllimliyi ixtisası üzrə pedaqoji təcrübənin təşkili və aparılmasına dair. Baki,"Mütərcim", 2018.
16. Aliev A.A., Иbraqimova T.T., Rizaeva Г.S. Metodiçeskoe posobie po psixoloqii. Бaku, AГPU, 2017.
17. Polskaya O.Ə. Psixoloqiçeskiy pratikum v şkole. Moskva, "Prosvehenie", 1984.


---


Çapa imzalanıb: 25.10.2018.
Format: 60x84 1/16. Qarnitur: Times.
Həcmi: 11 ç.v. Tiraj: 200. Sifariş № 283.

**"Mütərcim" Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44
*e-mail: mutarjim@mail.ru*